Xalqın qəzeti!

# Xalq qəzeti

№ 02 (30971) 7 yanvar 2026-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

## Birinci vitse-prezident Mehriban Əliyeva Milad bayramı ilə bağlı paylaşım edib



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Milad bayramı ilə bağlı rəsmi sosial şəbəkə səhifələrində paylaşım edib.**

**Paylaşımda deyilir: "Milad bayramı günündə edilən bütün dua və diləklərlə həmrəy olduğumu bildirir, Uca Tanrıdan hər kəsə cansağlığı, dünyamıza əmin-amanlıq diləyirəm!".**

# Xalqımız Yeni ilə sülh təminatı və quruculuq əzmi ilə qədəm qoyub



**Biz Vətən müharibəsindəki Zəfərimizdən sonra yorulmadan bu Zəfəri beynəlxalq və siyasi müstəvidə möhkəmləndirmək və təsdiqləmək üçün çalışmışıq və buna nail olmuşuq.**

**Biz döyüş meydanında qan tökərək, şəhidlər verərək şanlı Qələbə qazanmışıq və bu Qələbəni dünyanın ən mötəbər yeri olan Amerikanın Ağ Evində, Amerika Prezidentinin iştirakı ilə möhürlədik.**

***İlham ƏLİYEV,***
*Azərbaycan Respublikasının Prezidenti*

## Hər bir azərbaycanlının Prezidenti

**Prezident İlham Əliyevin yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsi müasir Azərbaycan dövlətçiliyinin ideoloji, siyasi və strateji konturlarını aydın şəkildə ifadə edən proqram xarakterli çıxış, müstəqilliyimizin bərpasından keçən illərə bir baxış, qalib xalqın gələcəyə dair inamlı yol xəritəsi, eyni zamanda, Azərbaycanın çağdaş siyasi və mədəni gerçəkliklərini əks etdirən konseptual sənəd dəyərindədir. Bu müsahibə özündə milli birliyin, dövlətçiliyin və konstruktiv tarixi yaddaşın möhkəmləndirilməsi yönündə çoxistiqamətli ismarışlar ehtiva edir.**

Dövlət başçısının müsahibəsi ölkənin bütün önəmli sahələrinə – enerji, nəqliyyat, elm və təhsil, turizm, dövlət idarəçiliyi, ana dili, milli kimlik və digər mövzulara sistemli və ardıcıl yanaşmanın nümunəsidir. Prezident müsahibəsində ölkəmizin indiki uğurları fonunda gələcəyə yönəlmiş strateji planlarını açıq-aydın təqdim edir. Toxunulan hər bir mövzu bir-biri ilə məntiqi bağlılıq təşkil edir və Azərbaycanın güclü, dayanıqlı və müstəqil dövlət kimi inkişaf perspektivlərini özündə ehtiva edir.

*(ardı 5-ci səhifədə)*

## Tərəfdaşlıq və suverenlik balansı

*Azərbaycan Prezidenti Yaxın Şərqlə bağlı mühüm siyasi mesajlar verdi*



**Yaxın Şərqdə cərəyan edən prosesləri, oradakı silahlı münaqişələri hamı izləyir. Bu mövzuda kifayət qədər məqalələrə, müsahibələrə rast gəlmək mümkündür. Amma Azərbaycan Prezidenti İlham Əliyevin baş verənlərlə bağlı rəsmi mövqeyi, şübhəsiz, hər kəs üçün maraqlı idi. Dövlətimizn başçısı 2026-cı ilin ilk iş günü yerli televiziya kanallarına müsahibəsində ilk dəfə bu məsələyə toxunmaqla rəsmi Bakının mövqeyini beynəlxalq auditoriyaya bəyan etdi.**

*(ardı 5-ci səhifədə)*

## Güc amili – regionu yerindən oynadan **Azərbaycan**

***Prezident İlham Əliyev:*** Biz kağız – BMT Nizamnaməsi üzərində olan dünyada yaşamırıq, torpaq üzərində yaşayırıq



**Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində beynəlxalq aləmdə gücün mühüm hərəkətverici amil olması reallığına ətraflı aydınlıq gətirib. Dövlətimizin başçısı məsələyə iki aspektdən yanaşıb. Birinci aspekt Azərbaycan və Türk Dövlətləri Təşkilatı xəttinə əsaslanır. İkinci aspekt isə güc amilinə müstəqil yanaşmadır ki, bu zaman şərti olaraq götürdüyümüz Azərbaycan–dünya trayektoriyası üzərində dayanmalıyıq. Birincidən başlayaq.**

İlk növbədə, onu deyək ki, Prezident İlham Əliyev dünyadakı proseslərin hansı istiqamətdə getdiyini görür və müsahibəsində bu məqamı dilə gətirib. Belə qənaət hasil olur ki, Azərbaycan beynəlxalq aləmin bir parçası kimi özünü qorumaq məcburiyyətindədir və bu səbəbdən hərbi potensialını artırır. Eyni zamanda, ölkəmiz yalnız müdafiə mövqeyi ilə kifayətlənmir. Məqsəd dünyanın hesablaşdığı mərkəz statusunun əlahiddəliyini təmin etməkdir. Əminliklə deyə bilərik ki, ötən il bu statusun xeyli möhkəmlənməsi baxımından əlamətdardır.

*(ardı 3-cü səhifədə)*

## Məhəllələr niyə dayanacağa çevrilir?



Səhifə ⇨ 13

## Bu günün təşəbbüsü sabahın reallığıdır



Səhifə ⇨ 6

## Ali missiya və müqəddəs borc




Səhifə ⇨ 7

## Azərbaycan uzun illər Avropanı qazla təmin edəcək

Səhifə ⇨ 11

### “Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında 2025–2027-ci illər üçün elm və təhsil, mədəniyyət və incəsənət, gənclər və idman, arxeologiya, səhiyyə və media sahələri üzrə İcraedici Əməkdaşlıq Proqramı”nın təsdiq edilməsi haqqında

*Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** 2025-ci il noyabrın 27-də Bakı şəhərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında 2025–2027-ci illər üçün elm və təhsil, mədəniyyət və incəsənət, gənclər və idman, arxeologiya, səhiyyə və media sahələri üzrə İcraedici Əməkdaşlıq Proqramı” təsdiq edilsin.

**2** Bu Fərmanın 1-ci hissəsində göstərilən İcraedici Əməkdaşlıq Proqramı qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Nazirlər Kabineti onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi İcraedici Əməkdaşlıq Proqramının qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə İordaniya Haşimilər Krallığı Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 yanvar 2026-cı il**

## Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası

**Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası olub.**

Məhkəmənin mətbuat xidmətindən verilən məlumata görə, iclasda Konstitusiyanın 130-cu maddəsinin VI hissəsinə və “Konstitusiya Məhkəməsi haqqında” Qanunun 7.1-ci maddəsinə əsasən, Mülki Məcəllənin 329.1 və 337.1-ci maddələrinin şərh edilməsinə dair Bakı Apellyasiya Məhkəməsinin müraciətinə baxılaraq, Plenumun icraatına qəbul olunması haqqında qərardad qəbul edilib.

Müraciətə mahiyyəti üzrə tərəflərin iştirakı ilə Konstitusiya Məhkəməsi Plenumunun yanvarın 30-na təyin edilmiş iclasında baxılacaq.

## Daxili işlər naziri Qubada vətəndaş qəbulu və sıra baxışı keçirib





**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov yanvarın 5-də və 6-da Quba Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.**

Nazir əvvəlcə Quba rayonunda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra polis şöbəsinin inzibati binasında Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən və Xızı rayonlardan, eləcə də digər bölgələrdən qəbula gələn 276 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Nazir qəbula gələnlərin müraciətlərinin həlli istiqamətində zəruri addımların atılması və vətəndaş məmnunluğunun təmin olunması məqsədilə nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin mütləq əksəriyyəti yerindəcə öz həllini tapıb, digərləri nəzarətə götürülüb.

General-polkovnik Vilayət Eyvazov polis və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.

Vətən müharibəsinin 19 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 223 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

***XQ***

# Prezident İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsi dünya mediasının diqqət mərkəzindədir






Nüfuzlu “Reuters” agentliyinin, ABŞ-ın “US News”, “The Straitstimes”, “Econotimes” qəzetlərinin, “Global Banking and Finance” internet resursunun, habelə beynəlxalq analitik portal olan “Al-Monotor”un dərc etdiyi “Azərbaycan Qəzzaya sülhməramlı kontingent göndərməyəcək” sərlövhəli xəbərlərdə qeyd olunur ki, Prezident İlham Əliyev Azərbaycan hərbçilərinin ölkənin hüdudlarından kənarda heç bir hərbi əməliyyatlarda iştirak etmədiyini və bundan gələcəkdə də nəzərdə tutulmadığını bildirib. Materialda bununla bağlı yanlış məlumatları təkzib edən dövlətimizin başçısının sözləri sitat gətirilir: “Biz 20 sualdan ibarət müraciət tərtib edib və onu Amerika tərəfinə çatdırdıq. Bu məsələlərə aydınlıq gətirilməyincə, Azərbaycan hər hansı missiyada heç bir iştirakı nəzərdə tutulmur”.

Türkiyənin aparıcı media orqanları da Azərbaycan Prezidentinin yerli televiziya kanallarına verdiyi müsahibəni geniş şəkildə




işıqlandırıb. Qardaş ölkənin televiziya kanalları, xəbər agentlikləri və qəzetləri Azərbaycan liderinin Türk Dövlətləri Təşkilatı çərçivəsində müdafiə əməkdaşlığının vacibliyi ilə bağlı fikirlərinə, eləcə də Prezident İlham Əliyevin Türkiyə ilə müttəfiqlik əlaqələrinin dərinləşdirilməsi ilə bağlı açıqlamalarına diqqət yetiriblər.

Azərbaycan Prezidentinin türk dövlətləri ilə münasibətlərin inkişafı ilə bağlı mövqeyi də diqqət mərkəzində olub.

Xəbərlərdə və reportajlarda dövlətimizin başçısının qlobal proseslər, Zəngəzur dəhlizinin işə salınması və Ermənistanla münasibətlərin normallaşdırılması da daxil olmaqla müxtəlif cari məsələlərə dair fikirləri də yer alıb.

Gürcüstan mediası da Azərbaycan Prezidenti İlham Əliyevin yerli televiziya kanallarına verdiyi müsahibəni geniş şəkildə işıqlandırıb.

Nüfuzlu “resonancdaily.com”, “bpn.ge”, “interpress.ge”, “qafqazturk.com”, “aktual.ge”, “24news.ge”, “realnews.ge” informasiya portalları, eləcə də “1tv.ge” televiziyası və onun rəsmi internet saytı mövzu ilə bağlı silsilə xəbərlər yayımlayıb.

Yayılan xəbərlərdə və reportajlarda dövlətimizin başçısının Qəzzaya sülhməramlı qüvvələrin göndərilməyəcəyi, Zəngəzur dəhlizinin işə salınması, Çindən və Orta Asiyadan yüklərin bu dəhliz vasitəsilə daşınması, eləcə də qlobal proseslər və Ermənistanla münasibətlərin normallaşdırılması da daxil olmaqla müxtəlif cari məsələlərə dair fikirləri yer alıb.

Yaxın Şərqin ortaq portalı olan “Salem”, həmçinin “Europa Press” qəzetinin materiallarında qeyd olunur ki, Prezident İlham Əliyev Bakıda Azərbaycan hökumətinin maliyyə dəstəyi ilə Fələstinin səfirliyinin də fəaliyyət göstərdiyini qeyd etməklə yanaşı, ərəb ölkələrinin məsələlərini ərəb dövlətlərinin özlərinin həll etməli olduğunu bildirib. Prezident əlavə edib: “Yaxın Şərqdə hansısa fəaliyyətlərdə mümkün iştiraka gəldikdə, ABŞ-ın BMT-dəki səfirliyinin Azərbaycanın razılığı verməsi ilə bağlı bəyanatı bizi təəccübləndirdi. Biz razılıq verməmişik və diplomatik kanallarla Amerika administrasiyasına çatdırdıq ki, bu cür yalan bəyanatlar qəbuledilməzdir, onlar yanlış mənzərə yaradır. Ola bilər ki, belə bir cəhd olub, kimi isə bu prosesə cəlb etmək üçün Azərbaycanın razılıq verdiyini deyiblər. İstisna etmirəm ki, əgər belə olsuba, bu, ümumiyyətlə heç bir vəchlə qəbul edilə bilməz”.




Nüfuzlu “əş-Şarq əl-Avsət”, “əl-Quds əl-Arabi”, “əl-Dustur”, “əl-Şuruq”, “samanyus”, eləcə də Fələstinin informasiya portalları, bir sıra televiziya kanalları mövzu ilə bağlı silsilə xəbərlər yayımlayıb.

Ərəb mediasında yayılan xəbərlərdə və reportajlarda dövlətimizin başçısının Azərbaycanın Qəzzada sülhməramlı qüvvələrin tərkibində iştirakla bağlı mövqeyi, eləcə də qlobal proseslər və ABŞ-la münasibətlər əsas diqqət mərkəzində olub.

İspandilli “Demcrata”, “Notimersa”, “Portaltela”, “Teleprensa”, “İtongadol”, “İnfobae” agentlik və portallarında dərc olunan xəbərlərdə də Azərbaycanın dövlət başçısının Qəzzada hər hansı əməliyyatlarda iştirak etməyin qeyri-mümkün olması ilə bağlı fikirləri yer alıb. Qeyd olunub ki, Prezident İlham Əliyev Azərbaycan sülhməramlılarının əvvəllər Kosovo və Əfqanıstanda sülhməramlı missiyalar zamanı da heç bir hərbi əməliyyatda iştirak etmədiyini diqqətə çatdırıb.

Beynəlxalq iqtisadiyyat portalı “İnvesting.com”, İsrailin “The Jerusalem Post”, “Israelhayom”, “Time of Israel” qəzetləri, rus dilində nəşr olunan “Vesti İzrail” portalı, Bolqarıstanın “Dnevnik” nəşri, Yunanıstanın “Skai” internet resursu da Azərbaycan Prezidentinin Yaxın Şərqdə münaqişələrə dair fikirlərini dərc edib. Materiallarda qeyd olunub ki, Prezident İlham Əliyev Qəzza zolağına sülhməramlıların göndərilməsi ilə bağlı yayılan yanlış məlumatları təkzib edib və bu xəbərləri ilk mənbəyi olan ABŞ tərəfinə diplomatik kanallarla 20 sualdan ibarət müraciət çatdırdığını, həmçinin bununla bağlı təəssüfləndiyini bildirib.

Prezident İlham Əliyevin müsahibəsindəki əsas məqamlara Pakistanın “Ummat”, “Dawn”, Hindistanın “Shafaqna India”, İranın “Mehr” agentliyi, “Tahlil İran” və “Vista” portallarının dərc etdikləri materiallarda da geniş yer verilib. Qeyd olunub ki, Azərbaycanın dövlət başçısı öz ölkəsinin Fələstinlə bağlı İslam Əməkdaşlıq Təşkilatının qərarlarına qoşulduğunu bildirib, amma Qəzzada, ümumiyyətlə, hər hansı xarici məkanda heç bir əməliyyatlarda iştirakın nəzərdə tutulmadığını bəyan edib.

***XQ***

# Multikultural dəyərlərimiz dünyada geniş tanıdılır

**Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi 2025-ci ildə həm yerli, həm də beynəlxalq müstəvidə intensiv və çoxşaxəli fəaliyyət göstərib. Mərkəz il ərzində multikulturalizmin təbliği, islamofobiya və antisemitizmlə mübarizə, dağıdılmış mədəni irsin qorunması və bərpası, Qərbi azərbaycanlıların qayıdış hüququnun gündəmdə saxlanılması, eləcə də neokolonializmə qarşı mübarizə istiqamətlərində ardıcıl layihələr reallaşdırıb və nüfuzlu beynəlxalq platformalarda Azərbaycanın multikulturalizm modelini təqdim edib.**

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin media üçün açıqlamasının davamında bildirilir ki, hesabat ilində BBMM-in təşkilatçılığı və iştirakı ilə 18 yerli və beynəlxalq konfrans keçirilib, Mərkəzin beynəlxalq fəaliyyəti isə 15 ölkəni əhatə edib. Bakıda 15 Mart İslamofobiya ilə Beynəlxalq Mübarizə Gününün 3-cü ildönümünə həsr olunan “İslamofobiya: Qərəzin ifşa olunması və stiqmaların dağıdılması” beynəlxalq elmi konfransı, Vatikanda Müqəddəs Taxt-Tacın



Qriqorian Pontifik Universitetində keçirilmiş “Azərbaycanda xristianlıq: tarix və müasirlik” mövzusunda Qafqaz Albaniyası irsinə həsr edilən XII beynəlxalq elmi konfrans, həmçinin Belçikanın Brüssel şəhərində “Belçika və Avropada 2025 İslam Dünyası İli” çərçivəsində keçirilən “Multikulturalizm modelləri – Münasibətlərin qurulması və sülh şəraitində birgəyaşayış modelləri haqqında düşüncələr” mövzusunda məclislər xüsusi önəmi ilə yadda qalıb.

BBMM, eyni zamanda, “Heydər Əliyev: Multikulturalizm və tolerantlıq ideologiyası” mövzusunda VIII beynəlxalq elmi konfransın da həmtəşkilatçısı olub. Mərkəzin təmsil olunduğu digər beynəlxalq toplantılara Hindistanın Şri-Şri Universitetində “Azərbaycan multikulturalizm modeli” mövzusunda mühazirə, “Dini azadlıqdan dini məsuliyyətə” adlı ikinci beynəlxalq konfrans, Avropa Komissiyası və Avropa Şurasının Brüsseldə təşkil etdiyi müsəlmanlara qarşı nifrət və irqçilik üzrə əlaqələndirmə konfransı, “Azərbaycanşünaslığın aktual məsələləri: Yeni dövrün Azərbaycanı” XVI beynəlxalq elmi konfransı, “Davamlı sülhün əldə edilməsində dini liderlərin rolu” mövzusunda beynəlxalq konfrans və “İslamofobiya: Mövcud qlobal kontekstdə konsepsiya və təcrübə” adlı beynəlxalq toplantı daxildir.

2025-ci ildə Mərkəz tədris layihəsini də prioritet istiqamət kimi davam etdirib. “Azərbaycan multikulturalizmi” fənninin yerli və xarici ali təhsil müəssisələrində tədrisi layihəsi çərçivəsində hesabat ilində dünyanın 10 universitetində “Azərbaycan multikulturalizmi” fənninin tədrisi təşkil olunub. Ümumilikdə, “Azərbaycan multikulturalizmi” fənni ilin sonuna qədər dünyanın 27, Azərbaycanın isə 38 nüfuzlu universitetində tədris edilib. Gənclərin və tələbələrin proseslərə cəlb olunması istiqamətində BBMM-in ən mühüm platformalarından biri sayılan beynəlxalq multikulturalizm məktəbləri və gənclər forumları da 2025-ci ildə uğurla davam edib.

Mərkəzin 2025-ci ildə beynəlxalq əməkdaşlıq sahəsində fəaliyyəti çərçivəsində il ərzində BBMM-də 22 xarici nümayəndə heyəti ilə görüşlər keçirilib. Görüşlər zamanı Azərbaycan multikulturalizm modeli, ölkədəki tolerant mühit, müxtəlif etnik və dini icmaların sülh şəraitində birgəyaşayışı haqqında ətraflı məlumat verilib, əməkdaşlıq imkanları müzakirə olunub. BBMM-in beynəlxalq tərəfdaşlıq şəbəkəsi genişlənib.

Beləliklə, 2025-ci il Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi üçün multikultural dəyərlərin beynəlxalq müstəvidə təşviqi, Azərbaycanın tolerantlıq modelinin dünyaya sistemli şəkildə təqdim olunması, eləcə də yeni tərəfdaşlıqlar və elmi-nəzəri əsasların möhkəmləndirilməsi baxımından uğurlu və dinamik il kimi yadda qalıb. Mərkəzin fəaliyyəti Azərbaycanın qlobal miqyasda multikulturalizm, tolerantlıq, dinlərarası və mədəniyyətlərarası dialoq sahəsində aparıcı və etibarlı tərəfdaş kimi mövqeyinin daha da gücləndirilməsinə töhfə verib.

***T.RÜSTƏMLİ***
***XQ***

# Postmüharibə mərhələsində Azərbaycanın təhlükəsizliyi

### I məqalə

### Liderin mövqeyi

Azərbaycan dövlət başçısının Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində ifadəsini tapmış tezislər müstəqil dövlət quruculuğu, informasiya siyasəti və idarəetmə baxımından klassik nümunədir. Qəbul edirik ki, kimlərsə, həcmcə qısa bir mətndə çox geniş və dərin dövləti məsələlərin dəqiq və hədəfə istiqamətlənmiş təqdimatının mümkünlüyünə tam əmin olmaya bilərlər. Lakin Azərbaycan Liderinin siyasi ritorikasının semantik və funksional özəlliklərinə az-çox bələd olanlar üçün belə bir sual yoxdur.

Növbəti dəfə Prezident İlham Əliyev XXI əsrin çox uğurlu lideri olduğunu və Cənubi Qafqaz kimi mürəkkəb geosiyasi anatomiyaya və ziddiyyətli tarixə malik məkanda yerləşən Azərbaycan Respublikasında güclü dövlət quruculuğunun konseptual aspekti ilə feili-tətbiqi tərəfinin səmərəli ahəngdarlığını yarada bilmək qüdrətinə sahib olduğunu sübut etdi. Mövqeyimizin əsaslı, elmi və obyektiv olduğunu detallı şəkildə təhlil əsasında sübut edə bilərik. Öncə, Prezident İlham Əliyevin müraciətinin geosiyasi miqyasının təməlində dayanan siyasi məntiqinə nəzər salaq.

### 3 miqyasın vəhdəti

Müraciət özündə 3 miqyasın semantikasını ehtiva edir. Birinci miqyas müstəqil dövlət quruculuğunun milli hüdudlarına aiddir. İkinci miqyas həmin əsasda dövlətin regional səviyyədə liderlik statusunun təmini və qəbul edilməsi ilə əlaqəlidir. Üçüncü miqyas öncəki iki səviyyənin qarşılıqlı əlaqəsi fonunda Azərbaycanın qlobal səviyyədə qəbul edilə biləcək güclü dövlət obrazı ilə bağlıdır. Birinci miqyas üçün milli ləyaqət əsasında dinamik inkişaf və davamlı təhlükəsizlik önəm daşıyır.

İkinci miqyasda ön sıraya Azərbaycanın son 300 ilin tarixinin yaratdığı ziddiyyətli obrazının regional səviyyədə dəyişməsi çıxarılır. Bu miqyasda başlıca hədəf regionda Azərbaycanın dövlət liderliyinin tarixi ədalətə, milli dövlət quruculuğu potensialına və büeynəlxalq hüququn şərtlərinə tam uyğun olduğunu sübut etməkdən ibarətdir. Azərbaycan lideri bunu da bacardı!

Üçüncü miqyas daha mürəkkəb bir dinamika və mənzərə ilə xarakterizə olunur. Çünki artıq meydanda dünyanın çox güclü dövlətlərinin kəskin rəqabəti üstünlük təşkil edir. Azərbaycan müstəqil güclü dövlət olduğunu həmin kəskin rəqabətin fonunda tarixi¸ hüquqi və milli maraqlar kimi faktorların bir-birini tamamlaması şəraitində qəbul etdirməlidir. Bu da özlüyündə güclü geosiyasi dairələrin əməkdaşlıq və təhlükəsizlik doktrinaları ilə Azərbaycanın yanaşmasını uyğunlaşdırmaq zərurətinin mövcudluğu deməkdir.

Azərbaycan Prezidentinin müraciəti yığcam formada vurğulanan üç miqyasın təqdimatıdır. Bu tezisin bir sıra əsas detalları üzərində dayanmağa ehtiyac vardır.

### Tarixi Zəfərin dövlətçiliyə töhfələri

Prezident İlham Əliyev müraciətinin məntiqinin təməlində Vətən müharibəsindəki möhtəşəm Qələbənin siyasi, geosiyasi, ideoloji və sosial-mədəni aspektlərin vəhdətini yerləşdirmişdir. Onun yığcam ifadəsi aşağıdakı tezisində əksini tapmışdır. Dövlət başçısı demişdir: "Beş il bundan əvvəl Vətən müharibəsi zamanı əldə etdiyimiz tarixi Zəfərimiz bizimlə əbədi olacaq. Azərbaycan xalqı bu Qələbə ilə əbədi olaraq fəxr edəcəkdir. Biz otuzillik erməni işğalına son qoyduq, ərazi bütövlüyümüzü, suverenliyimizi, milli ləyaqətimizi bərpa etdik".

Bu tezisin "semantik şifrələri"ni açsaq, alınar: Vətən müharibəsindəki qələbə hər şeydən öncə müstəqil dövlətçiliyə xidmətdir ki, bu, Azərbaycanı əbədi müstəqil edəcəkdir və ona görə də "tarixi Zəfərimiz bizimlə əbədi olacaq. Azərbaycan xalqı bu Qələbə ilə əbədi olaraq fəxr edəcəkdir". Çünki bu fəxarət yalnız dövlətin əbədi müstəqil ola bilməsi şərti ilə mümkündür. Prezident bu möhkəm inamını və əminliyini xalqı ilə açıq bölüşür. Liderin inamı və əminliyi bütün zəfərlərin təməlidir! Xalq İlham Əliyevin həmin mesajını almışdır və onu yüksək ruh yüksəkliyi ilə qiymətləndirmişdir! Yeni il gecəsi Azərbaycan şəhərlərinin yaşadıqları kütləvi bayramlaşma ab-havası onun əyani nümayişidir! Azərbaycan xalqı Prezidentinə və Liderinə tam inanır, onun arxasındadır!

Bütün bunları çox gözəl və dərindən bilən Prezident İlham Əliyev ciddi bir geosiyasi ümumiləşdirmə aparır və faktiki olaraq güclü strateji mövqe nümayiş etdirir. Onun qısa təqdimatına baxaq.

### "Əbədi müharibə aparmaq fikrində deyilik"

Həmin tezisə keçidin "aralıq məntiqi və semantik zonası"na diqqət edək. Dövlət başçısı müraciətində ifadə etmişdir: "Qarabağ münaqişəsi artıq beynəlxalq gündəlikdən tamamilə silinmişdir. Zəfər çalmış ölkə kimi biz məğlub edilmiş Ermənistana sülh əlimizi uzatdıq. Bu da bizim uzaqgörən siyasətimizin təzahürüdür. Biz əbədi müharibə aparmaq fikrində deyilik. Bizim başqa ölkələrin torpaqlarında gözümüz yoxdur. Biz öz ərazi bütövlüyümüzü bərpa etmək üçün silahdan istifadə edərək, BMT Nizamnaməsi çərçivəsində, BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında öz suveren hüquqlarımızı təmin etmişik. Vətən müharibəsindən cəmi 5 il keçəndən sonra Ermənistanla paraflanmış sülh müqaviləsi bir daha xalqımızın böyüklüyünü və bizim siyasətimizin müdrikliyini göstərir. Biz cəmi beş ilə yaxındır ki, de-fakto sülh şəraitində yaşayırıq".

*Birincisi,* yeni mərhələyə keçidin təməlində dayanan əsas faktor "Qarabağ münaqişəsinin beynəlxalq gündəlikdən tamamilə silinməsidir".

*İkincisi,* qalib dövlətin məğlub etdiyi ölkəyə münasibətdə tarixi geosiyasi seçimi həlledici rol oynamaqdadır. Həmin məqamı Prezident İlham Əliyev aşağıdakı kimi ifadə etmişdir: "Zəfər çalmış ölkə kimi biz məğlub edilmiş Ermənistana sülh əlimizi uzatdıq. Bu da bizim uzaqgörən siyasətimizin təzahürüdür". Bütün regionda münasibətlərin taleyi baxımından ciddi prinsipial pozitiv seçimdir!

*Üçüncüsü,* bunlardan Azərbaycan dövlət başçısı regional və qlobal miqyasda böyük əhəmiyyəti olan və dövlətçiliyin inkişafı, təhlükəsizlik arxitekturasının yaradılması anatomiyası bağlılığında əsas sayılan ümumi qənaət əldə etmişdir. O, aşağıdakı semantik yükə malikdir: "Biz əbədi müharibə aparmaq fikrində deyilik".

Strateji mahiyyətli mesajdır. Dünya miqyasında əsl sülhsevər dövlət olmanın ümumi fəlsəfəsidir. Azərbaycan əbədi olaraq müharibə etmək niyyətində deyildir. Xüsusilə, indiki tarixi mərhələdə dünyanın ən güclü dövlətlərinin də geosiyasi seçimi üçün nümunə ola biləcək qərardır! Onun qlobal geosiyasi qiyməti ABŞ-ın yeni təhlükəsizlik doktrinasının başlıca prinsipləri və məqsədləri prizmasında olduqca aydın görünür. Bunun üzərində xüsusi dayanacağıq. Çünki həmin müddəada Azərbaycan Prezidentinin milli, regional və qlobal miqyasları müstəqil dövlətçilik maraqları ilə mükəmməl uyğunlaşdırmaq qüdrətinin təzahüründən söhbət gedir! İndi isə məqalənin bu mərhələsi üçün əsas hesab etdiyimiz başlıca tezisin izahına keçək.

### Yeni mərhələ: "müharibələr arxada qaldı"

Azərbaycan Prezidenti yuxarıda vurğuladığımız əsas məqamlardan sonra yüksək siyasi-diplomatik məharətlə müraciətinin ana geosiyasi tezisini irəli sürür. Bu, "aralıq məntiqi və semantik zona"dan əsas "siyasi və geosiyasi məna sahəsinə uğurlu proyeksiya" nümunəsidir. Azərbaycan lideri həmin mənanı aşağıdakı kimi təqdim etmişdir.

Müraciətində İlham Əliyev vurğulamışdır: "Biz yeni müharibəyə hazırlaşmırıq. Bizim üçün müharibələr arxada qaldı. Ancaq bugünkü dünyada hər bir ölkə ilk növbədə öz təhlükəsizliyi haqqında ciddi düşünməlidir. Bugünkü dünyada beynəlxalq hüquq normaları işləmir, "Kim güclüdür, o da haqlıdır" prinsipi əsas prinsip kimi bir çox ölkələr tərəfindən qəbul edilib. Bütün dünyada genişmiqyaslı silahlanma prosesi gedir. Belə olan halda, biz hər an öz ərazi bütövlüyümüzü, suverenliyimizi, öz seçimimizi layiqincə müdafiə etmək üçün hazır olmalıyıq. Vətən müharibəsi dövründə hərbçilərimizin peşəkarlığı, qəhrəmanlığı, fədakarlığı, xalqımızın yumruq kimi birləşməsi bizim Qələbəmizi şərtləndirdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaqdır".



Bu fikirlərin ana xəttini Azərbaycan Respublikası üçün, ümumiyyətlə, tarixin postmüharibə mərhələsinin başladığına böyük inamın mövcudluğu təşkil edir. Yəni Azərbaycan müstəqil dövlət kimi yalnız sivil üsullarla münasibət qurmaqda maraqlıdır, dövlətin başlıca mahiyyəti isə sülhsevər olması ilə bağlıdır. Azərbaycan müharibəsiz inkişafa, sülhsevərliyə dayanan güclü dövlət olmaqda davam edəcəkdir. Bu seçimin ilkin mərhələsi Ermənistanla münasibətlərin əməkdaşlıq və təhlükəsizliyin təmini şəraitində yenidən qurulması ilə bağlıdır.

Əslində, "Böyük Qayıdış" kimi möhtəşəm proqramın başlıca məğzi də həmin məqsədlə müəyyən olunur. Belə ki, azərbaycanlılar hansı coğrafiyada ekzistensial aparıcılıq təşkil edəcəklərsə, orada dinc quruculuq, sülh, əməkdaşlıq, barış və qarşılıqlı fayda görmək hökm sürəcəkdir.

Əksər dövlətlərdən fərqli olaraq Azərbaycan Respublikasının güclü dövlət doktrinası əməkdaşlıq, təhlükəsizlik və sülhün təminində güclü olmağı özündə ehtiva edir. Məsələnin bu cür dərki perspektiv baxımından çox əhəmiyyətli və diqqətçəkicidir. Çünki Cənubi Qafqazın müasir tarixində ilk dəfədir ki, lider dövlət sülhü, əməkdaşlığı və təhlükəsizliyi təmin etməkdə güclü olmağı ön sıraya çıxarır! Hərbi gücü və ya sosial-iqtisadi imkanları deyil, məhz sülhü, əmin-amanlığı və qarşılıqlı faydalı əməkdaşlıq platformasını aparıcı edir.

İlk baxışdan bu strategiya bir qədər mücərrəd və feili olaraq güclü görünməyə bilər. Lakin müasir dünyanın çağırışları və riskləri fonunda kifayət qədər dərin faydaları olacaq mövqedir. Azərbaycan Prezidentinin müraciətində etdiyi təqdimatda bu mövqe bir-biri ilə sıx bağlılıqda olan rasional-məntiqi müddəalar vasitəsilə predmetləşmişdir. Onu 3 başlıca aspektdə təhlil edə bilərik. Mövzunun bundan sonrakı təhlilində vurğulanan özəllik başlıca yer tutacaqdır. Yəni Azərbaycan dövlət başçısının qeyd olunan fikirlərində sülh, əməkdaşlıq və təhlükəsizlik istiqamətlərinin məntiqi əlaqəsi ön sıraya çıxarılacaqdır.

Bu cür yanaşmanı əsaslı edən aşağıdakı xüsusiyyətlərdir.

*Birincisi,* dövlət başçısı Azərbaycanın heç bir yeni müharibəyə hazırlaşmadığının düşünülmüş strateji məqsəd olduğunu ilk növbədə qeyd edir. "Müharibələrə hazırlaşmırıq" və "müharibələr arxada qaldı" tezisləri bunun əyani təsdiqidir.

*İkincisi,* müasir dövrün çağırışlarını Azərbaycan Respublikası ciddi surətdə nəzərə alır. Ona görə də müstəqil dövlət kimi ilk növbədə öz təhlükəsizliyi haqqında düşünür.

*Üçüncüsü,* ikinci tezisdəki fikrin izahı böyük dövlətlərin bir qisminin "kim güclüdür, o da haqlıdır" prinsipi üzrə hərəkət etməsi fonunda adekvat ola bilər.

*Dördüncüsü,* bunlara görə "bütün dünyada genişmiqyaslı silahlanma prosesi"nin getməsi ciddi faktordur.

*Beşincisi,* vurğulanan şərtlər prizmasında Azərbaycan özünü müdafiə etmək üçün ayıq və hazır olmalıdır.

Vurğuladığımız bu özəlliklər "müharibələr arxada qaldı" qısa tezisini əməkdaşlıq, sülh və təhlükəsizlik doktrinasının əsas mənası kimi təsəvvür etməyə istiqamətləndirir. Bu müddəanın regional və qlobal konteksti son dərəcə önəmlidir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki, fəlsəfə elmləri doktoru***

# Güc amili – regionu yerindən oynadan **Azərbaycan**

**(əvvəli 1-ci səhifədə)**

Dünyanın getdiyi istiqamət gücü ehkamlaşdırırsa, Azərbaycan, sadəcə, adekvat davranmaq məcburiyyətindədir ki, bu davranışın kollektivçilik anlamlı TDT faktoru var. Söhbət bilavasitə ölkəmizin səyləri ilə formalaşmış faktordan gedir. Nəzərə alaq ki, Azərbaycan TDT-nin oturuşmuş təşkilata çevrilməsi üçün böyük addımlar atıb və hazırda Prezident İlham Əliyevin şəxsində rəsmi Bakı bu qənaətdədir ki, həmin addımlar tamlaşmalıdır. Başqa sözlə desək, TDT yalnız iqtisadi və mənəvi birlik olmamalı, eyni zamanda güc mərkəzi qismində də özünü təsdiqləməlidir. Təsdiqləməlidir ki, təşkilat haqq-ədaləti qoruya bilsin: "Hətta Yeni il bayramı ilə əlaqədar Azərbaycan xalqına təbrikimdə də demişdim, bugünkü dünya belədir: kim güclüdür, o da haqlıdır. Mənim sözlərim indi demək olar ki, həftəlik formatda bu və ya digər bölgələrdə təsdiqlənir. Qəbələdəki Zirvə Görüşündə mən bu tezisdən daha da irəli gedərək təklif etdim ki, bu il Azərbaycanda üzv ölkələrin birgə hərbi təlimləri keçirilsin. Hesab edirəm ki, buna da ehtiyac var".



Prezident İlham Əliyev Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının güc tandemi yaratdığını və bu tandemin TDT-yə üzv digər dövlətlər üçün də örnək mahiyyət daşıdığını vurğulayıb. Amma dövlətimizin başçısının baxışları yalnız rəmzi anlam daşımır. Çünki onun barəsində söz açdığı məsələ praktikidir, gəldiyi qənaət isə iti müşahidəyə söykənir: "Həm də ki, öz təhlilimi apararaq görürəm ki, bugünkü dünyada beynəlxalq hüquq deyilən məsələ yoxdur. Bunu hər kəs gərək unutsun. Güc var, əməkdaşlıq var, müttəfiqlik var, qarşılıqlı dəstək var".

Əlbəttə, başlıca məsələ haqlı olmaq və haqq üçün mücadilə aparmaqdır. Nəzərə alaq ki, Azərbaycan gücünü müqəddəs amal naminə istifadə edən dövlət ampluasındadır və 2020-ci ilin 44 günlük müharibəsi dediklərimizin sübutudur. O müharibə ki, son çıxış yolumuz idi. O müharibə ki, onu mahiyyət etibarilə biz başlatmadıq və bitirməyə də bilərdik. Axı bizim olan təkcə işğal olunmuş rayonlarımız deyil, daha böyük haqlarımız var ki, Prezident İlham Əliyev müsahibəsində bu barədə də söz açdı: "Bizim böyüklüyümüz və müdrikliyimiz, eyni zamanda, məsuliyyətimiz göz önündədir. Biz həm 2020-ci ildə, həm 2023-cü ildə, həm də bu illər arasındakı olan hadisələr zamanı güc tətbiq edərək Ermənistana, yəni onlara layiq olan cavabı verə bilərdik. Necə ki, bizim xalqımız əzab-əziyyət içində yaşayıb, necə ki, bizim ərazilərimiz viran olunub, necə ki, bizə qarşı hərbi cinayətlər törədilib, biz də onların şəhərlərini Ağdamın vəziyyətinə qoya bilərdik. Tam rahatlıqla və əminliklə deyə bilərəm ki, heç kim bizi dayandıra bilməzdi. Biz bunu etmədik. Çünki birincisi, bu, nahaq iş olardı. İkincisi, mən tam əmin idim və bilirdim ki, gec-tez müharibə, hərbi qarşıdurma dayanmalıdır və bunu biz dayandırmasaq, bu dayanmayacaq".

Azərbaycan öz gücündən Cənubi Qafqaz regionuna, bu regionda yaşayan xalqlara sülh, rifah və əmin-amanlıq gətirmək naminə bəhrələnən dövlətdir. Xatırladaq ki, Prezident İlham Əliyev 44 günlük müharibənin sonunda – 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın imzalandığı gün xalqa müraciəti zamanı Ermənistanı daha alçaldıcı şəkildə sülhə vadar etmək imkanında olduğumuzu vurğulamışdı. Amma: "Bunu (müharibəni – red.) güclü tərəf dayandırmalıydı və hətta bu artıq mətbuata da getmişdir, Prezident Trampın müşaviri cənab Vitkof müsahibəsinin birində demişdi ki, Ağ Evdə Prezident Tramp da məndən də soruşdu "Niyə siz dayandınız? Siz güclüydünüz". Mənim cavabımı da yəqin ki, eşitmisiniz. Ona görə, buna baxmayaraq, hərbi gücün olmalıdır ki, heç kim sənə xor baxmasın, heç kim sənə ziyan vurmasın. Hətta heç kim düşünməsin ki, sənə ziyan vura bilər və bunun cavabını ödəməyəcək".

Deməli, Azərbaycanın gücünü, daha doğrusu, hərbi potensialını artırmağa nə üçün üstünlük verdiyi məlumdur. Bunun bir yolu Türkiyə ilə rəsmi müttəfiqlik formatında əməkdaşlıq, o cümlədən hərbi müttəfiqlikdir. "Ancaq yaxşı olardı ki, ailəmiz olan türk dövlətləri bu istiqamətdə də əməkdaşlığa başlasınlar. Bunu təklif etməklə mən heç də hansısa hərbi təşkilatın yaradılmasını təklif etmirəm. Bəziləri bunu belə yozurlar. Yox, bu, tamamilə əsassızdır. Biz indi sadəcə olaraq, energetika sahəsində, nəqliyyat sahəsində, ticarət, investisiya qoyuluşu, bir çox sahələrdə əməkdaşlıq edirik. Nə üçün bu sahədə də əməkdaşlıq etməyək? Nəzərə alsaq ki, bu gün bütün ölkələr üçün bu, bir nömrəli məsələdir, ona görə təklifim qüvvədədir", - deyən Prezident İlham Əliyev TDT müstəvisində hərbi təlimlərin keçirilməsinə dair vacib məqama toxunaraq, həmin təlimlərin reallaşmama riski ilə bağlı hansı sualın ünvanlanmalı olduğunu vurğulayıb. Əlbəttə, ümidini dilə gətirməklə: "Biz indi mesajlarımızı müxtəlif diplomatik kanallarla göndəririk. Əgər ümumi razılıq olarsa, onda biz bu il bu təlimləri görəcəyik. Əgər görsək ki, təlim keçirilmədi, deməli, gərək sual verəsiniz "Kim bunu dəstəkləmədi?". Amma mən ümid edirəm ki, bütün üzv ölkələr bunu dəstəkləyəcək".

*

Əvvəldə də anons etdiyimiz kimi, Prezident İlham Əliyevin gücün dünyada hərəkətverici amilə çevrilməsi xüsusundakı fikirlərinin ikinci aspekti sırf Azərbaycan və dünya ilə bağlıdır. Yada salaq ki, ölkəmiz ötən beş il ərzində ordu quruculuğuna müstəsna önəm verib və dövlətimizin başçısı müsahibəsində buna xüsusi diqqət yetirib və qazandığımız uğurlara rəğmən arxayınlaşmamalı olduğumuzu deyib. Çünki "mükəmməlliyin sərhədi yoxdur". Gücə güc qatmaq lazımdır ki, Prezident İlham Əliyev 2020-2023-cü illərdə Ermənistanı qondarma "Miatsum" xülyasından daşındırmaq üçün ölkəmizin atdığı addımları sadalayıb, habelə hərbi potensialımızı artırmaq əzmimiz baxımından mühüm məqamı qabardıb: "Axı, bu müddət ərzində regionumuzda Azərbaycanın iştirakı ilə bir çox həyəcanlı proseslər də baş verib, diplomatik olaraq qeyd edim ki, onlar Ermənistanla bağlı deyil və biz bütün bu ağır sınaqlardan layiqincə, öz vicdanımızla, ilk növbədə, ləyaqətimizlə kompromisə getmədən çıxdıq. Hamıya, kimə lazımdırsa sübut etdik ki, bizə hörmətlə yanaşmaq lazımdır və biz kobudluğa, həyasızlığa və diktə cəhdlərinə dözməyəcəyik. Bunun üçün döyüş qabiliyyəti olan orduya malik olmaq lazımdır. Mən Yeni il müraciətimdə bildirdim ki, biz müharibəyə hazırlaşmırıq və bu, həqiqətən də belədir. Hesab edirəm və ümidvaram ki, müharibələr arxada qalıb, amma heç kim zəmanət verə bilməz. Axı, biz dünyada hadisələrin necə dəyişdiyini görürük. Bir daha dediklərimə qayıdaraq qeyd edirəm ki, beynəlxalq hüquq, Birləşmiş Millətlər Təşkilatı - onların hamısı artıq rudimentə çevrilib. Hər şey o qədər köhnəlib ki, onlara istinad etmək, sadəcə, qeyri-ciddidir, bundan yapışıb qalanlar isə, sadəcə, köhnə reallıqda yaşayırlar. İndi yeni reallıq mövcuddur, əlbəttə ki, onu böyük ölkələr yaradır, amma əgər ölkə çox böyük deyilsə, o cümlədən siyasi, hərbi və iqtisadi potensiala malikdirsə, onda o da yeni reallığın yaradılmasına öz töhfəsini verə bilər".

Tam əminliklə söyləmək olar ki, Azərbaycan öz gücü hesabına böyük nəticələrə imza atıb. Prezident İlham Əliyevin təbirincə desək, ölkəmiz çox böyük layları yerindən oynadıb. Bu, dünyadakı heç bir ölkənin müyəssər olmadığı üstünlükdür. Ancaq Azərbaycan gücün ona qazandırdığı üstünlüyü bəşəri amallar naminə istifadənin örnəyidir və bu mənada dövlətimizin başçısının son dərəcə dəqiqliklə vurğuladığı bir məqam var: "Ümidvaram ki, bu gün hələ də döyüşən tərəflər anlayacaqlar ki, müharibə bir ölkə və yaxud insanın başına gələcək ən pis şeydir. Mən bunu tam məsuliyyətlə deyirəm. Bu, ən pis sayılmalıdır. Ən yaxşı isə, sülhdür. Amma sülh olması üçün güclü olmalısan, beləliklə, bu istiqamətdə fəaliyyətimizi davam etdirəcəyik".

Bəli, beynəlxalq hüquq prinsiplərinin işləmədiyi hazırkı dövrdə Azərbaycan 44 günlük müharibədə əldə etdiyi Zəfərlə regionda yeni reallıqlar yaradıb. Elə bir reallıqlar ki, onları bütün dünya, beynəlxalq ictimaiyyət, o cümlədən aparıcı ölkələr və nüfuzlu beynəlxalq təşkilatlar qəbul edib. Halbuki güclü olmadan bunlara nail olmaq qeyri-mümkün idi. Həm də ona görə ki, beynəlxalq hüquq prinsipləri, bir növ, oyuncağa çevrilib. Gücün oyuncağına. Prezident İlham Əliyev mövcud məqama son dərəcə dəqiq aydınlıq gətirib. Söhbət dövlətimizin başçısının dünyanın artıq tarixə qovuşmuş Qarabağ münaqişəsi ilə bağlı Azərbaycana münasibəti kontekstindəki izahından gedir: "Beynəlxalq hüquq faktiki olaraq işləməsə də, beynəlxalq arenadakı əsas oyunçular, - ən azı zahirən, - beynəlxalq hüquqa sadiq olduqlarını nümayiş etdirməyə çalışırdılar və qeyri-qanuni addımlar atarkən həmişə terminologiya ilə manipulyasiya etməyə can atırdılar, öz müqəddəratını təyinetmə anlayışından istifadə edilirdi, lakin bu prinsipin dövlətlərin ərazi bütövlüyünə xələl gətirməməli olduğu isə ya nəzərə alınmır, ya da bilərəkdən gözardı edilirdi. Amma hər hansı ərazi iddiası üçün "öz müqəddəratını təyinetmə" bəhanəsi Azərbaycan üçün çox yaxşı tanışdır. Biz haqlı olduğumuzu dünyaya izah etməyə çalışarkən, "öz müqəddəratını təyinetmə prinsipi dövlətin ərazi bütövlüyünə qarşı qoyula bilməz və təcavüzkar separatizm qınanmalıdır" deyərkən, yenə qəti səssizlik, laqeydlik və bəlkə də bir qədər də təkəbbürlə üzləşirdik, ta ki biz torpaqlarda vuruşub düşməni məğlub edənə qədər. Ondan sonra vəziyyət dəyişdi".

Sonda bir məqamı da vurğulayaq. "Beynəlxalq hüquq pozulanda güclü olan haqlıdır", - deyən Prezident İlham Əliyev güclü Azərbaycanın hər zaman həqiqətə, ədalətə sadiqliyini bildirib. Lakin dünya dəyişibsə, ölkəmiz də adekvat davranmalıdır. Çünki biz "kağız - BMT Nizamnaməsi üzərində olan dünyada yaşamırıq, torpaq üzərində yaşayırıq. Ona görə də, güclü olmalıyıq, biz də bunu etməyə çalışırıq. Mən hər bir ölkəyə bunu tövsiyə edirəm".

***Ə.CAHANGİROĞLU***
***XQ***

# ABŞ-la tərəfdaşlıqda gerçəkliyin diktəsi

## *Azərbaycan Prezidentinin dəqiq siyasi diaqnozu*

**Prezident İlham Əliyevin yerli televiziya kanallarına verdiyi müsahibə ABŞ–Azərbaycan münasibətlərinin struktur məntiqini və strateji mahiyyətini açan konseptual siyasi təhlildir. Dövlət başçısı 907-ci düzəlişi ayrı-ayrı epizodlar və ya şəxsi münasibətlər kontekstində deyil, beynəlxalq sistemin işləmə mexanizmləri, böyük güclərin maraq iyerarxiyası və zəif aktorların necə asanlıqla siyasi manipulyasiya obyektinə çevrildiyi prizmasından təqdim edir.**



Prezidentin müsahibəsi bir daha göstərir ki, beynəlxalq münasibətlərdə ədalət anlayışı çox vaxt hüquqi normalardan deyil, institusional yaddaşdan və siyasi faydalılıq meyarından qaynaqlanır. ABŞ Konqresi tərəfindən "Azadlığa Dəstək Aktı"na qəbul edilmiş 907-ci düzəliş konkret bir dövrün siyasi konfiqurasiyasının məhsulu olmaqla yanaşı, Vaşinqtonun Cənubi Qafqaz siyasətində uzun müddət davam edən selektiv yanaşmasının simvoluna çevrilib. Prezident İlham Əliyevin mövqeyi bu mənada haqsızlığın necə normallaşdırıldığını və illərlə beynəlxalq institutların gündəliyində "adi qərar" kimi saxlanıldığını ifşa edir. Dövlət başçısının yanaşmasında xüsusi diqqət çəkən məqam ondan ibarətdir ki, məsələ emosional müstəviyə keçirilmədən siyasi məsuliyyət və strateji nəticələr kontekstində təqdim olunur.

Burada əsas sual "kim haqlıdır?" deyil, "beynəlxalq sistem niyə belə işləyir?"dir. Prezidentin vurğuladığı kimi, Azərbaycanın uzun müddət ABŞ üçün yalnız funksional əhəmiyyət daşıması – nəqliyyat dəhlizi, enerji təhlükəsizliyi elementi və ya hərbi-logistik tərəfdaş kimi qəbul edilməsi – münasibətlərin dəyər əsaslı deyil, alətçi xarakter daşıdığını ortaya qoyur.

Azərbaycan real təhlükəsizlik çağırışları, humanitar fəlakət və işğal faktı ilə üz-üzə qaldığı bir dövrdə cəzalandırılan tərəfə çevrilmiş, işğalçı isə, faktiki olaraq beynəlxalq siyasi himayə altına alınmışdı. Müsahibədə səsləndirilən mövqe məhz bu paradoksun köklərini açmağa yönəlib. Beynəlxalq münasibətlər praktikası göstərir ki, bu cür qərarlar nadir hallarda sırf institusional mexanizmlərin neytral məhsulu olur. Əksinə, burada administrativ laqeydlik, informasiya boşluğu və güclü lobbi təsiri bir-birini tamamlayan amillər kimi çıxış edib.

Dövlət başçısının bu məqamla bağlı söylədiyi fikir həmin dövrün siyasi reallığını açıq şəkildə ifşa edir: "Məndə olan məlumata görə, o vaxt Azərbaycanda hakimiyyətdə olanlar heç bilmirdilər ki, gündəlikdə belə bir məsələ var". Dövlət başçısının sitatı postsovet Azərbaycanının erkən mərhələdə üzləşdiyi institusional yetkinlik çatışmazlığını və xarici siyasətdə strateji baxışın formalaşmamasını göstərir. Yeni müstəqillik qazanmış dövlət üçün beynəlxalq gündəliyi izləmək, xüsusilə də böyük güclərin qanunverici orqanlarında gedən proseslərə vaxtında müdaxilə etmək həyati əhəmiyyət daşıyırdı. Lakin həmin dövrdə Azərbaycan nə diplomatik resurslara, nə lobbi şəbəkəsinə, nə də koordinasiyalı xarici siyasət mexanizminə malik idi.

Burada əsas məsələni yalnız erməni lobbisinin fəallığı ilə izah etmək politoloji baxımdan sadələşdirilmiş yanaşma olardı. Əsl problem ondan ibarət idi ki, Azərbaycan öz milli maraqlarını beynəlxalq institutlarda sistemli şəkildə müdafiə edə bilən subyekt statusuna hələ yiyələnməmişdi. Nəticədə siyasi boşluq yaranmış, bu boşluq isə daha təşkilatlanmış və institusional təsir imkanlarına malik aktorlar tərəfindən doldurulurdu. Politoloji müstəvidə bu vəziyyət "zəif dövlətlərin beynəlxalq institutlarda görünməzliyi" anlayışı ilə izah olunur. Həmin fenomenə görə, dövlətin hüquqi suverenliyi onun real siyasi çəkisi ilə üst-üstə düşmədikdə, beynəlxalq qərar qəbuletmə mexanizmlərində həmin dövlət asanlıqla kənarda qala bilir. 907-ci düzəliş məhz belə bir vəziyyətin məhsulu idi: işğala məruz qalmış, humanitar böhran yaşayan tərəf beynəlxalq siyasi diskursda passiv subyektə çevrilir, işğalçı isə fəal narrativ formalaşdırmaq imkanına sahib olur.

Daha mühüm və prinsipial məqam 907-ci düzəlişin qəbul edildiyi tarixi-siyasi kontekstin obyektiv reallıqla kəskin ziddiyyət təşkil etməsidir. Prezident İlham Əliyev bu ziddiyyəti faktların dili ilə, emosiyasız, son dərəcə dəqiq şəkildə ifadə edir: "O vaxt bizim torpaqlarımız artıq işğal altında idi… Ermənistan dövləti tərəfindən Xocalı soyqırımı törədilmişdi".

Məhz bu sitat beynəlxalq hüququn fundamental prinsipləri – ərazi bütövlüyü, dövlətlərin suverenliyi və mülki əhalinin qorunması – baxımından vəziyyətin kimə qarşı və hansı miqyasda pozulduğunu açıq şəkildə göstərir. Bu şəraitdə işğala məruz qalmış və humanitar fəlakət yaşayan dövlətin cəzalandırılması hüquqi deyil, siyasi məqsədli selektiv yanaşma kimi qiymətləndirilməlidir.

Əgər 907-ci düzəlişin formal əsaslandırması "Ermənistanın blokadaya alınması" idisə, bu arqument nə geosiyasi, nə də faktiki baxımdan özünü doğruldurdu. Ermənistanın Gürcüstan və İranla açıq sərhədlərə malik olması, habelə həmin dövrdə Türkiyə–Ermənistan sərhədinin hələ bağlı olmaması "blokada" iddiasını normativ mifə çevirirdi. Bu halda ortaya çıxan əsas sual ondan ibarət olur: real blokada yox idisə, cəza mexanizmi hansı əsasla tətbiq edilmişdi? Məhz bu nöqtədə 907-ci düzəliş beynəlxalq hüquq sənədi olmaqdan çıxaraq lobbi siyasətinin normativ alətinə çevrilir. ABŞ Konqresi burada neytral arbitrajçı funksiyasını deyil, daxili siyasi balanslar və etnik maraq qruplarının təsiri altında formalaşan qərarverici aktor rolunu oynayır. Bunlar isə beynəlxalq münasibətlərdə tez-tez rast gəlinən, lakin nadir hallarda açıq şəkildə etiraf olunan bir reallığı üzə çıxarır: hüquqi norma çox vaxt siyasi faydalılığın kölgəsində qalır.

Prezident İlham Əliyevin Co Baydenin adını xüsusi olaraq vurğulaması şəxsi polemika və ya fərdi siyasi simpatiya–antipatiya kontekstində deyil, siyasi ardıcıllığın və institusional davranışın ifşası kimi dəyərləndirilməlidir. Dövlət başçısı bu yanaşma ilə ABŞ xarici siyasətində fərqli administrasiyalar arasında zahiri üslub fərqlərinə baxmayaraq, müəyyən regional məsələlərdə dəyişməz qalan ideoloji və institusional xətti üzə çıxarır. Obama–Bayden və daha sonra Bayden–Blinken administrasiyalarında Azərbaycana münasibətin eyni məntiq üzərində qurulması göstərir ki, burada söhbət situativ qərarlardan deyil, uzunmüddətli siyasi mövqedən gedir. Belə bir məqam ABŞ-ın insan haqları, demokratiya və beynəlxalq ədalət haqqında yaratdığı normativ diskurs ilə real siyasətdə tətbiq etdiyi mexanizmlər arasındakı struktur ziddiyyəti aydın şəkildə ortaya qoyur. Azərbaycan timsalında bu ziddiyyət ondan ibarət idi ki, işğala məruz qalmış, etnik təmizləməyə və humanitar fəlakətə düçar olmuş dövlət "cəzalandırılan tərəf" rolunda təqdim edilirdi.

11 sentyabr 2001-ci il hadisələrindən sonra 907-ci düzəlişin, faktiki olaraq, dayandırılması bu siyasətin ideoloji deyil, tamamilə marağa əsaslanan praqmatik xarakterini təsdiqlədi. Azərbaycan ABŞ üçün Əfqanıstan missiyası çərçivəsində strateji əhəmiyyət daşıdığı müddətdə ədalətsiz düzəliş gündəmdən çıxarıldı. Nəqliyyat dəhlizləri, logistika imkanları və regional sabitlik faktoru Vaşinqtonun münasibətini müəyyənləşdirən əsas dəyişənlərə çevrildi. Lakin missiya başa çatdıqdan sonra düzəlişin yenidən aktivləşdirilməsi ABŞ xarici siyasətində instrumental münasibət modelinin nə qədər açıq işlədiyini göstərdi.

Prezident İlham Əliyevin bu kontekstdə söylədiyi fikir isə artıq tarixi müşahidə deyil, strateji mövqedir: "Gün gələcək və biz sizə bir daha lazım olacağıq. Amma onda bizim qapımızı döyməyin". Məhz bu cümlə beynəlxalq münasibətlərdə rolunu dəyişmiş Azərbaycanın siyasi özünüdərkini və güc statusunun transformasiyasını əks etdirir. Burada söhbət zəif, asılı və yardım gözləyən dövlətdən deyil, regional güc mərkəzinə çevrilmiş, öz enerji resurslarına, nəqliyyat-logistika potensialına və təhlükəsizlik arxitekturasında tutduğu mövqeyə güvənən dövlətdən gedir. Əgər əvvəlki mərhələdə Azərbaycan ABŞ üçün funksional əhəmiyyət daşıyan obyekt idisə, bu gün regional proseslərdə qərarverici subyekt kimi çıxış edir. Prezidentin mesajı məhz bu dəyişimi təsdiqləyir: münasibətlər yalnız ehtiyac anlarında xatırlanan tərəfdaşlıq üzərində qurula bilməz. Tarix, siyasi yaddaş və qarşılıqlı hörmət beynəlxalq əməkdaşlığın əsas şərtinə çevrilməlidir.

Tramp administrasiyası dövründə ABŞ–Azərbaycan münasibətlərində müşahidə olunan dəyişiklik ideoloji yaxınlıq və ya şəxsi simpatiyalarla deyil, reallığa əsaslanan siyasi realizm yanaşması ilə izah olunmalıdır. Bu mərhələdə Vaşinqtonun Cənubi Qafqaza baxışı güc balansı, enerji təhlükəsizliyi və geostrateji kommunikasiya xətləri üzərində quruldu. Prezident İlham Əliyevin müsahibədə işarə etdiyi kimi, məhz bu yanaşma münasibətlərin daha praqmatik və qarşılıqlı maraqlara söykənən müstəviyə keçməsinə imkan yaratdı.

Dövlət başçısının vurğuladığı əsas məqam ondan ibarətdir ki, bu gün 907-ci düzəliş nə hüquqi, nə siyasi, nə də mənəvi baxımdan əsaslandırıla bilir. Münaqişə mərhələsində belə süni arqumentlər üzərində qurulan bu sənəd postmünaqişə reallığında tamamilə funksiyasız və absurd xarakter alıb. Azərbaycan artıq Cənubi Qafqazda kommunikasiya xətlərinin açılması, nəqliyyat marşrutlarının bərpası və enerji axınlarının təhlükəsizliyinin təmin edilməsində əsas halqəyə çevrilib. Ermənistanın faktiki tranzit imkanlarının belə Azərbaycan ərazisi üzərindən formalaşması bu reallığın aydın göstəricisidir.

Son olaraq qeyd edək ki, 907-ci düzəliş ABŞ–Azərbaycan münasibətlərində keçmişin institusional qalığına çevrilib. Onun mövcudluğu artıq nə Vaşinqtona əlavə üstünlük qazandırır, nə də regional proseslərə təsir imkanlarını artırır. Əksinə, bu düzəliş ABŞ-ın regionda ədalətli və balanslı aktor kimi çıxış etmək iddiasına zərbə vuran simvolik yük daşıyır.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Bakı–Vaşinqton dialoqunun qızıl dövrü

## *Qərbin Şərqə açılan mötəbər strateji qapısı*

**2025-ci il tarixi təqvimlərə Azərbaycan diplomatiyasının və dövlətçilik tarixinin ən parlaq, həlledici mərhələsi kimi həkk olundu. Rəsmi Vaşinqtonla Bakı arasındakı münasibətlərin daha ali və strateji müstəviyə keçidi bütövlükdə Avrasiya geosiyasətində yeni düzənin qurulmasıdır.**



İllər uzunu okeanın o tayından gələn soyuq küləklərin, süni maneələrin və lobbi maraqlarına xidmət edən siyasi baryerlərin aradan qalxması yerini praqmatizmə, qarşılıqlı hörmətə və milli maraqların dəqiq uzlaşmasına əsaslanan sağlam dialoqa verdi. Ötən ilin yekunlarına, cərəyan edən qlobal proseslərə nəzər saldıqda aydın olur ki, Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasındakı münasibətlərdə yaranan intibah dövrü təsadüfi xarakter daşımır. Əksinə, bu, zamanın diktəsi və tərəflərin siyasi iradəsinin məntiqi nəticəsidir. Mövcud reallığı şərtləndirən amilləri təhlil edərkən, ilk növbədə, regionda yaranmış yeni status-kvonu və Vaşinqtondakı siyasi rəhbərliyin dəyişməsini xüsusi qeyd etmək lazımdır. Çünki Donald Tramp administrasiyasının hakimiyyətə qayıdışı Ağ Evin xarici siyasət kursunda ideoloji ehkamlardan uzaq, realpolitik prinsiplərinə söykənən yanaşmanın üstünlük təşkil etməsinə gətirib çıxardı.

Yerli televiziya kanallarına müsahibəsində Prezident İlham Əliyevin mövcud geosiyasi mənzərənin dəqiq təhlilini apararaq səsləndirdiyi fikirlər yaranmış reallığın mahiyyətini tam dolğunluğu ilə ifadə edir. 2025-ci il Azərbaycan–ABŞ münasibətlərinin kontekstində tarixi il sayıla bilər. Həmin strateji tezis gələcək əməkdaşlıq perspektivlərinin açılması baxımından mühüm həqiqəti əks etdirir. Sirr deyil ki, illərdir münasibətlərin üzərində qara bulud kimi asılan süni məhdudiyyətlərin, saxta hüquqi baryerlərin faktiki olaraq gündəmdən düşməsi və ya təsir gücünü itirməsi məhz həmin praqmatik yanaşmanın təzahürüdür. Burada əsas hərəkətverici qüvvə Ermənistan–Azərbaycan müharibəsinin rəsmən, birdəfəlik sona çatması, sülh müqaviləsinin paraflanması və tərəflər arasında imzalanan Birgə Bəyannamənin ABŞ Prezidentinin şahidliyi ilə təsdiqlənməsi faktıdır. Diplomatik münasibətlərin tarixində nadir hallarda rast gəlinən intensivlik və məhsuldarlıq 2025-ci ilin xarakterik xüsusiyyəti olmuşdur.

Ötən ilin oktyabr ayından etibarən Azərbaycan tərəfindən nazirlər, özəl sektor təmsilçiləri və yüksək rütbəli dövlət rəsmilərindən ibarət 4 mötəbər nümayəndə heyətinin Amerika Birləşmiş Ştatlarına səfər etməsi dialoqun konkret nəticələrə hesablandığını sübut edir. Təmasların məzmununa diqqət yetirdikdə, müzakirə olunan məsələlərin iqtisadiyyat, ticarət, nəqliyyat, "yaşıl enerji" və ən əsası, hərbi-sənaye kompleksini əhatə etməsi tərəflərin əməkdaşlığı şaxələndirmək niyyətini ortaya qoyur. Xüsusilə strateji işçi qrupunun yaradılması və Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması istiqamətində atılan addımlar Bakı–Vaşinqton əlaqələrinin hüquqi-siyasi bazasının yenidən qurulduğunu göstərir. Hazırlanan xartiya gələcək onilliklər üçün yol xəritəsi rolunu oynayacaq mühüm sənəddir. Prosesin reallaşması ilə Azərbaycan ABŞ-ın regiondakı ən etibarlı, əvəzolunmaz tərəfdaşı statusunu rəsmiləşdirmiş olacaq. Analitik baxımdan ən mühüm məqamlardan biri, şübhəsiz ki, Zəngəzur dəhlizi məsələsindəki qətiyyətli irəliləyiş və Ağ Evin mövqeyindəki müsbət dinamikadır. Uzun illər Azərbaycan xalqının arzusunda olduğu Naxçıvan Muxtar Respublikası ilə ölkənin əsas hissəsi arasındakı quru əlaqəsinin bərpası artıq geosiyasi reallığa çevrilib. Rəsmi Vaşinqtonun məsələyə dəstək verməsi, layihənin reallaşmasını təsdiqləməsi Zəngəzur dəhlizinin qlobal əhəmiyyətli arteriya olduğunu ortaya qoyur.

Tramp administrasiyasının layihəyə dəstəyi Amerikanın Çin və Rusiya kimi rəqiblərin nəzarətində olmayan alternativ logistik marşrutlara olan ehtiyacından irəli gəlir. Orta Dəhlizin strateji seqmenti olan Zəngəzur yolu Qərbin Avrasiyanın dərinliklərinə çıxışını təmin edən yeganə etibarlı qapıdır. Rəsmi Vaşinqton isə həmin qapının açarının Bakıda olduğunu gözəl anlayır. Faktiki olaraq, 2025-ci ildə baş verən proseslər Ermənistanı revanşizm xülyalarından əl çəkərək reallığı qəbul etməyə məcbur etmiş, Azərbaycanın yaratdığı reallıqlar beynəlxalq hüququn və qlobal güclərin legitimlik möhürü ilə təsbit olunmuşdur. Ermənistanla normallaşma prosesi çərçivəsində Azərbaycanın irəli sürdüyü bütün şərtlərin qəbul edilməsi və məsələlərin istədiyimiz məcrada həllini tapması Prezident İlham Əliyevin dəmir iradəsinin və uğurlu diplomatik strategiyasının təntənəsidir.

Baş verən tarixi proseslərin və əldə olunan razılaşmaların gələcək perspektivlərini proqnozlaşdırdıqda hadisələrin inkişaf ssenarisini bir neçə strateji istiqamətdə görmək mümkündür ki, bunlardan birincisi Cənubi Qafqazın təhlükəsizlik arxitekturasının yenidən qurulmasıdır. Azərbaycan–ABŞ strateji tərəfdaşlığı regionda güc balansını köklü şəkildə dəyişəcək, ölkəmiz Qərbin regiondakı əsas təhlükəsizlik tərəfdaşına çevriləcək. Ehtimal etmək olar ki, yaxın gələcəkdə Əsas NATO tərəfdaşı statusunun və ya buna bərabər tutulan xüsusi təhlükəsizlik formatının Azərbaycana şamil edilməsi məsələsi gündəmə gələcək. İkinci mühüm istiqamət Zəngəzur dəhlizinin qlobal logistik haba çevrilməsidir ki, dəhlizin açılması ilə paralel olaraq, regionda nəhəng infrastruktur bumu yaşanacaq. Amerika şirkətlərinin iştirakı ilə dəmir yolları, avtomobil magistralları və logistik mərkəzlərin tikintisi sürətlənəcək. Proses sadəcə nəqliyyatla məhdudlaşmayacaq, enerji və rəqəmsal kommunikasiya xətlərinin, o cümlədən fiber-optik kabellər, "yaşıl enerji" dəhlizlərinin də həmin marşrutla keçməsi Azərbaycanı Avrasiyanın rəqəmsal, enerji qovşağına çevirəcək. Üçüncü istiqamət investisiya mühitinin liberalizasiyası və texnoloji transferdir ki, Strateji Xartiyanın imzalanmasından sonra hüquqi bazanın təkmilləşdirilməsi Amerika texnologiya nəhənglərinin Azərbaycan bazarına daxil olmasını stimullaşdıracaq və süni intellekt, kibertəhlükəsizlik, kosmik sənaye sahələrində birgə layihələrin icrası reallaşacaq. Dördüncü istiqamət Ermənistanın daxili transformasiyası və regional inteqrasiyadır, çünki sülh sazişinin qüvvəyə minməsi, kommunikasiyaların açılması nəticəsində Ermənistan tədricən regional layihələrə cəlb olunacaq, lakin proses Azərbaycanın diktə etdiyi şərtlər daxilində baş verəcək.

2025-ci il Azərbaycan–ABŞ münasibətlərində tarixi paradiqmanın dəyişməsi ili oldu. Prezident Donald Trampın praqmatik yanaşması və Prezident İlham Əliyevin strateji uzaqgörənliyi sayəsində qurulan müvafiq ittifaq bütövlükdə geniş Avrasiya məkanının siyasi mənzərəsini şəkilləndirən əsas amilə çevrildi. Artıq Azərbaycan dünya qlobal proseslərə təsir etmək gücündə olan bərabərhüquqlu subyektdir və Vaşinqtonla qurulan yeni müttəfiqlik modeli bu reallığın ən bariz sübutudur. Tarix sübut edir ki, güclü dövlətlər öz gələcəklərini xarici qüvvələrin ümidinə buraxmır, əksinə, şəxsi maraqlarını qlobal güclərin maraqları ilə uzlaşdıraraq milli hədəflərinə çatırlar.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Hər bir azərbaycanlının Prezidenti

(əvvəli 1-ci səhifədə)

Enerji sahəsi Prezidentin müsahibəsində xüsusi yer tutur. Azərbaycan artıq regional və qlobal səviyyədə etibarlı enerji tərəfdaşı kimi çıxış edir. Dövlət başçısının açıqlamalarına görə, ölkənin qaz ixracı 14-dən 16 ölkəyə çatdırılacaq ki, bu da dünya miqyasında nadir göstəricidir. "Azəri-Çıraq-Günəşli", "Şahdəniz", "Babək" və "Abşeron" yataqlarından hasilatın artırılması ölkənin ixrac potensialını yüksəldir. Eyni zamanda bərpaolunan enerji və texnoloji yeniliklər qlobal bazarlarda Azərbaycanın mövqeyini gücləndirir. Bu yanaşma yalnız iqtisadi fayda təmin etmir, həm də Azərbaycanın enerji təhlükəsizliyi və geosiyasi nüfuzunu möhkəmləndirir.

Nəqliyyat və şəhər infrastrukturuna dair açıqlamalar ölkənin müasir urbanistik və ekoloji inkişaf strategiyasını əks etdirir. Bakıda mikromobillik, piyadalar və velosipedçilər üçün geniş məkanların yaradılması, elektrobus və yeni metro stansiyalarının istifadəyə verilməsi şəhərin həm ekoloji, həm də sosialyönümlü inkişafını təmin edir. Dövlətimizin başçısı vurğulayır ki, bu tədbirlər tıxacların aradan qaldırılmasını, ətraf mühitin qorunmasını və şəhər sakinlərinin rahatlığını hədəfləyir. Dəmir yolları, körpü-tunel kompleksləri və yol ötürücüləri kimi strateji infrastruktur layihələri də şəhərin inkişafının davamlılığını təmin edir və beynəlxalq standartlara uyğunluğu nümayiş etdirir.

Elm və təhsil sahəsindəki yanaşma Azərbaycanın uzunmüddətli inkişaf strategiyasının təməlini təşkil edir. Elm və Təhsil Nazirliyinin yaradılması, elmi-tədqiqat institutlarının modernləşdirilməsi və gənc kadrların ön plana çıxarılması bu sahədə islahatların sistemli və məqsədyönlü olduğunu göstərir. "Yüksəliş" və digər dövlət proqramları gəncləri təşviq edir və savadlı, bilikli nəsil yetişdirməyi hədəfləyir. Prezident İlham Əliyev açıq şəkildə bildirir ki, neft və qaz resursları zənginlik gətirsə də, müasir texnologiyalar və davamlı inkişaf yalnız elm və təhsil sahəsinin güclü olmasına bağlıdır. Bu yanaşma ölkənin gələcək nəsillərinin rəqabət qabiliyyətini təmin edir və Azərbaycanın beynəlxalq səviyyədə mövqeyini gücləndirir.

Turizm sahəsi Prezidentin müsahibəsində həm strateji, həm də emosional baxımdan önəmli yer tutur. Azad edilmiş ərazilərdə, o cümlədən Şuşa, Laçın, Zəngilan və Kəlbəcərdə mehmanxanaların açılması, Şahdağda xizəksürmə üzrə dünya çempionatının keçirilməsi və sağlamlıq turizmi mərkəzlərinin təşviqi ölkənin turistlər üçün cəlbediciliyini artırır. Azərbaycan həm təhlükəsizlik, həm yerləşmə, həm də zəngin mədəniyyət və tarixi abidələr baxımından unikal turizm məkanıdır. Beynəlxalq idman və mədəni tədbirlər, həmçinin aeroport və nəqliyyat infrastrukturu turizmin sürətli inkişafını təmin edir. Prezident İlham Əliyev vurğulayır ki, turizm yalnız iqtisadi gəlir gətirmir, həm də ölkənin dünya arenasında tanınmasını, mədəniyyətinin təqdimatını və milli imicini gücləndirir.

Dövlət idarəçiliyi və kadr siyasəti Prezidentin müsahibəsində əsas diqqət mərkəzindədir. Ölkə rəhbəri vurğulayır ki, etimad göstərilən kadr yalnız vəzifəsini səmərəli yerinə yetirdikdə uzunmüddətli rol oynaya bilər; əks halda, inzibati və ya cinayət məsuliyyətinə cəlb olunacaq. Qarabağ və Şərqi Zəngəzurda tətbiq olunan xüsusi nümayəndəlik institutu çevik, operativ və daha az bürokratik idarəetmə modeli təqdim edir və bu modelin digər regionlarda da tətbiqi perspektivləri mövcuddur. Prezidentin vurğuladığı kimi, ictimai nəzarət, şəffaflıq və korrupsiyaya qarşı dözümsüzlük idarəçilikdə əsas prinsipdir.



Müsahibədə milli kimlik və torpaq anlayışı həm tarixi, həm də emosional dərinliklə təqdim olunur. Vətən müharibəsi zamanı hər azad edilmiş kəndə sancılan bayrağın gətirdiyi qüruru vurğulayan Prezident xüsusi diqqətə çatdırır ki, Azərbaycan torpağı onun üçün milli varlıq, suverenlik və xalqın birliyi anlamındadır. Bu gün torpaq anlayışı sülh, quruculuq və iqtisadi potensialla tamamlanır: münbit torpaq kənd təsərrüfatı və ölkə rifahı üçün yeni perspektivlər açır. Prezident İlham Əliyev qətiyyətlə bildirir ki, bundan sonra Azərbaycan torpağı heç vaxt kimsənin tapdağı altında olmayacaq, çünki güclü dövlət, iradəli xalq və birləşmiş ordu bunun təminatıdır.

Dövlət başçısının vurğuladığı kimi, 2025-ci il Azərbaycan üçün sülh, təhlükəsizlik və sabitlik ili olmuşdur. Bu reallığın təməlində dayanan əsas amil isə xalq–iqtidar birliyidir. Məhz bu birlik son illər ərzində Azərbaycanın üzləşdiyi bütün çağırışlara adekvat və qətiyyətli cavab verməsini təmin etmişdir. Prezident İlham Əliyev Vətən müharibəsində qazanılmış tarixi Zəfəri təkcə hərbi-siyasi nailiyyət kimi deyil, milli ləyaqətin, suverenliyin və ədalətin bərpası kimi dəyərləndirir. Beş il ərzində Azərbaycan Ordusunun döyüş qabiliyyətinin sistemli şəkildə artırılması, müasir silahlanma və yeni hərbi birliklərin formalaşdırılması dövlətin təhlükəsizlik siyasətinin strateji xarakter daşıdığını bir daha təsdiqləyir. Bu, müharibəyə deyil, sülhün qorunmasına xidmət edən gücdür.

Dövlətimizin başçısının beynəlxalq münasibətlər sisteminə dair səsləndirdiyi fikirlər xüsusi diqqətə layiqdir. Prezident açıq şəkildə bəyan edir ki, müasir dünyada beynəlxalq hüquq normalarının selektiv tətbiqi fonunda hər bir dövlət öz təhlükəsizliyini təmin etməyə borcludur. Azərbaycan isə bu reallığı nəzərə alaraq həm hərbi, həm siyasi, həm də diplomatik müstəvidə güclü mövqeyə malik olan məsuliyyətli dövlət kimi çıxış edir.

Postmünaqişə dövründə Azərbaycanın atdığı addımlar qalib ölkənin siyasi müdrikliyinin göstəricisidir. Ermənistanla paraflanmış sülh müqaviləsi, Minsk qrupunun tarixə qovuşması və Qarabağ məsələsinin beynəlxalq gündəlikdən çıxarılması Azərbaycanın Zəfərini hüquqi-siyasi müstəvidə tam şəkildə möhkəmləndirmişdir. Xüsusilə Qələbənin dünyanın ən nüfuzlu siyasi mərkəzlərindən birində — Ağ Evdə təsdiqlənməsi dövlətimizin beynəlxalq legitimliyinin bariz nümunəsidir.

Prezidentin müsahibəsində iqtisadi göstəricilər də qürurverici faktlarla təqdim olunur. Vurğulanır ki, artan valyuta ehtiyatları və müsbət investisiya reytinqləri Azərbaycanın iqtisadi müstəqilliyinin və dayanıqlılığının göstəricisidir. Bu güclü iqtisadi baza "Böyük Qayıdış" proqramının uğurla icrasına imkan yaratmış, artıq on minlərlə soydaşımızın doğma torpaqlarına qayıdışını təmin etmişdir.

Xarici siyasət sahəsində əldə edilən nailiyyətlər — D-8 təşkilatına üzvlük, Orta Asiya ölkələrinin Məşvərət Şurasında tamhüquqlu təmsilçilik, işğaldan azad edilmiş Xankəndidə və Qəbələdə keçirilən beynəlxalq zirvə görüşləri — Prezident İlham Əliyev tərəfindən çağdaş tariximizin parlaq səhifələri kimi dəyərləndirilir. Dövlət başçısı vurğulayır ki, bütün bunlar Azərbaycanın regional və qlobal miqyasda artan rolunu təsdiqləyir və bərabərhüquqlu tərəfdaşlığa, milli maraqlara və müstəqil siyasi iradəyə əsaslanan siyasətin məntiqi nəticəsidir.

Dünyanın qeyri-sabit dövründə, bəzi ölkələrdə inqilabların silsilə şəklində baş verdiyi və dövlətlərin viran qaldığı bir vaxtda böyük güc mərkəzlərinin hədəfində olan Azərbaycanda ictimai-siyasi sabitliyin qorunması və sürətli iqtisadi inkişafa nail olunması asan başa gəlməmişdir. Təxminən otuz il ərzində ölkəmizi müharibəyə cəlb etməklə onun inkişafını əngəlləməyə və asılı vəziyyətə salmağa çalışan güc mərkəzlərinin cəhdlərinə baxmayaraq, Azərbaycan beynəlxalq müstəvidə öz müstəqil siyasətini yürütməyə və salındığı geosiyasi labirintdən çıxmağa nail olmuşdur. Bu mövqenin əldə olunması Azərbaycan xalqının Prezident İlham Əliyevin müdrik siyasətinə və mahir diplomatiyasına verdiyi dəstəyin nəticəsidir.

Ölkəmizin bu günündən danışan Prezident Azərbaycanı həm beynəlxalq aləmdə, həm regionda, həm də daxili siyasət prioritetlərinin düzgün seçilməsi baxımından bir çox dövlətlər üçün nümunə kimi təqdim etmişdir.

Azərbaycanın dünya dövlətləri ilə münasibətlərinin mahiyyəti, "Böyük Qayıdış"la bağlı görülmüş və görüləcək işlərin məzmunu, gələcək qlobal və regional iqtisadi layihələr barədə səmimi fikirlərini bölüşən Prezident bildirmişdir ki, bu gün Azərbaycanın qazandığı uğurlar, xüsusilə ərazi bütövlüyümüzün və dövlət suverenliyimizin tam bərpası epoxal hadisədir. Azərbaycanın çoxəsrlik tarixində buna bənzər bir Zəfər olmamışdır. Siyasi, hərbi və coğrafi amilləri, eləcə də otuz illik işğal reallığını nəzərə alsaq, bu Qələbə xalqımızın və dövlətimizin ən parlaq tarixi nailiyyətidir. İşğal altında olmuş ərazilərin azad edilməsi və suverenliyin tam bərpası regionda sülhün təmin olunması baxımından da yeni mərhələnin başlanğıcıdır.

Dövlət başçısı müsahibəsində milli kimlik, dil və milli birlik mövzusunda səsləndirdiyi fikirlərlə suverenliyini bərpa etmiş ölkəmizin hər bir vətəndaşını ümummilli həmrəyliyə çağırıb.

Qeyd edilməlidir ki, Prezidentin bu müsahibəsində dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların mədəniyyətlərarası dialoqda iştirakının artırılması və milli identikliyə bağlılığının gücləndirilməsi məqsədi də aydın şəkildə öz əksini tapır. Həmrəylik konsepti burada bir tərəfdən qloballaşma şəraitində mədəni müxtəlifliyin qorunması, digər tərəfdən isə mədəni inteqrasiya modeli kimi təqdim olunur. Müsahibədə milli-mənəvi dəyərlərin qorunmasının Azərbaycan xalqının zəngin mədəni irsini çağdaş dövrdə yaşatmağın əsas şərti olduğu vurğulanır. Eyni zamanda, tarixi Zəfərdən sonra formalaşan yeni milli kimlik elementlərinin rolu xüsusi qeyd edilir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin yanaşmaları işğalçı üzərində qazanılmış hərbi Qələbədən sonra, eləcə də işğalçının havadarları üzərində əldə edilmiş mənəvi Zəfər fonunda Azərbaycanın yeni geosiyasi reallıqlarda mövqeyini daha da möhkəmləndirdiyini göstərir. Bu kontekstdə dövlət başçısı həm ölkə daxilində, həm də diaspor müstəvisində həmrəylik ruhunun qorunmasının zəruriliyini önə çəkir.

Prezidentin müsahibəsində Qarabağın və Şərqi Zəngəzurun bərpası və yenidən qurulması prosesi həm Azərbaycanın inkişaf modeli, həm də Zəfər irsinin gələcək nəsillərə ötürülməsi kimi təqdim olunur. Bu yanaşma ölkədaxili siyasətdə olduğu kimi, beynəlxalq aləmdə də Azərbaycanın multikultural dəyərlərə əsaslanan strategiyasını əks etdirir.

Dövlət başçısının söylədiyi hər bir fikirdə gələcəyə yönəlik optimist ton aydın şəkildə hiss olunur. Yeni ilin Azərbaycanın inkişafında yeni bir mərhələnin başlanğıcı olacağı bildirilir. Bu mərhələ çağdaş texnologiyalar və qlobal çağırışlarla sinxronlaşan mədəni-siyasi hədəf kimi təqdim edilir.

Eyni zamanda, bu müsahibə Azərbaycan xalqının daxili potensialına olan dərin inamı ifadə edir. Burada siyasi liderlik, milli iradə və mədəni irsin yeni dövrün tələblərinə uyğunlaşdırılması əsas anlayışlar kimi ön plana çıxır. Əgər əvvəlki müsahibələrdə daha çox milli məsələlərə diqqət yetirilirdisə, bu dəfə qlobal çağırışların həllində Azərbaycanın fəal iştirakından bəhs olunur.

Bu müraciət Azərbaycanın həmrəylik konseptini yalnız milli birlik çərçivəsində deyil, dünya azərbaycanlılarının qlobal mədəni dialoqa verdiyi töhfə kontekstində də təqdim edir. Prezident vurğulayır ki, dünya azərbaycanlıları öz köklərinə sadiq qalmaqla yanaşı, Azərbaycan dəyərlərini beynəlxalq müstəvidə tanıtmaqla ümumbəşəri mədəniyyətə inteqrasiya edirlər. Bu yanaşma milli birlik və həmrəylik anlayışını daha geniş, geokulturoloji müstəviyə daşıyır. Prezident İlham Əliyevin mesajı aydındır: harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının arxasında güclü, qalib və müstəqil Azərbaycan dövləti dayanır.

Yeni ilin Azərbaycanda və ölkəmizin hüdudlarından kənarda yaşayan hər bir azərbaycanlı üçün yeni mərhələnin başlanğıcı olduğunu vurğulayan Prezident bu müsahibə ilə xalqımızı yeni dövrün milli ideyasının ümumxalq müzakirəsinə dəvət edir.

Doğrudan da hər bir cəmiyyətin və dövlətin davamlı inkişafını təmin etmək üçün onun hər bir dövrə uyğun yeni milli ideyası olmalıdır. Prezidentin milli ideya məsələsini ümumxalq müzakirəsinə təklif etməsi o deməkdir ki, ölkənin idarə olunmasında ölkə başçısı ilə bərabər, xalq da birbaşa iştirak edir və Prezident bu iştirakın formal yox, faktiki olmasını arzulayır. Məsələyə belə yanaşma İlham Əliyevin əsl xalq Prezidenti olduğunun göstəricisidir. Və O, təkcə Azərbaycanda deyil, dünyanın müxtəlif coğrafiyalarında yaşayan hər bir azərbaycanlının Prezidentidir.

***Cavanşir FEYZİYEV,***
***Milli Məclisin deputatı***

---

# Tərəfdaşlıq və suverenlik balansı

(əvvəli 1-ci səhifədə)

Əslində, Yaxın Şərq regionunda tərəf saxlamaq çox vaxt hansısa blokun, hansısa emosional cəbhənin və ya ideoloji ritorikanın tərkib hissəsinə çevrilmək mənasına gəlir. Ona görə də bu barədə fikir bildirərkən etibarlı siyasi balans və prinsipial mövqe önəmlidir. Azərbaycanın fərqləndirici cəhəti məhz buradadır. Rəsmi Bakı bu gün həm İsraildə, həm ərəb dünyasında, həm də daha geniş İslam coğrafiyasında bərabərhüquqlu tərəfdaş kimi qəbul olunur. Əlbəttə, bunun əsas səbəbi illərlə ardıcıl aparılmış praqmatik, suveren və məsuliyyətli xarici siyasətdir. Azərbaycanın nə İsraillə münasibətləri ərəb və İslam dünyasına qarşı qurulub, nə də Fələstin məsələsindəki mövqeyi İsraillə əlaqələrin alternativi kimi təqdim edilib. Ölkəmizin qurduğu balans müasir beynəlxalq münasibətlərdə nadir keyfiyyətlərdəndir.

Prezidentin müsahibəsində Yaxın Şərq mövzusunda diqqətçəkən, eyni zamanda, ən prinsipial məqam Qəzza sektoru ətrafında formalaşan mümkün beynəlxalq missiyalarla bağlı ortaya qoyduğu mövqedir. Ölkə başçısının səsləndirdiyi fikirlər beynəlxalq hüquq, hərbi praktika və milli təhlükəsizlik baxımından formalaşmış aydın doktrinaya söykənir: "Bizə belə müraciətlər daxil olub. Təbii, bununla bağlı qərar qəbul etməzdən əvvəl biz aydın şəkildə başa düşməliyik ki, əməliyyatların mandatı necə olacaq və hansı növ əməliyyatlar ola bilər. Bizim İraqda, buna qədər isə həm Kosovoda, həm də özlüyündə Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirak etmək təcrübəmiz var, ona görə də fəaliyyətin strukturunu çox gözəl bilirik. Qəzza sektorunda vəziyyətə gəldikdə, zənnimizcə, kimin mandat verəcəyi və onun necə olacağı indiyədək aydın deyil".



Bəli, dövlət başçısı ilk növbədə Qəzzada kimin mandat verəcəyi və həmin mandatın mahiyyətinin hələ də qeyri-müəyyən olduğunu vurğulamaqla məsələni normativ-hüquqi çərçivəyə qaytardı. Paralel olaraq vurğulanan "peacekeeping" və "peace enforcement" anlayışlarının fərqləndirilməsi də təsadüfi deyil. Beynəlxalq praktikada hər iki termin tez-tez qarışdırılsa da, onların mahiyyəti və nəticələri köklü şəkildə fərqlənir. Sülhməramlı əməliyyatlar adətən tərəflərin razılığı, atəşkəs rejimi və neytral mövqenin qorunması üzərində qurulur. Halbuki "peace enforcement", yəni sülhün zorla tətbiqi, faktiki olaraq, döyüş əməliyyatlarının davamıdır və bu cür missiyalar iştirakçı ölkələr üçün birbaşa hərbi risklər yaradır.

Azərbaycanın ikinci formata hazır olmadığını və ümumiyyətlə, belə bir iştirakı nəzərdə tutmadığını açıq şəkildə bəyan etməsi isə ölkənin xarici hərbi iştiraklara yanaşmasında qəti və dəyişməz prinsipin mövcudluğunu bir daha göstərir. Rəsmi Bakı bununla təhlükəsizlik anlayışını və insan həyatına verdiyi dəyəri beynəlxalq arenada açıq şəkildə müdafiə edir. Yeri gəlmişkən, bu kontekstdə Əfqanıstan təcrübəsinə istinad xüsusi əhəmiyyət daşıyır. Prezidentin vurğuladığı kimi, Azərbaycanın sülhməramlı missiyalarda iştirakı tarixən məhdud, dəqiq və funksional xarakter daşıyıb. Strateji obyektlərin mühafizəsi ilə məhdudlaşan iştirak döyüş əməliyyatlarından kənar saxlanılıb və nəticədə ölkəmiz illər ərzində heç bir itki verməyib. Azərbaycanın Yaxın Şərq məsələlərinə yanaşmasının öz tarixi təcrübəsi ilə əlaqələndirilməsi təqdirəlayiq məqam idi.

Prezidentin Birinci və İkinci Qarabağ müharibələrində verilmiş itkilərə istinad etməsi bu mövqenin kollektiv milli yaddaş üzərində qurulduğunu göstərir. Birinci Qarabağ müharibəsində on minlərlə insanın həyatını itirməsi, yüz minlərlə insanın məcburi köçkünə çevrilməsi və Azərbaycanın uzun illər beynəlxalq laqeydliklə üz-üzə qalması bu gün verilən qərarların psixoloji və siyasi fonunu formalaşdırır. Prezidentin "bizim başımız bəlada olanda öz taleyimizin hökmünə buraxılmışdıq" fikri beynəlxalq münasibətlərdə selektiv ədalət anlayışına yönəlmiş açıq, lakin ölçülü növbəti tənqid nümunəsi idi.

Xüsusi diqqətçəkən tezislərdən biri "ərəb ölkələrinin məsələlərini ərəb dövlətlərinin özləri həll etməlidir" yanaşmasıdır. Prezident açıq şəkildə bildirdi ki, qeyri-ərəb müsəlman ölkələrinin sözügedən məsələlərdə "parovozun önündə qaçması" nə regionun özünə, nə də həmin ölkələrə fayda gətirir. Bəli, son onilliklərdə Yaxın Şərqdə müşahidə olunan uğursuz müdaxilələri təhlil etsək, bu yanaşmanın da öz təsdiqini tapdığını görmək mümkündür. Çünki xarici aktorların bölgəyə "xilasedici" mövqedən daxil olması əksər hallarda vəziyyəti daha da ağırlaşdırıb.

ABŞ-ın BMT-dəki səfirliyinin Azərbaycanın mümkün iştirakı ilə bağlı verdiyi bəyanata reaksiya da xüsusi önəm kəsb edir. Dövlətimizin başçısının bu məsələni açıq şəkildə gündəmə gətirməsi iki əsas məqsədə xidmət edir. Birincisi, Azərbaycanın adından danışılmasına qəti şəkildə etiraz olunur. Prezident bildirib ki, rəsmi Bakı heç bir razılıq verməyib və bu barədə diplomatik kanallarla Amerika administrasiyasına rəsmi mövqe çatdırılıb. İkincisi, bu açıqlama beynəlxalq mediada dolaşan şayiələrin qarşısını almağa yönəlib. Ölkə başçısının vurğuladığı kimi, xüsusilə yüksək rütbəli diplomatlar tərəfindən səsləndirilən məsuliyyətsiz və yanlış bəyanatlar beynəlxalq auditoriyada səhv təsəvvür yaradır. Azərbaycanın bu məsələdə 20 sualdan ibarət rəsmi müraciət hazırlaması isə institusional və hüquqi çərçivəyə üstünlük verdiyini sübut edir.

Beləliklə, Azərbaycan Yaxın Şərq siyasətinin əsas konturlarını ilk dəfə bu qədər sistemli şəkildə nümayiş etdirdi. Ölkəmizin sözügedən istiqamətdə yürütdüyü siyasətin mərkəzində insan həyatı, suveren qərarvermə və balanslı tərəfdaşlıq dayanır. Bakı bu gün Yaxın Şərqdə nə xilasedici roluna iddia edir, nə də kənar müşahidəçi kimi məsuliyyətdən yayınır. Azərbaycan öz yerini çoxdan müəyyənləşdirib – regionun daxili mexanizmlərinə hörmət edən, beynəlxalq hüquqa söykənən etibarlı tərəfdaş.

***Nəzrin ELDARQIZI***
***XQ***

# Bu günün təşəbbüsü sabahın reallığıdır

**Türk Dövlətləri Təşkilatının (TDT) dünyanın yeni güc mərkəzlərindən birinə çevrildiyini demək üçün bütün əsaslar mövcuddur. 400 milyondan çox insanın yaşadığı geniş bir coğrafiyanı əhatə edən, hərtərəfli iqtisadi potensiala, enerji resurslarına, logistikaya, eləcə də müasir ordulara malik təşkilat haqlı olaraq beynəlxalq platformalarda təmsil olunmağa iddiasını ortaya qoyur. TDT-yə üzv dövlətlərin bütün müstəvilərdə nümayiş etdirdikləri həmrəylik və qarşılıqlı dəstək onun bu iddiasının reallığa əsaslandığını isbatlayır.**



Azərbaycan Prezidenti İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsində bu məsələyə xüsusi diqqət yetirməsi heç də təsadüfi deyildi. Jurnalistin türk dövlətləri arasında hərbi əməkdaşlıq elementinin zəruriliyi barədə sualını cavablandıran dövlətimizin başçısı hazırda dünyada gedən proseslərin hər bir ölkənin, ilk növbədə, öz hərbi potensialını gücləndirməsini vacib amilə çevirdiyini önə çəkir: “Yeni il bayramı ilə əlaqədar Azərbaycan xalqına təbrikimdə də demişdim, bugünkü dünya belədir: kim güclüdür, o da haqlıdır. Mənim sözlərim indi demək olar ki, həftəlik formatda bu və ya digər bölgələrdə təsdiqlənir. Qəbələdəki Zirvə Görüşündə mən bu tezisdən daha da irəli gedərək təklif etdim ki, bu il Azərbaycanda üzv ölkələrin birgə hərbi təlimləri keçirilsin. Hesab edirəm ki, buna da ehtiyac var. Biz üzv ölkələrlə ikitərəfli formatda hərbi təlimlər keçiririk. Təbii ki, ən çox Türkiyə ilə, amma digər ölkələrlə də. Ancaq birgə hərbi təlimlərin keçirilməsində həm böyük rəmzi məna ola bilər, eyni zamanda, praktik nöqteyi-nəzərdən buna ehtiyac var”.

Bəli, İlham Əliyev bu məsələni ilk dəfə deyil gündəmə gətirir. Dövlətimizin başçısı bu ideyanı, sadəcə dilə gətirmir, həm də özünün strateji planları hədəfləyən təhlilini ortaya qoyur. Bu barədə danışarkən “bugünkü dünyada beynəlxalq hüquq deyilən məsələ yoxdur. Bunu hər kəs gərək unutsun. Güc var, əməkdaşlıq var, müttəfiqlik var, qarşılıqlı dəstək var” – deyən Azərbaycan Prezidenti diqqəti dürüstlük və ədalət prinsipinin unudulmamasına, heç bir ölkənin, heç bir rəhbərin nahaq iş görməməsinə yönəldir. Ölkəmizin son 30 ildə üzləşdiyi haqsızlıqdan, ikili standartlardan çıxış edən Azərbaycan lideri heç bir ölkənin digər ölkənin ərazi bütövlüyünə göz dikməməsinin, heç bir ölkəni işğal etməməsinin dəyişməz postulat olaraq qəbul olunmasını vurğulayır.

Müsahibədə Azərbaycanın həm 2020-ci, həm 2023-cü ildə, həm də bu illər arasında baş verən hadisələr zamanı güc tətbiqi ilə Ermənistanın layiqli cavabını verməyə qadir olduğunu bildirən İlham Əliyev bunu niyə etmədiyimizin səbəbini diplomat-zərgər dəqiqliyi ilə xırdalayır: “Çünki birincisi, bu, nahaq iş olardı. İkincisi, mən tam əmin idim və bilirdim ki, gec-tez müharibə, hərbi qarşıdurma dayanmalıdır və bunu biz dayandırmasaq, bu dayanmayacaq. Bunu güclü tərəf dayandırmalıydı və hətta bu, artıq mətbuata da getmişdi. Prezident Trampın müşaviri cənab Vitkof müsahibələrinin birində demişdi ki, Ağ Evdə Prezident Tramp da məndən soruşdu “Niyə siz dayandınız? Siz güclüydünüz”. Mənim cavabımı da yəqin ki, eşitmisiniz. Ona görə, buna baxmayaraq, hərbi gücün olmalıdır ki, heç kim sənə xor baxmasın, heç kim sənə ziyan vurmasın. Hətta heç kim düşünməsin ki, sənə ziyan vura bilər və bunun cavabını ödəməyəcək”.

Bu məqamda dövlətimizin başçısı gücün, ədaləti bərpa etməyə qadir hərbi qüdrətin müasir dünyada oynadığı rola işarə edir. Ardınca təbii olaraq, Azərbaycanın Türkiyə ilə rəsmi müttəfiqlik formatında əməkdaşlığını TDT-nin digər üzvləri üçün nümunə göstərir və onları da bu istiqamətdə əməkdaşlığa başlamağa çağırır. İntəhası, bu zaman İlham Əliyev onun təşəbbüsündən əndişəyə düşə biləcək bədxahlarımızın da cavabını verir: “Bunu təklif etməklə mən heç də hansısa hərbi təşkilatın yaradılmasını təklif etmirəm. Bəziləri bunu belə yozurlar. Yox, bu, tamamilə əsassızdır. Biz indi sadəcə olaraq, energetika sahəsində, nəqliyyat sahəsində, ticarət, investisiya qoyuluşu, bir çox sahələrdə əməkdaşlıq edirik. Nə üçün bu sahədə də əməkdaşlıq etməyək? Nəzərə alsaq ki, bu gün bütün ölkələr üçün bu, bir nömrəli məsələdir, ona görə təklifim qüvvədədir”. Beləliklə, təklif irəli sürüldü, mesajlar da verildi. Qalır bunlardan hərənin öz payını götürməsi.

*

Yaxın keçmişdə türk xalqlarının inteqrasiyası ideyası yalnız mədəni və mənəvi birliyə xidmət edirdisə, bugünün reallığı həmin birliyin praktik təhlükəsizlik mexanizmləri üzərində qurulmasını diktə edir. Bu təşəbbüsü məhz Azərbaycanın irəli sürməsi tamamilə məntiqlidir. Çünki Azərbaycan son 5 ildə regionda sülhün, sabitliyin və təhlükəsizlik arxitekturasının qurulmasına vacib töhfələrini verib. Vətən müharibəsində əldə edilmiş qələbə, Azərbaycan–Türkiyə hərbi əməkdaşlığının uğurlu nəticələri göstərdi ki, milli müdafiə strategiyasını müasir texnologiyalar, çevik diplomatiya və yüksək döyüş qabiliyyəti üzərində quran ölkələr bölgədə yeni güc mərkəzini yarada bilərlər. Məhz bu baxımdan yanaşanda Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin irəli sürdüyü təklif təkcə siyasi ideya deyil, yaxın tarixə və konkret təcrübəyə söykənən strateji təşəbbüsdür.

Razılaşaq ki, XXI əsrdə müharibələrin və münaqişələrin gətirdiyi xaos, müxtəlif qitələrdə cərəyan edən ziddiyyətli proseslər hər bir ölkənin təhlükəsizlik sahəsinə xüsusi diqqət yetirməsini vacibdən də vacib edir. Bu prizmadan yanaşanda, türk dövlətləri də öz növbəsində müdafiə qabiliyyətlərini durmadan artırmalı, gözlənilən xarici təhdidlərin qarşısını vaxtında və qətiyyətlə almaqdan ötrü lazımi addımları atmalıdırlar. Qloballaşan dünyada baş verən prosesləri nəzərə alsaq, gələcəkdə TDT-nin özünün NATO-sunun yaranacağını da istisna etmək olmaz. O zaman Azərbaycan Prezidentinin bu gün həmin təşəbbüsü siyasi fəhm və uzaqgörənliklə irəli sürdüyünə əmin olacağıq.

***İmran BƏDİRXANLI***
***XQ***

### *Ekspert rəyi*

**Tofiq ABBASOV,**
**siyasi şərhçi**



Dünyada güc amili həmişə aparıcı rol oynayıb. Əvvəlki vaxtlarda beynəlxalq hüquq normaları, dünyanın nizamını tənzimləyən sistem öz qüvvəsini saxlayır, çoxluğun fikri, iradəsi nəzərə alınırdı. Sonra məlum oldu ki, bu nizamı kökləyən “böyük güclər”in özləridir. Bəs yeni dünya düzəni hansı şəraitdə yaranır? Bu, müharibələrin baş verdiyi, bəzi ölkələrin və xalqların güclülərin nəzarəti altına düşdükləri reallıqdır.

Prezident İlham Əliyev Türk Dövlətlər Təşkilatının özünün təhlükəsizlik mexanizminin yaradılması ideyasını hələ təşkilatın Qəbələ Zirvə Görüşündə irəli sürmüşdü. Buraya birgə hərbi təlimlərin gücləndirilməsi, hərbi-siyasi sahədə əməkdaşlığın üfüqlərinin genişləndirilməsi kimi məsələlər daxil idi. Həmin zərurət dünyada cərəyan edən proseslərlə şərtləndirilirdi. Bəli, bu məsələni birinci dəfə gündəmə gətirən Azərbaycan lideri olub, TDT-yə üzv dövlətlərin təmsilçiləri də buna yekdilliklə razılıqlarını bildiriblər. Faktiki olaraq, gözümüzün qarşısında dünyanın bölünməsi uğrunda çarpışma gedir. Şimali və Cənubi Amerika qitələrində müşahidə olunan olaylar, Çinin Sakit okean hövzəsini öz nəzarətində saxlamaq cəhdləri, Rusiyanın postsovet məkanında prioritetlərini qorumaq səyləri bu zərurəti ortaya çıxarır. Yəni Türk dövlətləri bunlardan heç birinin təsir dairəsinə düşməli deyil. Artıq bu coğrafiyada möhkəm dayaq nöqtələrinə çevrilmiş güclü Türkiyə və Azərbaycan var. Dediyimiz proseslərdən kənarda qalmamaqdan ötrü bütövlükdə Türk dünyası güclü olmalıdır. Ordularımızın ən müasir səviyyəyə gətirilməsi məsələsi isə artıq müzakirə mövzusu deyil. Dövlətimizin başçısı zamanın bu tələbini hamıdan əvvəl duydu və bu barədə fikirlərini aşkar şəkildə söylədi. Bu, şüarçılığın, pafosun olmadığı praqmatik tezisdir.

İlham Əliyevin israrla üzərində dayandığı bu ideyanın gerçəkləşməsi üçün TDT üzvlərinin hər birinin üzərinə düşən vəzifə və öhdəliklər var. Hesab edirəm ki, artıq müzakirələrdən əməli addımlara keçmək lazımdır. Azərbaycanın Türkiyə ilə yanaşı, Mərkəzi Asiya ölkələri ilə hərbi-siyasi sahədə əməkdaşlığı nümunə sayıla bilər. Dövlətimizin başçısı “TDT+” formatını da irəli sürdü ki, ortaq hərbi alyansa qeyri-türk dövlətləri, Avropadakı tərəfdaşlarımız da qoşula bilsinlər. Bu, təkcə güc deyil, yeni geosiyasi mərkəzin yaradılması deməkdir. “Böyük güclər” bu mərkəzin mövqeyi və iradəsi ilə razılaşmalı olacaq.



---

**Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə dünən İrəvanda milad yürüşü keçirilib. Əvvəlcə Paşinyan və həyat yoldaşı Anna Akopyan paytaxtdakı Nurlandırıcı Qriqori kilsəsinin həyətinə gəliblər. Ölkə prezidenti Vaaqn Xaçaturyan, parlamentin sədri Alen Simonyan, iqtisadiyyat naziri Gevork Papoyan, səhiyyə naziri Anait Avanesyan, ərazilərin inkişafı və infrastruktur naziri David Xudatyan, xarici kəşfiyyat xidmətinin rəhbəri Kristine Qriqoryan və baş nazirin müşaviri Lilit Makunts da mərasimdə iştirak ediblər.**

# “Müqəddəslik” adı altında siyasi intriqa

## *Paşinyanın təfriqəçilərə sərt mesajı*

Ermənistan rəhbərliyi əvvəlcə milad liturgiyasına qatılıb. Liturgiya başa çatdıqdan sonra milad yürüşü başlayıb. Yürüşün istiqaməti Sayat Nova və Abovyan küçələrinin kəsişməsində yerləşən Müqəddəs Məryəm Ana katolik kilsəsinə doğru olub. Yürüşə baş nazirlə birlikdə milad ayinində iştirak edən rəsmi şəxslər də qatılıb. Onlara hakim “Mülki müqavilə” partiyasının digər üzvləri də qoşulub.

Paşinyan yürüşün sonunda Müqəddəs Məryəm Ana kilsəsinin həyətində quraşdırılmış tribunada çıxış edib. Ermənistan baş nazirinin çıxışında hökumət-kilsə münasibətlərinə xüsusi yer ayrılıb. “Armenpress”in məlumatına görə, Paşinyan deyib ki, hökumət kilsəyə qarşı hərəkət etməyib, hərəkət etmir və heç vaxt hərəkət edə bilməz, çünki hökumət Erməni Apostol Müqəddəs Kilsəsinin davamçısıdır: “Bu gün biz özümüzü xristianlığı qəbul edən ilk dövlət kimi təsdiqləyirik və bugünkü yürüşümüz, nəhayət ki, xilaskarımız İsa Məsihin göstərdiyi yolla getməyə başladığımızı simvolizə etdi”.

Nikol sülhdən də danışıb: “Erməni Apostol Müqəddəs Kilsəsinin liturgiyasında dəfələrlə bu kəlam eşidilir: “Gəlin, Allaha sülh içində dua edək”. Bu da qrabar dilindən tərcümədə belə deməkdir: “Gəlin, Allaha sülh üçün dua edək”. Çox simvolik bir hadisə baş verib, çünki hamımız çox uzun müddətdir Allaha sülh üçün dua etmişik, amma nəhayət, anladığımız an gəlib ki, Allaha sülh üçün dua etməklə yanaşı, özümüz də qərarlarımız, hərəkətlərimiz və addımlarımızla bu sülhü yaratmalıyıq”.

Onun sözlərinə görə, artıq Ermənistan Respublikasında sülh bərqərar olub və bu gün (yanvarın 6-da–S.H.) insanlar xilaskar İsa Məsihə, nəhayət ki, onun vəhyinə əməl etdiklərini bildirmək üçün yürüş edirdilər: “Biz sülhü yaradırıq və bu sülh üçün yalnız yalvarmırıq, həm də özümüz sülhə çağırırıq. Biz özümüzü xristianlığı qəbul edən ilk dövlət kimi yenidən qururuq. Erməni xalqı böyük çar Trdatın qərarı və fərmanı ilə xristian oldu. Əlbəttə ki, bu işlərə İsa Məsih və onun elçisi və həvarisi, ilk patriarxımız Nurlandırıcı Qriqori rəhbərlik edirdi. Əsl Ermənistan xristian dəyərlərinin daşıyıcısı, xristian dəyərlərinə əsaslanan bir dövlət kimi yenidən qurulur”.

Baş nazirin sözlərinə görə, xristianlığı qəbul edən insanların əsas simvollarının bugünkü Ermənistan Respublikasının beynəlxalq səviyyədə tanınmış ərazisində olması çox simvolikdir. Qeyd edib ki, xristian dayaqları bu gün də kifayət qədər güclü mesaja malik Ermənistan Respublikasını simvolizə edir: “Bu gün biz həm də qeyd edirik ki, xristianlıq və dövlətçilik nöqteyi-nəzərindən yenilənməli, tutduğumuz yola baxmalı və qərarlar qəbul etməliyik. Biz bəzilərinin bizə əziz, müqəddəs Erməni Apostol Müqəddəs Kilsəsindən Ermənistan Respublikasına qarşı hərəkət etmək üçün dayaq nöqtəsi kimi istifadə etməyə çalışdıqları bir vəziyyətlə qarşılaşırıq. Onlar deyirlər ki, hökumət kilsəyə qarşı hərəkət edir, amma biz bu gün burada hökumətin kilsəyə qarşı heç vaxt hərəkət etmədiyini, indi hərəkət etmədiyini və heç vaxt hərəkət edə bilməyəcəyini demək üçün toplaşmışıq. Çünki hökumət Erməni Apostol Müqəddəs Kilsəsinin davamçısıdır. Mən, Ermənistan Respublikasının xalqı tərəfindən seçilmiş baş nazir olaraq deyirəm ki, bəzilərinin kilsədən Ermənistan Respublikasına qarşı hərəkət etmək üçün baza kimi istifadə etməsinə imkan verməyəcəyik”.

Paşinyanın sözlərinə görə, kilsəni bu vəziyyətə gətirən, bu fikri beyinlərinə salan şəxslər kilsənin qaydasına uyğun olaraq təfriqəçilərdir: “Bu gün kilsəmizin faktiki rəhbəri (katolikos II Qaregini nəzərdə tutur–red.) və onun çevrəsi formalaşdırdığı dar dairə məzhəb məntiqindədir. Bu o deməkdir ki, biz Erməni Apostol Müqəddəs Kilsəsini parçalanmadan xilas etməli və kilsəni xalqa qaytarmalıyıq. Kilsə xidmətçilərinin əsas, həlledici əhəmiyyəti var: onlar kilsənin sütunlarıdır. Lakin kilsə İsa Məsihə məxsusdur və xalq üçündür. Kilsə insanın İsa Məsihlə ünsiyyət qurduğu yerdir. Lakin bu gün kilsəmizdə İsa Məsih, təəssüf ki, küncə sıxışdırılıb. Xilaskarımız təcrid olunub, amma yaxşı xəbər budur ki, kilsəmiz artıq təcriddən çıxır. Gördünüz ki, iki gün əvvəl – yanvarın 4-də 10 yepiskopla birlikdə Erməni Apostol Müqəddəs Kilsəsinin islahatına başlamaq barədə qərar qəbul etdik və bəyanat imzaladıq”.



O, çətin anlarda öz dövlətlərinə dayaq olan həmin yepiskopları dəstəkləməyə və ruhaniləri qorumağa çağırıb: “Biz uzun müddətdir ki, kilsəmizi təfriqə ilə tək qoymuşuq, İsa Məsihi öz kilsəsində həmin təfriqə ilə tək qoymuşuq. Bugünkü yürüş gəldiyimiz, qayıtdığımız və artıq kilsəmizi, onun ruhani xidmətçilərini və xilaskarımız İsa Məsihi tək qoymayacağımızla bağlı idi. Kilsəmizi, onun xidmətçilərini, rəbbimiz və xilaskarımız İsa Məsihi tək qoyduğumuz üçün kilsəmizdən və onun çoxsaylı ruhani xidmətçilərindən bağışlanma diləyirəm, amma kilsə və dövlət indi bir yerdədir”.

Paşinyan çıxışının sonunda xalqı liturgiyalara qatılmağa və ruhanilərdən Erməni Apostol Kilsəsinə qoşulmağı xahiş etməyə çağırıb.

*

Əlbəttə, Nikolun milad yürüşündə verdiyi mesajlar zahirən dini-mənəvi çalarlarla zəngin görünsə də, mahiyyət etibarilə açıq siyasi məzmun daşıyırdı. Onun çıxışı, faktiki olaraq, hakimiyyət–kilsə qarşıdurmasının yeni və daha sərt mərhələyə keçdiyini göstərir. Ancaq onun verdiyi mesajların mərkəzində kilsəyə qarşı düşmənçilik yox, əksinə, kilsənin öz mahiyyətinə qaytarılması çağırışı dayanır. Paşinyan, faktiki olaraq uzun illərdir Erməni Apostol Kilsəsinin bir qrup ruhani tərəfindən siyasi alətə çevrildiyini açıq dillə ifadə etdi və bu, Ermənistan cəmiyyətində çoxdan səslənən, amma yüksək səviyyədə dilə gətirilməyən narahatlığın etirafı idi.

Paşinyanın əsas üstünlüyü ondadır ki, o, kilsəni dövlətə qarşı qoymur, əksinə, kilsənin dövlətə və xalqa qarşı istifadə edilməsinə açıq şəkildə “yox!” deyir. Onun “hökumət kilsəyə qarşı hərəkət edə bilməz” fikri formal bəyanat deyil, siyasi mövqedir. Burada hədəf kilsə institutu yox, bu institutu öz dar maraqları naminə girov saxlayan kilsə elitasıdır. Baş nazirin II Qaregin və ətrafını “təfriqəçi məntiq”də ittiham etməsi də məhz bu kontekstdə oxunmalıdır.

Paşinyan ilk dəfə olaraq Ermənistanda kilsə toxunulmazlığı mifini dağıtdı. O göstərdi ki, kilsə müqəddəsdir, amma toxunulmaz deyil; kilsə İsa Məsihə məxsusdur, konkret şəxslərə yox. Bu yanaşma xristian dəyərlərinə zidd deyil, əksinə, onların mahiyyətinə uyğundur. Kilsənin xalqa qaytarılması çağırışı populizm deyil, illərdir ruhanilərin qapalı dairəyə çevirdiyi bir institutun ictimai nəzarətə açılması cəhdidir.

Əslində, Paşinyan bu çıxışı ilə kilsəyə ultimatum yox, seçim təqdim etmiş oldu: ya kilsə özünü siyasi intriqaların alətindən xilas edib xalqın mənəvi dayağına çevriləcək, ya da dar çevrələrin maraqları naminə cəmiyyətlə üz-üzə qalacaq. Bu, Ermənistan üçün gecikmiş, amma zəruri bir mərhələdir.

***Səxavət HƏMİD***
***XQ***

*Mənəvi varlığımız*

# Ali missiya və müqəddəs borc

## *Prezident İlham Əliyev Azərbaycan televiziyalarına müsahibəsində Ana dilimizin qorunmasını çox mühüm vəzifə kimi bir daha önə çəkdi*

**Prezident İlham Əliyevin 2026-cı ilin ilk günlərində yerli televiziya kanallarına, Azərbaycan mediasının nümayəndələrinə geniş müsahibə verməsi olduqca dəyərli bir ənənəyə çevrilib. Ötən ilə yekun vurmaq, yeni başlanan il üçün nəzərdə tutulanlar barədə fikir bölüşmək baxımından cənab Prezidentin bu müsahibələri xüsusi məna, müstəsna əhəmiyyət daşıyır. Ölkə mediasına daha bir ali diqqət nümunəsi üçün Azərbaycan Prezidentinə ürəkdən təşəkkürümü bildirir və dövlətimizin başçısından müsahibə alan jurnalistləri bu növbəti nailiyyət münasibətilə təbrik edirəm. Aydın məsələdir ki, cənab Prezidentdən müsahibə almaq, ona suallar vermək əksər jurnalistlərin arzusudur və ilin ilk günlərindəcə belə bir imkanı qazanmaq son dərəcə xoşdur.**



*Rəşad MƏCİD,*
*Azərbaycan Mətbuat Şurasının sədri*

Müsahibə efirə getdikcə saytlarda və sosial mediada paylaşılan sitatlar misilsiz reaksiyalar doğururdu.

Cənab Prezident 3 dildə – Azərbaycanın xarici siyasətdəki uğurlarından beynəlxalq siyasi arenadakı mürəkkəb duruma, ölkəmizin fəal rol oynadığı qlobal və regional iqtisadi-nəqliyyat layihələrinə, hərbi quruculuqdan daxili idarəçiliyə, hətta məmurların davranışlarına qədər – bütün suallara dolğun cavablar verməklə, qeyd edilən məsələlərə ətraflı aydınlıq gətirməklə, öz təbirincə desək, "hazırlıqlı adam olduğunu" bir daha təsdiqlədi. Dövlət başçısının cavabları, toxunduğu mövzular ətrafında artıq ciddi müzakirələr başlayıb, təhlillər aparılır və sözsüz ki, bu proses hələ uzun müddət davam edəcək.

Diqqətimi ən çox çəkən, məni qəlbən təsirləndirən ən vacib məqamlardan biri Prezident İlham Əliyevin cavablarında doğma Vətənə sevgisinin, Azərbaycan təbiətinə heyranlığının həm rasional-əsaslı şəkildə, həm də səmimi emosionallıqla ifadə edilməsi oldu. Ölkəmizin turizm imkanlarından danışarkən dövlət başçısı Azərbaycanın gözəlliklərini necə də şövqlə, məhəbbətlə vəsf edirdi: "Qarabağ və Zəngəzura gəldikdə, bura cənnətdir. Həqiqətən, təbii cənnətdir".

Cənab İlham Əliyev indi Qarabağ və Şərqi Zəngəzuru daha yaxından, əyani formada, hətta, demək olar, ovcunun içi kimi tanıyır. Şuşadan Laçına, Laçından Kəlbəcərə yollar, aradakı məsafələr və bunların tunellər çəkiləndən sonra necə qısalaraq xeyli əlverişli olacağı barədə o qədər rahat, ürəkdən danışır, sanki ən gözəl duyğularından, ən isti xatirələrindən söz açır. Mübaliğəsiz deyə bilərəm ki, işğaldan azad olunmuş ərazilərə cənab Prezidentin sevgisi ilahi bir sevgidir və bu barədə danışan kimi onun gözlərindəki qeyri-adi işığı sezməmək mümkünsüzdür.

İki məqama da məxsusi diqqət çəkmək istəyirəm. Cənab Prezidentin bir neçə dəfə Mirşahinə üz tutaraq, etibarlı şahid kimi keçmişi xatırlamasının da dərin mənası vardı və müsahibəyə bir qədər də səmimiyyət qatır, rahat ovqat yaradırdı. Elə Mirşahin də Azərbaycan dili və Vətən torpağı haqqında suallarının fərqli emosional tonu ilə Prezidentin daha da səmimi, kövrək duyğularla cavab verməsinə zəmin hazırlamış oldu.

Azərbaycan dilinin saflığının qorunması məsələsinin Prezident İlham Əliyev üçün xüsusilə vacib və həssas bir mövzu olduğu əslində çoxdan aydındır. Bu barədə dönə-dönə mühüm fikirlər söyləyib, çıxışlarında Ana dili məsələsinə dəfələrlə ayrıca toxunub. Yazıçılar və jurnalistlər çevrəsində cənab Prezidentin səlis nitqi, Azərbaycan dilini mükəmməl bilməsi barədə çox müzakirələr aparmışıq. Prezident öz çıxışlarında, adətən, danışıqda işlətmədiyimiz, az qala, unudulan kəlmələri, xalq dilindən gələn söz və ifadələri elə ustalıqla, sərrast işlədir ki, heyran qalmamaq olmur. Prezidentin nitqindəki bu yüksək məziyyət – dilimizdəki söz və ifadələrin uğurlu istifadəsi, yerbəyer işlədilməsi – əslində dilçilərimiz üçün xüsusi tədqiqat mövzusu olduğu kimi, xalqımıza, əsasən də yeni nəsildən ötrü mötəbər nümunədir. 2025-ci il noyabrın 3-də Elmlər Akademiyasının yubileyində bu barədə söylədiyi fikirlərin ardınca həmin mövzuda konfrans keçirərək dilimizin saflığının qorunması ilə bağlı cənab Prezidentin narahatlıqlarını bölüşdük. Bu dəfə isə cənab Prezident mövzunun daha da dərinliklərinə vardı, hətta Ana dili məsələsinin ayrıca geniş bir müsahibə mövzusu olduğunu deyərək jurnalistlərlə gələcək söhbətin anonsunu da verdi.

Dil məsələsinə münasibət bildirərkən cənab Prezidentin söylədiyi bu fikirlər onun Ana dilinə sonsuz məhəbbətinin ifadəsi olmaqla yanaşı, həm də bu sahədəki narahatlıq doğuran cəhətlər, milli kimliyimizə, dövlətçiliyimizə qarşı gizli və aşkar təhdidlər haqqında təsirli xəbərdarlıqdır: "Dil dövlətçiliyin əsas atributlarından biridir, bəlkə də birincisidir... Dil milləti millət edir. Biz bütün dövrlər ərzində dilimizi qorumuşuq və bu gün danışdığımız Azərbaycan dili bizim ulu babalarımızın danışdığı Azərbaycan dilindən fərqlənmir.

...Bizim dilimiz zəngindir, sən istənilən ifadəni deyə bilərsən, istənilən şeiri yaza bilərsən. Çox zəngin, çox melodik və gözəldir...

Xarici kəlmələr dilimizi pozur, zənginləşdirmir və milli kimliyimizi də sarsıdır, damcı-damcı, yavaş-yavaş. Bəlkə də özümüz heç buna fikir vermirik, damcı-damcı sarsıdır. Dil əldən gedəndən sonra, yaxud da ki pozulandan sonra, ya da başqa dilə tamamilə uyğunlaşandan sonra onda milli kimlik də gedəcək, ondan sonra dövlətçilik də gedəcək, ondan sonra, Allah eləməsin, ölkəmiz də, necə deyərlər, böyük fəlakətlə üzləşə bilər...

Efir məkanında ən çox danışan jurnalistlərdir və onlardan da xahiş edirəm, xarici kəlmələrdən istifadə etməsinlər. Təbii ki, bizim ziyalılarımız, şairlərimiz, yazıçılarımız onların da sözünə böyük ehtiyac var, onlar da biganə qalmasınlar bu işə. Bunun çox dərin, necə deyərlər, layları var və dilimizi nə qədər çox qorusaq, nə qədər saf, təmiz saxlasaq, o qədər də millətimiz, necə deyərlər, saf olacaq və milli kimliyimiz həmişə bərqərar olacaq".

Bu fikirlərdə xalqımızın bağrından qopan narahatlıq dolu çağırışlar, müstəmləkə dövründə dilimizin saflığını fədakarlıqla qoruyan, "Dilim ölsə, mən də öləm!" hayqıran milli ruhlu şairlərimizin, yazıçılarımızın duyğuları əks olunub. Sovet dövrü üçün inanılmaz bir hadisə – Xalq şairi Xəlil Rzanın yabançı sözlər işlədən şəxsləri cüzi məbləğdə cərimələmək təşəbbüsü və bunun, hətta bir qədər zarafatyana olsa belə, insanların şüuruna, dünyagörüşünə, lüğət ehtiyatına təsir göstərməsi də yaxşı yadımdadır. Ana dilimizin qorunması indi daha ciddi şəkildə gündəmdədir və Prezident İlham Əliyev sözügedən məsələni olduqca ciddi tərzdə, həyəcanla vurğulayaraq hamımızı bu sahədə daha ayıq, həssas olmağa çağırır.

"Azərbaycanlıların yaşadıqları bəzi ölkələrdə Azərbaycan məktəbləri yoxdur. Bu, böyük ədalətsizlikdir və bu ədalətsizliyə son qoyulmalıdır..." – diplomatik məharətlə, ancaq həm də kifayət qədər anlaşıqlı ifadə olunan bu fikirlərin arxasından milli mövqedən, Azərbaycan sevgisindən və azərbaycançılıq idealından qaynaqlanan dərin siyasi-geopolitik mesajlar boy verir.

Vətən və torpaq anlayışları barədə suala cavabında da Prezident İlham Əliyev həm çox təsirli, həm də tutarlı fikirlər söylədi və bu da, zənnimcə, müsahibənin ən yaddaqalan məqamlarından oldu: "Vətən müharibəsi dövründə torpaq mənim üçün hər azad edilmiş kəndin timsalında, necə deyərlər, ortalığa çıxırdı və hər bir şəhidin şəhid olduğu yer torpaq idi mənim üçün.

Hər dəfə bayrağımız bir kəndə, şəhərə sancılanda, mənim üçün Azərbaycan məhz o torpaq idi. Nə deyim, noyabrın 8-dən sonra nəzarətdə olmayan torpaq mənim üçün Azərbaycan idi.

Amma mənim üçün torpaq o vaxt o idi, Azərbaycan o idi, Xankəndi idi, Xocalı idi. O da artıq azad olundu. İndi, necə deyərlər, torpaq deyəndə, sözün düzü, mən daha çox torpağın keyfiyyətinə baxıram, harada daha münbit torpaq var, harada yaxşı əkin aparmaq olar. Qarabağa gedəndə baxıram, görürəm, orada qara torpaqdır. Deyirəm, nə gözəl məhsuldar torpaqdır. Artıq o torpaq anlayışı, yəni o zədəli, yaralı torpaq anlayışı yoxdur".

Cənab Prezidentə xitabən sonda: "Sizə bugünkü görüşə görə təkcə müsahibədə iştirak edən həmkarlarımız adından deyil, bütün Azərbaycan mediası adından təşəkkürümüzü bildiririk" – deyən Mirşahinin duyğularına ürəkdən qoşulur, dövlətimizin başçısına bir daha dərin minnətdarlığımızı ifadə edirik.




**Azərbaycan və Ermənistan arasında münasibətlərin sülh mərhələsinə keçidinin institusional konturları, eləcə də normallaşma prosesinin növbəti fazası artıq real siyasi və hüquqi mexanizmlər üzərindən formalaşan proses kimi gündəmdədir. Bu kontekstdə vətəndaş cəmiyyətləri və beyin mərkəzləri xətti üzrə həyata keçirilən "Sülh körpüsü" təşəbbüsünün iştirakçılarından biri, Topçubaşov Mərkəzinin direktoru Rusif Hüseynovla hazırkı mərhələnin manеələri, imkanları və gözləntiləri barədə müsahibəni oxuculara təqdim edirik.**

# Sülhə təkan verən uğurlu təşəbbüs

## *Birbaşa dialoq – "Sülh körpüsü" formatı normallaşmaya üstün şərait yaradır*

**– Azərbaycan Prezidenti yerli televiziya kanallarına müsahibəsində bildirdi ki, 2025-ci ildə Ermənistan–Azərbaycan müharibəsinə siyasi müstəvidə nöqtə qoyulub və artıq bir neçə aydır regionda sülh rejimi formalaşıb. Sizcə, yeni mərhələdə "sülh şəraitində yaşamaq" anlayışı modelinin əsas institusional dayaqları nələrdən ibarətdir?**



– Yeni mərhələdə "sülh şəraitində yaşamaq" anlayışı real idarəetmə və təhlükəsizlik modeli kimi formalaşır. Bu modelin əsasını sərhədlər üzərində tam suveren nəzarət mexanizmlərinin qurulması, təhlükəsizliyin real güc üzərindən təmin edilməsi və risklərin qabaqlayıcı idarəetmə mexanizmləri ilə neytrallaşdırılması təşkil edir. Məhz təhlükəsizlik arxitekturasının sosial və institusional qatında paralel diplomatik platformalar formalaşdırılır. Ötən ilin noyabrından etibarən Azərbaycan və Ermənistan vətəndaş cəmiyyətləri arasında beynəlxalq praktikada "Track II" və ya "Track 1.5" adlandırılan dialoq mexanizmi işə salınıb. "2-ci Yol diplomatiyası" adlandırılan bu format hökumətlərarası rəsmi danışıqlar müstəvisindən kənarda, lakin dövlətlərin müəyyən etdiyi strateji çərçivə daxilində fəaliyyət göstərən qeyri-hökumət aktorlarının — analitik mərkəzlərin, akademik mühitin və QHT platformalarının — qarşılıqlı etimadın bərpası, risklərin yumşaldılması və normallaşma mühitinin sosial əsaslarının formalaşdırılması məqsədilə apardıqları strukturlaşdırılmış dialoq xəttidir. Bu xətt, faktiki olaraq, sülhün yalnız təhlükəsizlik yox, eyni zamanda, cəmiyyət səviyyəsində institusionallaşmasını təmin edən tamamlayıcı mexanizm kimi çıxış edir.

**– 2026-cı ildə bu dialoqun intensivliyinin artacağı gözlənilirmi və mövcud formatın institusional və məzmun baxımından dəyişməsi ehtimalı varmı?**

– "Sülh körpüsü" təşəbbüsünü bu il də davam etdirməyi planlaşdırırıq. Erməni nümayəndə heyətinin Bakıya son səfəri zamanı növbəti 5–6 ay üçün bir sıra ideyaların inkişaf etdirilməsi və onların konkret layihə formatında reallaşdırılması razılaşdırılıb, müvafiq plan hazırlanıb. Qeyd edilən son tarix Ermənistanda keçiriləcək parlament seçkilərinə qədərki vaxtı əhatə edir. Bu yanaşma anlaşılandır. Çünki Azərbaycan–Ermənistan normallaşmasının bundan sonrakı taleyi məhz həmin seçkilərin nəticələrindən birbaşa asılı olacaq. Çalışacağıq ki, bu təşəbbüsdə əvvəldən "5+5" formatında on nəfərin iştirakı dayanıqlı şəkil alsın. Eyni zamanda, mövzudan və kontekstdən asılı olaraq yeni ekspertlərin də prosesə cəlb edilməsi nəzərdə tutulur.

**– Görüşlərin ilk dəfə vasitəçi platforması olmadan birbaşa formatda keçirilməsi regionda sabitliyin hansı institusional təminatlarını formalaşdırır?**

– Azərbaycan və Ermənistan vətəndaş cəmiyyətləri, beyin mərkəzləri və ekspertlər arasında təmaslar 1990-cı, 2000-ci illərdə də mövcud olub. Qarşılıqlı səfərlər əvvəlki dövrlərdə də həyata keçirilib. Lakin "Sülh körpüsü" təşəbbüsü adlandırılan son proses keyfiyyət baxımından əvvəlkilərdən fərqlənir. Çünki əvvəlki dövrlərdə indiki mərhələdə olduğu kimi, ümumi normallaşma və sülh üçün münbit mühit mövcud deyildi. Əvvəlki təmaslar və qarşılıqlı səfərlər əsasən üçüncü tərəflərin təşəbbüsü ilə baş tuturdu. Adətən Qərb ölkələri, müxtəlif donor təşkilatları və beynəlxalq qurumlar bu proseslərin təşkilində əsas rol oynayır, görüşlər onların fasilitasiyası çərçivəsində keçirilirdi. Həmin görüşlərin və təmasların əhəmiyyətini azaltmaq istəmirəm. Onlar da bu gün gəlib çatdığımız mərhələyə müəyyən dərəcədə töhfə verib. Amma burada bu faktı danmaq olmaz ki, əvvəlki dövrlərdə bu cür təmaslara və qarşılıqlı səfərlərə hökumətlərin verdiyi dəstək indiki səviyyədə deyildi.

**– Rusif bəy, Ermənistanda daxili siyasi konfiqurasiya parlament seçkilərindən sonra sülh müqaviləsinin icrasına hansı təsiri göstərə bilər? Dialoq risk altına düşə bilərmi?**

– Bəli, seçkinin nəticələri bundan sonrakı mərhələdə sülh prosesinin hansı səviyyədə davam edəcəyinə birbaşa təsir göstərəcək. Bu proses, faktiki olaraq Azərbaycan üçün qeyri-rəsmi referendum xarakteri daşıyacaq və biz erməni cəmiyyətinin sülhə real mandat verib-verməcəyini görəcəyik. Dövlət başçısı dəfələrlə vurğulayıb ki, Azərbaycan Ermənistan hakimiyyəti ilə deyil, məhz Ermənistan xalqı ilə sülh bağlamaqda maraqlıdır.

Seçkilərlə bağlı müəyyən paradoks yaranır. Azərbaycan tərəfi haqlı olaraq seçkilərin nəticələrinə ehtiyatla yanaşır. Digər tərəfdən isə Ermənistanın hazırkı hakimiyyəti sülh prosesində əldə olunan istənilən irəliləyişi və konkret nəticələri seçkiyə yönəlik kampaniyada istifadə etməyə, bununla da öz siyasi mövqelərini gücləndirməyə çalışır. Bu baxımdan bizi kifayət qədər maraqlı dövr gözləyir. Seçkilərdən sonra Ermənistanda hansı proseslərin inkişaf edəcəyini görəcəyik.

**– Azərbaycanın Ermənistan üçün nəzərdə tutulan yüklərin tranzitinə yaşıl işıq yandırmasından sonra formalaşan yeni reallıq hansı hüquqi arxitektura ilə rəsmiləşdirilməlidir?**

– Azərbaycan Ermənistan üçün nəzərdə tutulan yüklərin daşınması ilə bağlı uzun illər mövcud olmuş embarqonu aradan qaldırdı. Nəticədə Qazaxıstan və Rusiyadan Ermənistana taxıl Azərbaycan ərazisindən keçərək daşındı. Bəli, Azərbaycan və Ermənistan arasında keçmiş münaqişə şəraiti fonunda bu tip tranziti tənzimləyən ikitərəfli hüquqi mexanizm mövcud deyil. Ola bilsin ki, rəsmi Bakı bu məsələyə — söhbət taxılın Azərbaycan ərazisindən daşınmasından gedir — fövqəladə və unikal hal kimi yanaşıb və prosesi sadələşdirib. Bununla belə, biz yenə də bu addım üçün konkret hüquqi baza formalaşdırmağa ehtiyac duyulduğunu görürük. Eyni məsələ Azərbaycan və Ermənistan vətəndaşlarının qarşılıqlı səfərlərinə də aiddir. Rəsmi olaraq iki ölkə arasında viza rejimi yoxdur. Amma mövcud reallıqlar fonunda vətəndaşların qarşılıqlı səfərləri hazırda asan deyil. Sülh müqaviləsi imzalandıqdan sonra ticarət, qarşılıqlı səfərlər, tranzit və digər məsələlər üzrə hüquqi mexanizmlərin yaradılmasına ehtiyac yaranacaq.



İstənilən halda, addım-addım iki ölkə arasında təmasların hüquqi bazası formalaşdırılmalıdır ki, qeyd olunan məsələlər gələcəkdə asanlaşsın. MDB-nin hüquqi çərçivəsindən və ya digər beynəlxalq qurumların sənədlərindən istifadə etmək mümkündür. Lakin onların böyük hissəsi indiki reallıqlara cavab vermir. Çünki əksəriyyəti 20–30 il əvvəl qəbul edilmiş sənədlərdir və hazırkı normallaşma mərhələsinə uyğun gəlmir.

Son olaraq qeyd edim ki, bu reallığın üzərində dayanan əsas siyasi dayaq Prezident İlham Əliyevin formalaşdırdığı təhlükəsizlik və normallaşma fəlsəfəsidir. Dövlət başçısının yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində səsləndirdiyi tezislər göstərir ki, Azərbaycan sülhü niyyət bəyanatları üzərindən deyil, real güc, hüquqi mexanizmlər və institusional məsuliyyət üzərindən dizayn edən yeni regional nizam qurur. Bu xətt sülhü riskli kompromislərin predmeti yox, idarəolunan təhlükəsizlik modeli səviyyəsinə qaldırır və prosesin trayektoriyasını tərəfdaşların siyasi konfiqurasiyasından asılı olmayan dayanıqlı arxitekturaya çevirir. Məhz bu iradə və ardıcıl strategiya Cənubi Qafqazda yaranan yeni mərhələnin mərkəzi sütununu təşkil edir və Azərbaycanın sülhü qoruyan deyil, onu müəyyən edən əsas aktora çevrildiyini təsdiqləyir.

***Tacir SADIQOV***
***XQ***

*“Şəhərsalma və Memarlıq İli” – 2026*

**Son illər Bakının müasir şəhərsalma prinsipləri əsasında inkişaf etdirilməsi, burada rahat yaşayış mühitinin yaradılması, sosial və mədəni həyatın tərəqqisini gerçəkləşdirən məkanların formalaşdırılması nəticəsində paytaxtın siması əsaslı şəkildə dəyişib, beynəlxalq miqyasda daha geniş tanınıb. Şəhərdə kommunal xidmətlərin və nəqliyyat şəbəkəsinin getdikcə yaxşılaşdırılması isə əhalinin rahatlığı ilə bərabər, həm də iqtisadi dinamizmi artırıb.**

# Azərbaycan paytaxtı yeniləşir, gözəlləşir

## *Müasir şəhərsalma, dayanıqlı inkişaf və həyat keyfiyyəti arasında strateji tarazlıq Bakıya yeni sima gətirir*



Eyni zamanda, paytaxt əhalisinin sosial ehtiyaclarının reallaşdırılması da xüsusi önəm daşıyıb. Yaşayış massivlərinin genişləndirilməsi, yeni məktəb və xəstəxanaların tikintisi, sosial xidmətlərin əlçatanlığının artırılması da bunun bariz ifadəsi kimi diqqət çəkib.

Azərbaycan Prezidenti İlham Əliyevin yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsi bu inkişafın əsasında dayanan strateji yanaşmanı, mövcud problemləri və qarşıdakı mərhələnin əsas hədəflərini sistemli şəkildə ortaya qoyur. Dövlətimizin başçısının vurğuladığı kimi, Bakının inkişafı yalnız yeni binaların tikintisi ilə ölçülmür. Əsas məqsəd insan amilinə söykənən şəhər modelinin qurulmasıdır ki, burada rahat nəqliyyat, keyfiyyətli kommunal xidmətlər, geniş ictimai məkanlar, sosial infrastruktur və ekoloji tarazlıq bir-birini tamamlayan elementlər kimi çıxış edir.

Son illərdə Bakıda yaşayış massivlərinin genişlənməsi, yeni məktəb və xəstəxanaların tikilməsi, sosial xidmətlərin əlçatanlığının artırılması əhalinin artan tələbatına cavab verir. Bu isə paytaxtın təkcə inzibati deyil, həm də sosial-iqtisadi mərkəz kimi rolunu gücləndirir. Lakin belə bir şəraitə baxmayaraq, müəyyən çətinliklər narahatlıq doğurur. Prezident İlham Əliyevin müsahibəsində bu baxımdan xüsusi diqqət çəkən əsas məsələlərdən biri su-kanalizasiya sistemləri ilə bağlıdır.

Qeyd edək ki, Bakı, Sumqayıt və Xırdalanı, bütövlükdə, Abşeron yarımadasını əhatə edəcək bu sahə ilə bağlı irimiqyaslı proqramın hazırlanması şəhər təsərrüfatında yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilir. Güclü yağışlar zamanı yaranan problemlər də göstərir ki, ötən illərdə həyata keçirilən layihələrə baxmayaraq, mövcud infrastruktur getdikcə güclənən urbanizasiya prosesinə tam cavab vermir. Buna görə də içməli su təchizatı ilə yanaşı, respublikada ilk dəfə qurulacaq duzsuzlaşdırma qurğusu da strateji əhəmiyyət daşıyır. Bu addım paytaxtla bərabər, bütövlükdə, ölkənin su təhlükəsizliyi baxımından da mühüm önəm daşıyır.

Hazırda Bakının ən ciddi problemlərindən biri də yol hərəkəti və tıxaclarla bağlıdır. Prezident İlham Əliyevin müsahibədə açıqladığı rəqəmlər şəhərdə bu sahədə görülən işlərin miqyasını aydın göstərir: “Hamımız yaxşı bilirik ki, yol hərəkəti bu gün, həqiqətən, ciddi problemdir. Əvvəlki illərdə biz çox iş görmüşük, 50 tunel, 50-yə yaxın körpü inşa etmişik, yolları genişləndirmişik. Təkcə Bakıda 2500 kilometr yol salınmışdır. Təsəvvür edin, şəhərin daxilində 2500 kilometr yol...

Vaxtilə Bakı şəhərinə gedən yolun necə olduğunu çox yaxşı xatırlayırıq. O zaman cəmi bir yol var idi. Bu sahədə görüləcək işlər hələ çoxdur. Biz artıq Bakıda əlavə 10 metro stansiyasının tikintisini nəzərdə tutan proqram qəbul etmişik. Mənim səlahiyyət müddətim ərzində 7 stansiya tikilib, lakin bu, kifayət deyil. Buna görə də daha 10 metro stansiyası, eləcə də yeni körpülər və tunellər tikiləcək. Bütün bunlar üçün vəsait cəlb etməliyik, çünki bu, bizə xeyli maliyyə qənaəti edəcək və həmin vəsaiti Qarabağ üçün istifadə edə biləcəyik”.

Dövlətimizin başçısının vurğuladığı rəqəmlərdən də aydın olur ki, əhalinin və avtomobillərin sayının sürətlə artması mövcud infrastrukturun artıq kifayət etmədiyini göstərir. Hər il ölkəyə on minlərlə yeni avtomobilin gətirilməsi, yerli avtomobil istehsalının getdikcə yüksəlməsi nəqliyyat yükünü daha da artırır. Bu isə problemin aradan qaldırılmasını təkcə yeni yollar salmaqla deyil, həm də kompleks yanaşma ilə gerçəkləşdirməyi zəruri edir.

Prezident İlham Əliyevin müsahibədə açıqladığı daha 10 metro stansiyasının tikintisi planı Bakının nəqliyyat xəritəsində keyfiyyətcə yeni mərhələdir. Son 20 ildə 7 metro stansiyasının istifadəyə verilməsi isə artıq şəhərin müəyyən bir dövrdə tıxaclardan sığortalamasını hədəfləyir. Yeni stansiyaların, əlavə depoların yaradılması və mövcud stansiyalarda aparılan optimallaşma layihələri ilə ictimai nəqliyyatın cəlbediciliyinin artırılması da qarşıya mühüm vəzifə kimi qoyulur.

Yeri gəlmişkən, ölkə rəhbəri müsahibəsində nəqliyyat layihələrinin reallaşdırılması zamanı Bakının tarixi memarlıq ansamblının toxunulmaz saxlanılmasının zəruriliyini, tarixi abidələrin qorunmasının dövlət siyasətinin dəyişməz istiqaməti olduğunu diqqətə çatdırıb. Dövlətimizin başçısı, eyni zamanda, yol-nəqliyyat sisteminin idarə edilməsi və mikromobilliyin, yəni ictimai nəqliyyata üstünlük verilməsinin bir çıxış yolu ola biləcəyini də xatırladıb.

Prezident İlham Əliyev daha sonra bu istiqamət üzrə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin beynəlxalq mütəxəssisləri cəlb etməklə səmərəli fəaliyyət göstərdiyini və artıq Bakının yeni yol infrastrukturunun xəritəsinin təsdiqləndiyini bildirib. Ölkə rəhbəri müsahibədə, həmçinin vurğulayıb: “Mikromobillik, piyadalar üçün daha geniş məkanın verilməsi və bəzi küçələrin ancaq piyadalar üçün təşkili prosesi davam edir və yaxın aylarda ictimaiyyət bunu görəcək. Eyni zamanda, Bakıda yeni ictimai yerlərin yaradılması çox geniş vüsət alıb. Yeni parklar, ictimai zonalar, istirahət zonaları yaradıldıqda mütləq onun nəqliyyat infrastrukturu da paralel olaraq öz həllini tapır. Misal üçün, biz bunu Mərkəzi Parkın timsalında görə bilərik. Vaxtilə çox ensiz, dar küçələr idi. İndi çox geniş küçələr və faktiki olaraq, bu istiqamətdə, yəni Heydər Əliyev Sarayından da yuxarı istiqamətə getmək üçün çox geniş imkanlar yaradılıb”.

Azərbaycan lideri müsahibədə “Sovetski” adlandırılan ərazinin köçürülməsi prosesinin davam etdiyini və burada da istirahət məkanlarının, parkların salınmasının, süni göllər yaradılmasının və nəqliyyat sisteminin qurulmasının diqqət mərkəzində saxlanılmasını da tövsiyə edib. Eyni zamanda, velosiped zolaqlarının yaradılmasına başlanıldığını deyən ölkə rəhbəri bəzilərinin bundan narazı qaldığını, amma inkişaf etmiş ölkələrin təcrübəsində bunun da bir çıxış yolu olduğunu diqqətə çatdırıb: “Çünki bu, həm sağlamlıqdır, həm də ki, tıxaclara qarşı önəmli bir vasitə olacaq. Təbii olaraq ictimai nəqliyyat istədiyimiz səviyyədə olan zaman, əlbəttə, ictimai nəqliyyatdan istifadə etmək ən yaxşı variant ola bilər. Biz bunu etməyə çalışırıq. Yenə də deyirəm, hər il Bakıya yüzlərlə yeni avtobus gətirilir. Hazırda havanı çirkləndirməyən elektrobuslar istehsal olunur. Həm dövlət, həm də özəl şirkətlər tərəfindən hər il yüzlərlə yeni avtobus gətiriləcək. Biz Bakının tıxac problemini belə həll edə bilərik”.

Dövlətimizin başçısı müsahibədə, həmçinin Bakı-Sumqayıt dəmir yolunun səmərəli fəaliyyətinin paytaxtın nəqliyyat yükünün azaldılmasında mühüm rol oynadığını qeyd edərək bu xəttin çəkilməsi ilə şəhərin nəqliyyat vəziyyətinin nizama salındığını, dairələrin ləğvinin və yolötürücülərin inşasının paytaxt daxilində hərəkətin daha axıcı olmasına şərait yaratdığını diqqətə çatdırıb. Bütün bunlarla yanaşı, sözügedən sahədə artıq mühüm proqramların qəbul edildiyini, vəsait ayrıldığını və konkret yol xəritəsinin hazırlandığını da vurğulayıb.

Prezident İlham Əliyevin müsahibəsində səsləndirdiyi prioritetlər – kommunal xidmətlərin modernləşdirilməsi, nəqliyyat sistemlərinin genişləndirilməsi, ictimai məkanların yaradılması və mikromobillik yalnız yerli inkişaf sənədlərində yer almır, eyni zamanda, dünya şəhərlərinin müasir planlaşdırma təcrübələri ilə paralel strategiyalar kimi çıxış edir. Beləliklə, Bakının inkişaf modeli qısa müddətli kosmetik dəyişikliklərə deyil, həm də uzunmüddətli, dayanıqlı və insan yönümlü şəhər konsepsiyasına əsaslanır. Bu yanaşma paytaxtı rahat yaşayış məkanı olmaqla bərabər, eyni zamanda, iqtisadi, mədəni və sosial baxımdan cəlbedici qlobal şəhərə çevirməyi hədəfləyir.

***Vaqif BAYRAMOV***
***XQ***

# Azad torpaqlara irimiqyaslı qayıdış

## *Qarabağ və Şərqi Zəngəzurun bərpasına 20 milyard manatdan çox vəsait ayrılıb*

**Prezident İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində Qarabağ və Şərqi Zəngəzurun bərpası haqqında danışıb. Dövlət başçısı, həmçinin Böyük Qayıdışa dair I Dövlət Proqramının icrasını qiymətləndirib. Bildirib ki, infrastruktur layihələri icra edildikcə, təbii ki, evlərin tikintisinə daha böyük vəsait ayrılacaq: “Amma hər şey ardıcıllıqla, Baş plan əsasında edilir. Biz həm tələsirik, həm də tələsməməliyik. Çünki bəzi hallarda tələskənliyə yol verərkən keyfiyyət uduzur...”.**




Qeyd edək ki, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış Azərbaycanın 2030-cu ilədək 5 Milli Prioritetindən biri kimi müəyyən olunub. Həmin prioritetlərə əsaslanan “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” yeni inkişaf mərhələsindəki hədəflərə çatmağa xidmət edən mühüm sənəddir. Sözügedən startegiyanın icrasını təmin etmək məqsədilə Prezident İlham Əliyev 16 noyabr 2022-ci il tarixində “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı” nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb.

44 günlük Vətən müharibəsində torpaqların azad edilməsi ilə Azərbaycanın tarixində yeni mərhələ başlayıb. Ölkənin ərazi bütövlüyü təmin olunduqdan sonra 30 ilə yaxın işğal altında qalmış ərazilərin yenidən dirçəldilməsi məqsədilə bərpa və quruculuq işlərinə start verilib. Qısa zaman kəsiyində həmin yerlərdə minalardan təmizləmə işləri aparılıb, müasir yaşayış və infrastruktur obyektləri inşa edilib, iqtisadi fəaliyyət və nəqliyyat-kommunikasiya xətləri bərpa olunub. Bundan əlavə, ölkənin qərb rayonlarını Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək Zəngəzur dəhlizinin Azərbaycan hissəsində işlər tamamlanmaq üzrədir.

Xatırladaq ki, 2025-ci il də daxil olmaqla Azərbaycanın dövlət büdcəsindən Qarabağ və Şərqi Zəngəzurun bərpasına 23 milyard manata yaxın vəsait ayrılıb. 2026-cı ildə isə dövlət büdcəsi xərclərinin 3,5 milyard manatı və yaxud 8,4 faizi işğaldan azad olunuş ərazilərin yenidən qurulması və bərpası ilə bağlı xərclərin payına düşəcək.

Yeri gəlmişkən, işğaldan azad edilmiş ərazilərin dirçəldilməsi prosesində enerji təminatı strateji əhəmiyyət daşıyır. Son illər ərzində bu bölgələrin enerji şəbəkəsi mərhələli şəkildə ölkənin mərkəzi enerji infrastrukturu ilə inteqrasiya olunub. Nəticədə, vahid və çevik idarə olunan dairəvi enerji sistemi formalaşdırılıb. Artıq enerji axını yalnız mərkəzdən regionlara deyil, eyni zamanda, azad edilmiş ərazilərdən ümumi enerji sisteminə yönəlir ki, bu da enerji balansının daha səmərəli tənzimlənməsinə imkan yaradır.

Beş il ərzində ümumi gücü 307 meqavat olan su elektrik stansiyalarının istifadəyə verilməsi bu sistemin dayanıqlığını daha da artırıb. Azad edilmiş ərazilərdə hazırkı istehlak həcmi nisbətən aşağı olduğundan yaradılan imkanlar ölkə üzrə enerji ehtiyaclarının optimal şəkildə bölüşdürülməsinə şərait yaradır. Bu yanaşma həm enerji təhlükəsizliyini möhkəmləndirir, həm də uzunmüddətli perspektivdə iqtisadi səmərəliliyi təmin edir.

Eyni zamanda, doğma torpaqlara qayıdan əhalinin fasiləsiz və keyfiyyətli su təminatı ən prioritet məsələlərdən biri kimi müəyyənləşdirilib. Bu istiqamətdə həyata keçirilən layihələr böyük maliyyə resursları və geniş işçi qüvvəsi tələb edir. Hazırda bir sıra mühüm su təsərrüfatı obyektləri ya əsaslı şəkildə yenidən qurulub, ya da sıfırdan inşa edilib. Belə ki, Zabuxçay su anbarı tamamilə yeni formada tikilib, Sərsəng və Suqovuşan su anbarlarında əsaslı bərpa işləri aparılıb. Bununla yanaşı, Kondələnçayda üç su anbarı, eləcə də Xaçınçay üzərində yerləşən obyektlər yenidən istifadəyə verilib. Qeyd olunan layihələr əhalinin su təminatını yaxşılaşdırmaqla yanaşı, eyni zamanda, kənd təsərrüfatının inkişafına, ekoloji tarazlığın qorunmasına və bölgənin ümumi sosial-iqtisadi canlanmasına mühüm töhfə verir. Bütün bu işlər dövlət tərəfindən ayrılan maliyyə vəsaitləri hesabına həyata keçirilir və Böyük Qayıdış strategiyasının uğurla icrasının bariz nümunəsidir.

Bundan başqa, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yol infrastrukturunun bərpası və yenidən qurulması bölgənin sosial-iqtisadi inkişafında başlıca istiqamətlərdən biridir. İşğaldan azad edilmiş ərazilərdə müasir standartlara cavab verən avtomobil yollarının salınması əhalinin təhlükəsiz hərəkətini təmin edir, eləcə də regionun ölkənin nəqliyyat şəbəkəsinə inteqrasiyasını sürətləndirir. Son illər ərzində bu ərazilərdə beynəlxalq və respublika əhəmiyyətli magistral yollar, şəhərlərarası və kəndlərarası avtomobil yolları inşa edilib və əsaslı şəkildə yenidən qurulub. Xüsusilə Füzuli–Şuşa, Zəfər yolu, Bərdə–Ağdam, Horadiz–Ağbənd, Kəlbəcər–Laçın və digər strateji əhəmiyyətli avtomobil yolları bölgənin nəqliyyat xəritəsində mühüm yer tutur.

Regionda nəqliyyat infrastrukturunun inkişafında xüsusi əhəmiyyət daşıyan layihələrdən Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksi xüsusi əhəmiyyət daşıyır. Hazırda bölgədə bir sıra strateji əhəmiyyətli dəmir yolu xətlərinin tikintisi və bərpası həyata keçirilir. Xüsusilə Horadiz–Ağbənd dəmir yolu xətti Şərqi Zəngəzurdan keçməklə Naxçıvan Muxtar Respublikası ilə dəmir yolu əlaqəsinin bərpasını nəzərdə tutur. Bu xətt Zəngəzur dəhlizinin əsas tərkib hissəsi kimi Azərbaycanın tranzit imkanlarını əhəmiyyətli dərəcədə artırır.

Sonda qeyd edək ki, Böyük Qayıdış proqramı çərçivəsində əhalinin doğma yurdlarına köçürülməsi 2025-ci il ərzində mərhələli və planlı şəkildə həyata keçirilib. İndiyədək 7 şəhər, 22 kənd və 3 qəsəbə olmaqla, ümumilikdə, 32 yaşayış məntəqəsinə vətəndaşların köçü təmin olunub. Köçürülmə prosesi Cəbrayıl, Şuşa, Xocalı, Laçın, Füzuli, Kəlbəcər və Ağdam şəhərlərini, Cəbrayıl rayonunun Horovlu kəndini, Ağdam rayonunun Sarıcalı, Kəngərli və Xıdırlı kəndlərini əhatə edib. Bununla yanaşı, Xocalı rayonunun Ballıca, Xanyurdu, Təzəbinə, Seyidbəyli, Badara, Şuşakənd və Daşbulaq kəndlərinə, Ağdərə rayonunun isə Talış, Həsənriz, Suqovuşan, Kolatağ və Vəngli kəndlərinə əhalinin qayıdışı təmin edilib.

Həmçinin Laçın rayonunun Zabux, Sus və Bəylik kəndlərinə, Xocavənd rayonunun Sos kəndinə, Qırmızı Bazar və Hadrut qəsəbələrinə, eləcə də Zəngilan rayonunun Ağalı və Məmmədbəyli kəndlərinə köçürülmə həyata keçirilib. Paralel olaraq, Böyük Qayıdış prosesi Xankəndi şəhərinin Kərkicahan qəsəbəsini də əhatə edib. Artıq ümumilikdə, 70 min insan orada yaşayır və müxtəlif peşələrdə çalışır. Cari ilin sonuna qədər isə bu rəqəm 100 mini ötəcək.

***Musa BAĞIRLI***
***XQ***



# “Murovdağ” Misirdən ABŞ-a səmt götürəcək

**“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin (ASCO) “handysize” tipli “Murovdağ” gəmisi Türkiyənin “Özata” tərsanəsində yeniləşdirilib. Təmir işləri RINA Təsnifat Cəmiyyətinin nəzarəti altında yüksək peşəkarlıqla həyata keçirilib.**

ASCO-dan verilən məlumata görə, proses ərzində əsas diqqət mexaniki və texniki sistemlərin etibarlılığına yönəldilib. Baş mühərriklərin əsaslı təmirini himayəçi mexanikin iştirakı ilə istehsalçının təsdiqlədiyi servis şirkəti yerinə yetirib. Üç ədəd köməkçi mühərrikin təmiri də gəmi heyəti və istehsalçı şirkətin mühəndisləri ilə birgə icra edilib. Maşın şöbəsində boru xətlərinin qalınlığı lazer ölçmələri ilə yoxlanılıb, dəyişdirilməsi zəruri hesab olunan borular yeniləri ilə əvəzlənib. Həmçinin elektrik panelləri və avadanlıqlar tam testdən keçirilib.

Təmir zamanı ətraf mühitin mühafizəsinə də xüsusi diqqət yetrilib. Balast Sularının İdarəetmə Sistemi üzrə nəzərdə tutulan 5 illik təmir planı yerinə yetirilib. Sistem ABŞ sularında balast əməliyyatlarının aparılması üçün modifikasiya edilib. Bununla da, “Murovdağ” gəmisi dünya üzrə bütün sularda balast əməliyyatlarını məhdudiyyətsiz həyata keçirmək imkanına malik olub.

Beynəlxalq konvensiyaların tələblərinə uyğun olaraq, yükqaldırma qurğuları müvafiq testlərdən keçirilib, istehsalçı tərəfindən bütün sistemlərin tam işlək vəziyyətdə olduğu rəsmi şəkildə təsdiqlənib. Naviqasiya cihazları və avadanlıqları yoxlanılıb, zəruri hesab olunan cihazlar üzrə istehsalçı tərəfindən müvafiq xidmət aktları təqdim edilib.

Eyni zamanda, gəminin göyərtəsində və anbar sahələrində boyama işləri aparılıb, sualtı hissə təmizlənərək xüsusi mühafizəedici boya ilə örtülüb. Emissiyalara nəzarət məqsədilə quraşdırılmış EPL sisteminin tam funksional vəziyyətdə olduğu təsdiqlənib. Əsaslı təmir nəticəsində “Murovdağ” gəmisi yenilənərək daha təhlükəsiz və beynəlxalq tələblərə tam cavab verən vəziyyətdə istismara qaytarılıb. Təmirdən sonra gəminin ilk səfəri Misirdən ABŞ-a planlaşdırılır.

Qeyd edək ki, “Murovdağ” gəmisi 38 min ton yükgötürmə imkanına malikdir. Uzunluğu 180, eni 30, bortunun hündürlüyü 15, suya oturumu 10,47 metr olan gəminin maksimum sürəti 15,7 uzeldir. Optimal suya oturumu maksimum yük götürməklə onun bir çox dayaz limanlara belə rahatlıqla daxil olmasına şərait yaradır.

***XQ***

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Omanda

## Vəliəhd Sayyid Theyazin bin Haitham Al Saidlə dialoq



**Leyla Əliyevanın Omana səfəri davam edir.**

Omana səfəri çərçivəsində Leyla Əliyeva Oman Sultanlığının Vəliəhdi, mədəniyyət, idman və gənclər naziri Sayyid Theyazin bin Haitham Al Saidlə görüşüb.

Leyla Əliyeva Azərbaycanda mədəniyyətin və tarixi irsin qorunması, təbliği, eləcə də gənclər və idman siyasəti ilə bağlı dövlət tərəfindən həyata keçirilən ardıcıl tədbirlərdən danışıb. Oman Sultanlığının Vəliəhdi Azərbaycan ilə əməkdaşlığın inkişafında maraqlı olduqlarını bildirib.

Görüşdə Azərbaycan ilə Oman arasında dostluq və əməkdaşlıq münasibətlərinin yüksək səviyyəsindən məmnunluq bildirilib, münasibətlərimizin gələcəkdə daha da genişlənəcəyinə əminlik ifadə edilib.

***XQ***

## Sultan Qabus Böyük Məscidini ziyarət

**Maskata səfəri çərçivəsində Leyla Əliyeva Sultan Qabus Böyük Məscidini də ziyarət edib.**

Mərhum Sultan Qabus bin Səidin təşəbbüsü ilə inşa edilən və 2001-ci ildə açılan məscid ölkənin ən möhtəşəm dini-memarlıq abidələrindən biridir. Təxminən 20 min nəfərin ibadət edə bildiyi məscid Maskatın memarlıq rəmzinə çevrilib.

***XQ***







## Kiçik və Orta Müəssisələrin İnkişafı Qurumunda görüş





**Leyla Əliyeva Oman Sultanlığının Kiçik və Orta Müəssisələrin İnkişafı Qurumunun sədri Hayma Al Zari ilə də görüşüb.**

Görüşdə Azərbaycan ilə Oman arasında kiçik və orta sahibkarlığın inkişafı, qadınların iqtisadi fəallığının artırılması, gənclərin biznes təşəbbüslərinin dəstəklənməsi və innovasiyayönümlü layihələrin təşviqi məsələləri müzakirə olunub.

Leyla Əliyeva Azərbaycanda qeyri-neft sektorunun, o cümlədən sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən dövlət proqramlarından və ictimai təşəbbüslərdən danışıb.

Hayma Al Zari Omanın Azərbaycanla əməkdaşlığı genişləndirməkdə maraqlı olduğunu deyib.

Söhbət zamanı biznes nümayəndələri arasında birbaşa əlaqələrin qurulması və gələcəkdə konkret əməkdaşlıq mexanizmlərinin formalaşdırılması barədə razılıq əldə olunub.

***XQ***

## Turizmin İnkişafı Şirkətinin layihələri ilə tanışlıq



**Leyla Əliyeva Maskat şəhərində Omanın Turizmin İnkişafı Şirkətində ("OMRAN" - "Oman Tourism Development Company") bu qurum tərəfindən həyata keçirilən layihələrlə tanış olub.**

2005-ci ildə yaradılmış bu şirkət Sultanlığın əsas turizm inkişaf şirkətlərindən biridir və ölkənin turizm imkanlarını dünya səviyyəsində tanıtmaq, onun iqtisadiyyatını şaxələndirmək məqsədi daşıyır.

***XQ***





# Qərbi Azərbaycanda kütləvi vandalizm və etnik təmizləmə

## *Erməni millətçilərinin monoetnik dövlət yaratmaq məqsədi Azərbaycan xalqının tarixi-mədəni irsinin məhv edilməsi ilə müşayiət olunub*

**Ermənistanın uzun illər ərzində Azərbaycan xalqına məxsus tarixi və mədəni irsi hədəfə alan fəaliyyəti Cənubi Qafqazın etnik-mədəni coğrafiyasında ən radikal dəyişikliklərdən birinə səbəb olmuş, tarixən çoxmillətli olan bu məkanın mədəni simasını qəsdən dəyişdirərək monoetnik vəziyyətə gətirmişdir. Bu proses təsadüfi deyil, ardıcıl şəkildə həyata keçirilmiş siyasi strategiyanın nəticəsi kimi formalaşmışdır. Bu barədə Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri Əziz Ələkbərlinin XQ-yə müsahibəsini sizə təqdim edirik.**



**– Ermənilər Qərbi Azərbaycan ərazisində etnik təmizləmə aparmış, monoetnik dövlət qurmuş və Azərbaycan xalqına məxsus tarixi-mədəni irsi sistemli şəkildə məhv etmişlər. Xahiş edirəm, dağıdılmış qəbiristanlıqlar, yox olmuş tarixi abidələrimiz barədə məlumat verərdiniz.**

– Mən öncə bu "uzun illər" ifadəsinə bir qədər dəqiqlik gətirmək istəyirəm. Yadınızdadırsa, bir müddət əvvəl Ermənistanın keçmiş prezidenti Levon Ter-Petrosyanın 1993-cü il iyulun 23-24-də "Yerkrapa" könüllülər birliyinin toplantısında çıxışının videoyazısı yayılmışdı. Ermənistanın birinci prezidenti həmin çıxışında bildirirdi ki, "Ermənistan və Dağlıq Qarabağ erməni xalqının 600 ildən bəri həll edə bilmədiyi bir problemi həll etdi. Ermənistan və Dağlıq Qarabağ yad millətlərdən tamamilə təmizləndi. Təkrar edirəm, bu, 600 illik problem idi. Bunun əhəmiyyətini erməni xalqı bundan sonra ən azı 600 il hiss edəcək".



Bilirsinizmi, Ter-Petrosyan "600 il" deyəndə nəyi nəzərdə tuturdu? 1431-ci ildə İrəvan çuxurundakı Üçkilsə (indiki Eçmiədzin) adlanan ərazinin bir hissəsinin Maku vilayətindən olan Qriqor adlı bir erməninin pulla satın almasını və 1441-ci ildə erməni dini kafedrasının Kilikiyanın Sis şəhərindən bu əraziyə köçürülməsini. Levon Ter-Petrosyan bununla etiraf edir ki, Qərbi Azərbaycan ərazisində həmin tarixdən görünməyə başlayan ermənilər elə o vaxtdan yerli Azərbaycan xalqına – türk-müsəlman əhaliyə qarşı etnik təmizləmə siyasətinə rəvac veriblər. Bu gün Ermənistanda və erməni xalqında dərindən kök salmış irqçiliyin, xalqımıza qarşı nifrətin, işğalçılıq siyasətinin kökünü məhz burada axtarmaq lazımdır.

Ter-Petrosyan həmin çıxışında deyirdi: "Təsəvvür edin ki, əgər bu gün Ermənistanda 1988-ci ildə olduğu kimi, 180 min yad millətin (oxu: azərbaycanlıların – Ə.Ə.) nümayəndəsi olsaydı, bu gün bizim dövlətimiz olmazdı. Biz Zəngəzuru, şimal-şərq rayonlarımızı, Sevanın sahillərini qorumaq iqtidarında olmazdıq. Hətta burada bir neçə muxtariyyət yaranardı. Unutmayın ki, üç rayonda azərbaycanlılar çoxluq təşkil edirdi – Vardenis, Masis və Amasiya. Zəngəzurda onların sayı həddindən artıq çox idi. İndi bu problem həll edilib".

Ermənizmin, erməniçiliyin gerçək sifəti budur! Ermənistanın həmin ərazidə Azərbaycan xalqına məxsus tarixi və mədəni irsi hədəfə alması məhz 600 il əvvəldən başlayır. Məqsəd bu coğrafiyaya tarixən heç bir aidiyyəti olmayan ermənilərin bu ərazilərin tarixi sakinləri olması uydurmasını əsaslandırmaq, Azərbaycandan, Türkiyədən, Gürcüstandan ərazilər qopararaq tədricən bütün Cənubi Qafqazı "Böyük Ermənistan"a çevirmək, sonra da onun hüdudlarını Şimali Qafqaz, İran və digər ölkələrin əraziləri hesabına genişləndirmək. Azərbaycanın tarixi torpaqları olan Qərbi Azərbaycanı – indiki Ermənistanı monoetnik dövlətə çevirmək də məhz bu bədnam siyasətin tərkib hissəsi idi. Əlbəttə ki, bu proses ardıcıl şəkildə həyata keçirilmiş siyasi strategiyanın nəticəsidir. Amma iflasa məhkumdur! Çünki tarixi təhrif etmək olar, amma onu pozub, təzədən yazmaq olmaz. Tarix bu gün deyil, dünəndir və bir dəfə yaşanır.

Təəssüf ki, ermənilər bunu anlamaq istəmirlər. Təsəvvür edin, yüzillər ərzində abidələrimizi dağıdıblar, toponimlərimizi erməniləşdiriblər, qəbiristanlıqlarımızı yer üzündən siliblər, nəticədə özlərini çıxılmaz bir vəziyyətə salıblar. Yüzlərlə, minlərlə mənbələr var, onlar hamısı o abidələri ilkin vəziyyətində, o toponimləri ilkin adında qeydə alıb, saxlayıb. Və biz texnologiyanın indiki imkanları ilə onların hamısının koordinatlarını müəyyənləşdirir, ilkin halını bərpa edir və erməniləri sual qarşısında qoyuruq: hanı onlar?

Təsəvvür edin, bu yaxınlarda alim dostum Səbuhi Hüseynovla birgə indiki Ermənistan ərazisindəki qəbiristanlıqlarımızın monitorinqini başa çatdırdıq, ilkin olaraq 37 il əvvəl – sonuncu deportasiya zamanı tərk etmək məcburiyyətində qaldığımız kəndlərimizin 201 müsəlman qəbiristanlığının materiallarını çap etdik. Bu tədqiqat zamanı ABŞ-nin KORONA, Gambit və Heksagon kimi XX əsrin ikinci yarısına aid məxfilik qrifi götürülmüş hərbi kəşfiyyat peyklərinin arxiv təsvirlərini və müasir yüksək ayırdetmə qabiliyyətli peyk görüntülərini sistemli şəkildə təhlil etdik. Bu məqsədlə 712 birbaşa təsvir, ümumilikdə 2000-dən artıq görüntü tədqiqata cəlb edildi.

Bundan əlavə, tədqiqat çərçivəsində Ermənistan Respublikasının müasir ərazisini tam əhatə edən 1890-1991-ci illərə aid, müxtəlif miqyaslı 250-dən çox xəritəni sistemli şəkildə araşdırdıq. Həm də bu xəritələr əsasən Rusiya imperiyası və daha sonra Sovet İttifaqının Baş Qərargahı tərəfindən tərtib edilmiş, uzun müddət məxfi saxlanmış, bu gün isə Berlinin Humbolt Universiteti, İndiana Universiteti, ABŞ-ın Milli Konqres Kitabxanası və Rusiya Coğrafiya Cəmiyyəti kimi nüfuzlu elmi və arxiv mərkəzlərində qorunub saxlanılan xəritələr idi.

Təəssüf ki, mənzərə çox acınacaqlı oldu: 12 qəbiristanlıq üzərindən asfalt yollar çəkildiyini, 16 qəbiristanlıq üzərində yaşayış evləri tikildiyini, 56 qəbiristanlığın ərazisinin əkin sahəsinə çevrildiyini, 67 qəbiristanlıq üzərində vandalizm hərəkətləri edildiyini, 4 qəbiristanlıq üzərində sənaye və istehsal obyektləri salındığını, 5 qəbiristanlıq ərazisində hərbi istehkam işləri aparıldığını, 32 qəbiristanlıq ərazisində tikinti-inşaat işləri görüldüyünü, 6 qəbiristanlıq üzərində yenidən dəfn prosesi aparılaraq erməni qəbiristanlığına çevrildiyini, 3 qəbiristanlıq ərazisində su anbarı inşa edildiyini müəyyən etdik. İndi özünüz deyin, buna vəhşilikdən başqa nə ad vermək olar?!

**– Ermənilərin bu fəaliyyətini mədəni soyqırım, etnik təmizləmə və ya insanlıq əleyhinə cinayətlər kontekstində necə qiymətləndirmək olar?**

– Əlbəttə, bütün bunlar təkcə Azərbaycan xalqına yox, bütün insanlığa qarşı törədilmiş cinayətdir və insanlıqdan kənar hərəkətlərdir. Bütün beynəlxalq sənədlər, konvensiya, protokol, pakt və digər qanunvericilik aktları bu cinayətləri pisləyir. Belə cinayətlər heç vaxt cəzasız qalmır və onu törədən millət, dövlət gec-tez bu cəzanı çox ağır şəkildə ödəməli olur. Ya insanlar ödəyir bu cəzanı, ya təbiət, ya da tarix.

**– UNESCO və digər beynəlxalq təşkilatların bölgədə aparılan mədəni vandalizmi araşdırmaq imkanlarının Ermənistan tərəfindən məhdudlaşdırılması beynəlxalq monitorinq sisteminə hansı zərbələri vurur? Bu, beynəlxalq hüququn icbari mexanizmlərinin zəifliyini necə nümayiş etdirir?**

– Vaxtilə Qarabağ və Şərqi Zəngəzur ərazisində Azərbaycan mədəni irsinə qarşı Ermənistan tərəfindən törədilən vandalizm hərəkətlərinə münasibət bildirməsi ilə bağlı Azərbaycan ziyalıları, digər vətəndaş qurumları UNESCO-ya və digər beynəlxalq təşkilatlara dəfələrlə müraciət etmişlər. Hətta cənab Prezident İlham Əliyev də işğaldan azad edilmiş ərazilərdən həmin qurumlara müvafiq çağırışlar etmişdir. Lakin təəssüf ki, ikili standartlar sayəsində dünya Azərbaycan həqiqətlərinə həmişə kar və kor olaraq qalmışdır. Qərbi Azərbaycan İcması olaraq, biz də indiki Ermənistan ərazisindəki Azərbaycan mədəni irsinə qarşı erməni vandalizminin durdurulması ilə bağlı UNESCO-ya və Ermənistan rəhbərliyinə müraciətlər etmişik. Hətta UNESCO-ya müraciətimiz BMT-nin Təhlükəsizlik Şurasının və Baş Assambleyasının rəsmi sənədləri kimi bütün ölkələr arasında yayılmışdır. Üstəlik, BMT-nin Baş katibi Ermənistan ərazisindəki Azərbaycan mədəni irsinin monitorinqinin keçirilməsinə şərait yaradılması ilə bağlı Ermənistan rəhbərliyinə müraciət də etmişdir. Amma nə olsun, Azərbaycanın suveren ərazilərini 30 il işğal altında saxlamasına rəğmən, ona bir dəfə də "işğalçı" deməyən dünya indi Ermənistanın xətrinə dəyən bir addım atarmı? Atmaz, atmadı da, bu gün də atmır. Beynəlxalq hüququn icbari mexanizmləri həmin mexanizmlərin rıçaqlarını əlində möhkəm saxlayan beynəlxalq güclərin subyektiv maraqlarını təmin etməyə xidmət edir.

**– Qayıdış hüququnun beynəlxalq hüquqda təsbit olunması deportasiya olunmuş Qərbi azərbaycanlıların geri dönüşünü hansı hüquqi əsaslarla legitim edir? Bu hüququn reallaşması üçün Ermənistanın üzərinə hansı beynəlxalq öhdəliklər düşür?**

– Biz ata-baba yurdlarımız olan Qərbi Azərbaycana qayıdışımızın bütün detallarını Qərbi Azərbaycana Qayıdış Konsepsiyamızda vermişik. Qayıdış hüququmuzun beynəlxalq hüquqda təsbit olunması faktları da həmin Konsepsiyada öz əksini tapmışdır və bir daha təkrar etmək istəmirəm. Təkcə onu deməklə kifayətlənirəm ki, insan hüquq və azadlıqları ilə bağlı bütün beynəlxalq sənədlər bizim doğulub boya-başa çatdığımız ata-baba yurdlarımıza qayıdışımızı təsbit və tələb edir. Bu hüququn reallaşması üçün Ermənistan dövlətinin üzərinə düşən beynəlxalq öhdəliklər də həmin Konsepsiyada öz əksini tapmışdır. Bura mülkiyyət hüququndan tutmuş bütün vətəndaş hüquqları da daxildir.

**– Qərbi Azərbaycan İcmasının beynəlxalq səviyyədə apardığı fəaliyyətin diplomatik, hüquqi və informasiya mübarizəsi nə dərəcədə effektlidir? Bu fəaliyyət qayıdış prosesinin legitimliyinə necə təsir edir?**

– Qərbi Azərbaycan həqiqətlərinin və soydaşlarımızın qayıdış hüququnun beynəlxalq müstəviyə daşınması Qərbi Azərbaycan İcmasının əsas prioritetlərindəndir. 2022-ci ildə İcmamızın yenidən təşkilatlanmasından ötən üç il ərzində bu sahədə xeyli uğurlara imza atmışıq. BMT-nin ən nüfuzlu orqanları — Təhlükəsizlik Şurası, Baş Assambleya və İqtisadi və Sosial Şuranın rəsmi sənədi statusunda yayılan müraciətlərimizin sayı bu gün 11-ə çatıb. Xarici İşlər Nazirliyi ilə sıx koordinasiyada olan müxtəlif beynəlxalq mərkəzlərə ümumilikdə 119 məktub ünvanlamışıq. Ermənistanın və bəzi qərəzli dairələrin həqiqətləri təhrif edən cəhdlərinə qarşı fəaliyyət dövrümüzdə 339 bəyanatla çıxış edərək, informasiya hücumlarının qarşısını vaxtında almışıq.

Şübhəsiz ki, bütün bu uğurlarımızda möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin tövsiyələri və hərtərəfli dəstəyi müstəsna rol oynayır. Təkcə yenicə yola saldığımız 2025-ci ildə cənab Prezident bu məsələni yerli və xarici platformalarda düz 9 dəfə, ümumiyyətlə isə 67 dəfə səsləndirib. Yanvarın 7-dən etibarən istər Ankarada, istər Xankəndidəki mötəbər Zirvə görüşlərində, istərsə də dekabrın 5-də Bakıda təşkil olunan III beynəlxalq konfransa ünvanlandığı müraciətində cənab Prezident bu məsələyə öz qəti dəstəyini hər addımda nümayiş etdirib. Məhz bu siyasi iradə bizə imkan verib ki, İcma qısa müddətdə həm ölkə daxilində, həm də xaricdə çevik və effektiv siyasi mexanizmə çevrilsin. Bu illər ərzində nümayəndələrimiz Türkiyə, Polşa, Macarıstan, Meksika, Niderland, Qazaxıstan, Özbəkistan, Mərakeş, Avstriya, Belçika və İordaniya kimi ölkələrdə keçirilən mötəbər konfranslarda Qərbi Azərbaycan həqiqətlərini geniş auditoriyalara çatdırıblar. Ümumilikdə beynəlxalq tədbirlərdə 43 dəfə yüksək səviyyədə təmsil olunmuşuq. Bununla yanaşı, Bakıda xarici diplomatlar və müxtəlif nümayəndə heyətləri ilə 78 görüşümüz baş tutub. Milli Məclisdə keçirilən 6 ictimai dinləmə isə bu məsələnin daxili siyasi gündəmimizdə nə dərəcədə önəmli yer tutduğunu bir daha sübut etdi.



Bütün bunlar qayıdış prosesinin legitimliyinə əhəmiyyətli dərəcədə təsir göstərir və göstərəcəkdir. Dünya ictimaiyyəti bölgədə gedən proseslərdən tam məlumatlı olmalı, Ermənistanın beynəlxalq hüquqa zidd hərəkətlərinə adekvat qiymət verməli, ən azı, Azərbaycan xalqının haqlı olduğunu etiraf etməlidir. Əlbəttə, biz Qərbin bizim haqq işimizə dəstək verəcəyinə bir o qədər də inanmırıq, amma heç olmasa, Ermənistanın necə bir siyasət və əxlaq sahibi bir dövlət olduğunu hər kəs bilməlidir.

**– Qayıdış hüququnun həyata keçirilməsi gələcək Azərbaycan–Ermənistan münasibətlərində etimadın bərpasına hansı təsirləri göstərə bilər? Ədalətin bərpası və tarixi yaddaşın dirçəldilməsi regional sülh mexanizmlərinin qurulmasında nə dərəcədə həlledicidir?**

– Biz Qayıdış hüququnun həyata keçirilməsini Azərbaycan-Ermənistan münasibətlərində qarşılıqlı etimadın bərpası üçün əsas şərt hesab edirik. Təsəvvür edin, ölkələrimiz arasında Sülh sazişi bağlanır, delimitasiya işləri aparılır, sərhədlər çəkilir, biz tikanlı məftillər arxasından qəzəblə bu tərəfdən onlara baxırıq, onlar tikanlı məftillər arxasından qəzəblə o tərəfdən bizə baxırlar. Bu, barışıq olmadı ki. Bu, iki millət arasında düşmənçiliyin davam etdirilməsi oldu. Qarşılıqlı etimadın, dayanıqlı sülhün yeganə şərti birgəyaşayışdır. Bu təcrübə var, müharibədən əvvəl bu xalqlar birgə yaşayıb və bu birgəyaşayış qarşılıqlı etimada və sülhə xidmət edib. Yenə də etməlidir. Həm də bu dəfə güzəşti Ermənistan tərəfi etməlidir, münaqişəni başlayan da, müharibəni edən də və ərazilərimizi işğal edən, insanlarımıza 30 il məcburi köçkün, qaçqın həyatı və məşəqqəti yaşadan da Ermənistandır. Ermənistanda bir ev, bir kənd də zərər görməyib, amma Azərbaycanın yüzlərlə kəndi, şəhəri yer üzündən silinib, 20 min nəfərə qədər insanımız öldürülüb, 100 min nəfərə yaxın əlilimiz var. Və bütün bunları Ermənistan edib. Bunu qarşı tərəf anlamalıdır. Edib, etməməzlikdən gəlmək dövrü keçib, onlar da, biz də həqiqətin gözünün içinə dik baxmalıyıq və gələcəyə addımlamalıyıq.




**– 2025-ci il Vaşinqton Birgə Bəyannaməsi Qərbi azərbaycanlıların qayıdışı üçün hansı yeni siyasi və hüquqi imkanlar yaradır? Bu bəyannamənin icrası regionun gələcək təhlükəsizlik arxitekturasına hansı təsirləri göstərir?**

– Qərbi Azərbaycan İcması Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində atılan bütün addımları dəstəkləyir. Azərbaycan və Ermənistan rəhbərlərinin 8 avqust Vaşinqton görüşündəki təşəbbüslərini də alqışlayırıq və bütün bu addımlara Qərbi Azərbaycandakı ata-baba ocaqlarımıza qayıdış istiqamətində qarşımızda açılan yeni imkan kimi baxırıq.

**– Keçən il noyabrın 3-də AMEA-nın 80 illik yubiley tədbirində Prezident İlham Əliyev Qərbi Azərbaycana Qayıdış məsələsi ilə bağlı ciddi məsələlər qaldırdı. Qərbi Azərbaycan İcması 2026-cı ildə bu istiqamətdə hansı işləri görməyi planlaşdırır?**

– Cənab Prezident həmin çıxışında görülən işləri qeyd etməklə yanaşı, görülməli olan işlərin də xeyli dərəcədə xəritəsini cızdı: "Biz öz tarixi torpaqlarımıza qayıtmalıyıq, tanklarla yox, avtomobillərlə qayıtmalıyıq. Bunu etmək üçün, əlbəttə ki, əsas vəzifə dövlətin üzərinə düşür. İctimai təşkilatlar və eyni zamanda, Azərbaycan alimləri, mən bilirəm və izləyirəm ki, bu istiqamətdə bir çox elmi əsərlər yaradıb. Onların sayı daha çox olmalıdır. Həm elmi əsərlər, sərgilər, təqdimatlar, tarixi xəritələrin dərc edilməsi... Daha çox elmi əsərlər, daha çox hətta kiçikhəcmli bukletlər hazırlanmalıdır ki, həm Azərbaycan gəncləri öz tarixini yaxından bilsinlər, həm dünya ictimaiyyəti bilsin və eyni zamanda, indiki Ermənistana bizim qayıdışımız da tamamilə məntiqli və ədalətli səslənsin. Ona görə Azərbaycan tarixi ilə bağlı bax, bu istiqamətdə əlbəttə ki, əlavə addımlara ehtiyac var".

Qərbi Azərbaycan İcması bütün bu istiqamətlər üzrə 2026-cı ildə ciddi addımlar atmaq əzmindədir və cari ilin tədbirlər planında biz bunları nəzərdə tutmuşuq. Elə hesab edirəm ki, 2026-cı il Qərbi Azərbaycana Qayıdış hədəfimiz yolunda yeni-yeni uğurlara imza atacağımız bir il olacaqdır.

*Hazırladı:*
***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Bakı–Pekin əməkdaşlığında strateji dönəm

## *Ötən il ikitərəfli ticarət 4 milyard dolları ötüb*

**Son zamanlar Azərbaycan və Çin arasında strateji tərəfdaşlıq münasibətləri iqtisadi sahədə sürətlə irəliləyir. Prezident İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsi də, öz növbəsində, bu amili təsdiqləyir. İkitərəfli ticarət dövriyyəsi artıq 4 milyard dolları ötüb və Çin şirkətləri bərpaolunan enerji ilə yanaşı, nəqliyyat sahəsinə də iri həcmdə investisiyalar edirlər. Bu uğurlar qarşılıqlı səfərlər, strateji bəyannamələrin imzalanması və mövcud müqavilələrin sürətli icrası sayəsində reallaşıb.**

### İqtisadi əlaqələr genişlənir

Rəsmi statistikaya görə, 2024-cü ildə Azərbaycan–Çin ticarət həcmi əvvəlki ilə nisbətən 20,7 faiz artaraq 3,744 milyard dollar olub. Çin artıq Azərbaycanın xarici ticarətində 4-cü ən böyük tərəfdaşdır və ümumi ticarətdə 7,9 faiz, idxalda isə 17,7 faiz paya malikdir. Bu yüksək artımda Çin kapitalının rolu da böyükdür. Azərbaycanda bu günə qədər Çin investisiyalı 375 şirkət qeydiyyatdan keçib, onlardan 298-i fəaldır. Bu müəssisələr əsasən tikinti materialları istehsalı, pərakəndə ticarət, avtomobil sənayesi və günəş elektrik stansiyalarının yaradılması kimi sahələrdə layihələr icra edirlər. Beləliklə, ticarət dövriyyəsinin böyüməsi ilə yanaşı, qarşılıqlı sərmayə axını da genişlənir.

### Yeni enerji və texnologiya layihələri

Bərpaolunan enerji sahəsində birgə layihələr diqqət mərkəzindədir. Məsələn, Azərbaycanda 3 GW gücündə günəş panelləri zavodunun tikintisi nəzərdə tutulub ki, bu, ölkəmizin yüksək texnologiyalı emal sənayesini daha da gücləndirəcək. Çin şirkətləri ilə 5 yeni günəş və külək stansiyası layihəsinin ümumi gücü, təxminən, 1,570 MW-dır. Bu stansiyalar işə düşdükdə Azərbaycanda bərpaolunan enerji potensialı təxminən 2 dəfə artacaq.

Avtomobil sektorunda da irəliləyişlər var. Bakıda fəaliyyətə başlayan Çin istehsalı BYD zavodu artıq 50-dən çox elektrik avtobusu istehsal edib. Bu rəqəmin 300-ə çatdırılması planlaşdırılır. Bu və digər layihələr ekoloji - təmiz nəqliyyatın inkişafına xidmət edir. Çinlə ortaq enerji və yüksək texnologiya layihələri Azərbaycanın enerji təhlükəsizliyini və ixrac imkanlarını yaxşılaşdırır.

### Çin kapitalının Azərbaycan sənayesinə töhfəsi

Çin investisiyaları Azərbaycanın qeyri-neft sektorunu da əhəmiyyətli dərəcədə gücləndirir. Məsələn, Ələt Azad İqtisadi Zonasında inşa ediləcək günəş paneli zavodu yerli istehsalı şaxələndirəcək və iş yerləri yaradacaq. Belə iri layihələr texnologiya transferini sürətləndirir, yerli istehsalçıların potensialını artırır və ölkəmizin yüksək texnologiyalı istehsal sektorunun inkişafına təkan verir. Nəticədə, strateji tərəfdaşlıq çərçivəsində əməkdaşlıq milli iqtisadiyyatın şaxələndirilməsinə və qeyri-neft sektorunun güclənməsinə xidmət edir.



### Nəqliyyat dəhlizləri

Nəqliyyat infrastrukturu üzrə əməkdaşlıq da sürətlə genişlənir. Azərbaycan Asiyanı Avropaya birləşdirən tranzit ölkədir və bu rolu daha da möhkəmləndirmək üçün yeni layihələr gerçəkləşdirilir. Çin Qırğızıstan və Özbəkistan üzərindən Xəzər dənizinə uzanan yeni dəmir yolunu maliyyələşdirir. Bu xətt vasitəsilə Şərqdən gələn yüklər Xəzər dənizi ilə Azərbaycana, oradan da Avropaya daşınacaq. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu xəttin istifadəyə verilməsi tranzit daşımalarının həcmini kəskin şəkildə artıracaq. Mərkəzi Asiya ölkələri ilə yanaşı, Çindən əlavə yükdaşımalar təbii ki, Şərq-Qərb marşrutunu, Orta Dəhlizi tam işlək vəziyyətə gətirəcək.

Xatırladaq ki, 2025-ci ilin 11 ayında Bakı-Tbilisi-Qars xətti ilə Azərbaycana 351 yük qatarı çatdırılıb. Bu göstərici 2024-cu ilin eyni dövrünə nisbətən 34 faiz çoxdur. Nəticədə, Çin malları Orta Dəhlizin ən böyük yük aparıcıları sırasına düşüb. Eyni zamanda planlaşdırılan Zəngəzur dəhlizi vasitəsilə Çindən gələn yükdaşımaların bir hissəsi Naxçıvan üzərindən Türkiyə və İran bazarlarına yönələcək. Bu yeni tranzit imkanları Orta Dəhlizin potensialını daha da artıracaq və Azərbaycanı regionda mühüm logistika mərkəzinə çevirəcək.

### Gələcək hədəflər

Bütün bu nailiyyətlər Azərbaycan–Çin əməkdaşlığının perspektivlərini daha aydın görməyimizə şərait yaradır. Azərbaycanın strateji coğrafi mövqeyi onu "yaşayan körpü"yə çevirir. İqtisadçıların fikrincə, ölkəmizin möhkəm logistika infrastrukturu və rəqabətqabiliyyətli mühiti sayəsində Çin mallarının Avropaya daşınması üçün yeni, əlverişli marşrut yaranır.

***Ekspert rəyi***

**Vüqar BAYRAMOV,**
**Milli Məclisin deputatı**



Azərbaycan ilə Çin arasında strateji münasibətlərin getdikcə dərinləşməsi müşahidə olunur. Çin artıq Azərbaycanın ən böyük idxal tərəfdaşlarından birinə çevrilib. Eyni zamanda, Çin–Azərbaycan ticarət dövriyyəsində də ciddi artımlar qeydə alınır.

Bununla yanaşı, Orta Dəhlizin genişləndirilməsi kontekstində Azərbaycan və Çin arasında nəqliyyat və logistika sahəsində əməkdaşlığın güclənməsi diqqət çəkir. Bu əməkdaşlıq hər iki ölkənin regional layihələrdən qarşılıqlı şəkildə faydalanmasına imkan yaradır. Azərbaycan Orta Dəhlizi regional miqyasda fəal şəkildə müdafiə edən, eyni zamanda, onun inkişafını və genişlənməsini dəstəkləyən əsas ölkələrdən biridir.

Azərbaycan daxilində nəqliyyat və logistika infrastrukturunun daha da inkişaf etdirilməsi praktiki olaraq Orta Dəhliz vasitəsilə daşımalar həyata keçirən ölkələrin maraqlarına birbaşa xidmət edir. Bu proses, eyni zamanda, regionun geosiyasi mövqeyinin möhkəmlənməsinə də töhfə verir.

Bu baxımdan, Azərbaycan ilə Çin arasındakı münasibətlər həm ikitərəfli, həm də çoxtərəfli formatlarda ardıcıl şəkildə inkişaf edir. Əməkdaşlıq yalnız nəqliyyat, logistika və ticarət sahələri ilə məhdudlaşmır, eyni zamanda, investisiya qoyuluşları və birgə layihələrin həyata keçirilməsi istiqamətində də özünü göstərir.

Çin şirkətlərinin Azərbaycan iqtisadiyyatına marağının artması aydın şəkildə müşahidə olunur. Paralel olaraq, Azərbaycan şirkətləri də Çin bazarında investisiya imkanlarına böyük maraq göstərirlər. Bu isə, təbii olaraq, iki ölkə arasında investisiya tərəfdaşlığının daha da genişlənməsinə və nəticə etibarilə hər iki dövlətin bu əməkdaşlıqdan daha çox fayda əldə etməsinə şərait yaradır.

Vaşinqtondakı Jamestown Mərkəzinin təhlilində deyilir ki, Rusiya və İran marşrutlarındakı çətinliklər fonunda Azərbaycan Orta Dəhliz üzrə Çin–Avropa əlaqələrində təhlükəsiz, sanksiyalardan azad tranzit marşrutu təqdim edir. Jamestown analitikləri də bildirir ki, bu ölkə alternativ, etibarlı yükdaşıma marşrutu kimi formalaşır.

Bu nailiyyətlərin fonunda yerli sahibkarlar üçün də yeni imkanlar yaranır. Azərbaycandan Çinə ixrac edilən qeyri-neft məhsullarının çeşidi artmaqdadır. İkitərəfli ticarət evlərinin yaradılması və yeni elektron ticarət platformalarının istifadəyə verilməsi sayəsində yerli məhsullarımızın Çinə ixracı daha da asanlaşacaq. Yeni gömrük prosedurlarının sadələşdirilməsi və multimodal nəqliyyat imkanlarının genişləndirilməsi hesabına yükdaşımalar sürətlənəcək, Xəzər dənizi ilə Avropaya çıxış isə daha rəqabətqabiliyyətli olacaq. Bundan başqa, Çin–Azərbaycan sərmayə forumlarında kənd təsərrüfatı, tikinti materialları və yüksək texnologiyalar kimi sahələrdə yeni birgə layihələr müzakirə edilir. Texnologiya və təhsil sahəsində əməkdaşlıq da gündəmə gəlir. Universitetlər və tədqiqat institutları arasında bilik mübadiləsi planlaşdırılır.

Bütövlükdə, ikitərəfli münasibətlərin strateji səviyyəyə yüksəlməsi əməkdaşlığın yeni mərhələsinin başlanğıcıdır. Qarşılıqlı investisiya axını, ticarətin artımı və logistika infrastrukturunun təkmilləşdirilməsi uzunmüddətli dövrdə hər iki ölkə üçün faydalı olacaq. Azərbaycan və Çin əlaqələrinin bu cür dərinləşməsi regionda iqtisadi sabitliyə və inkişafın davamlılığına zəmin yaradır.

***Nurlan ABDALOV***
***XQ***

# Azərbaycan uzun illər Avropanı qazla təmin edəcək

**Azərbaycan Avropa İttifaqı ilə uzun illərdir ki, enerji sahəsində fəal tərəfdaşlıq edir. Son illər bu sahədə əlaqələrin genişləndirilməsi istiqamətində vacib addımlar atılıb. Ölkəmizin zəngin karbohidrogen ehtiyatlarına və enerji resurslarının Avropa bazarına çıxarılması üçün şaxələndirilmiş boru kəmərləri sisteminə malik olması isə enerji əməkdaşlığının bir qədər də genişləndirilməsinə səbəb olub.**




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına verdiyi müsahibəsində ölkəmizin "köhnə qitə"nin enerji təhlükəsizliyinin təminatına mühüm töhfələr verdiyini diqqətə çatdıraraq deyib: "Biz təchizatı artırmaq variantını nəzərdən keçiririk. Şaxələndirilmiş boru kəməri sistemi və etibarlı təchizatçı kimi yaxşı nüfuza, yaxşı siyasi əlaqələrə malik olan Azərbaycanın qazı bir çox ölkələr üçün enerji təhlükəsizliyində mühüm rol oynayır. Çünki müştərilərimizin əksəriyyəti Avropa İttifaqının üzvləridir. Bütün bunlar çox müsbət amillərdir".

Həcm və coğrafiya baxımından qaz ixracının getdikcə artmasını vurğulayan dövlət başçısının sözlərinə görə, Azərbaycan indiyədək 11-i müntəzəm əsasda olmaqla, 14 ölkəni qazla təchiz edib. Yeri gəlmişkən, 2022-ci ilədək Azərbaycan yalnız Gürcüstan, Türkiyə, Yunanıstan və İtaliyaya qaz ixrac edirdisə, sonrakı mərhələdə bu coğrafiya xeyli genişlənərək Bolqarıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya, Slovakiya, Ukrayna və Suriyanı əhatə edib.

2026-cı ildə isə bu siyahıya daha iki Avropa ölkəsinin əlavə olunacağı gözlənilir. Bu da boru kəməri qazı ilə bağlı indiyədək qeydə alınan ən böyük rəqəmdir. Müsahibəsində bu vacib məqama toxunan Prezident İlham Əliyev bildirib ki, dünyada heç bir dövlət Azərbaycan kimi bu qədər ölkəni boru kəməri vasitəsilə "mavi yanacaq"la təchiz etmir. Ümumilikdə isə, yola saldığımız 2025-ci ildə Azərbaycan 25 milyard kubmetrdən çox təbii qaz ixrac edib.

Bununla belə, Avropa İttifaqı ölkələrinin əksəriyyəti təbii qaza olan tələbatın ödənilməsi üçün Azərbaycana böyük ümid bəsləyirlər. Bunun üçün isə ölkəmizin kifayət qədər qaz ehtiyatları var. Belə ki, əvvəlki illərin proqnozlarına əsasən, Azərbaycanın təsdiq olunmuş qaz ehtiyatları 2,6 trilyon kubmetr həcmində qiymətləndirilirdisə, son zamanlar kəşf edilmiş yataqlar bu potensialın daha yüksək olmasını söyləməyə əsas yaradır. Bu baxımdan Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Şəfəq", "Asiman", "Ümid", "Babək", "Naxçıvan" və "Qarabağ" yataqlarının da potensialı olduqca yüksək qiymətləndirilir. Bununla yanaşı, "Abşeron" qaz yatağının ikinci mərhələsi ilə bağlı yekun investisiya qərarının verilməsindən sonra illik hasilatın həcmi 5 milyard kubmetrə çatdırılacaq.

Dövlətimizin başçısı məlum müsahibəsində ölkəmizin artmaqda olan qaz potensialından danışarkən diqqəti mövcud və yeni yataqlardan gözlənilən hasilata yönəldərək deyib: "Biz "Azəri-Çıraq-Günəşli" dərin qaz yatağından yeni hasilat gözləyirik. Bildiyiniz kimi, bu yataqdan çoxlu neft hasil edilir, həmçinin dərində böyük qaz yataqları var. Məhz buna görə onu "dərin qaz yatağı" adlandırırlar. Hasilatın bu il başlanmasını gözləyirik. Biz, həmçinin qarşıdakı illərdə "Şahdəniz"də əlavə həcmdə qaz təmin edəcək yeni mərhələnin başlanmasını gözləyirik, bu, "Şahdəniz Kompressiya" adlanır. Həmçinin "Babək" yatağı var, çox böyük və ümidvericidir, bir sıra şirkətlər investor olmaq istəyir".

Azərbaycanın bərpaolunan enerji mənbələrinin hərəkətə gətirilməsi də ölkənin bir sıra mühüm obyektlərində qaz sərfiyyatının azalmasına gətirib çıxaracaq ki, bu da son nəticədə ixrac potensialının bir qədər artmasına səbəb olacaq. Təsadüfi deyil ki, Prezident İlham Əliyev müsahibəsində bildirib ki, bərpaolunan enerjimiz nə qədər çox olsa, biz ixrac üçün o qədər çox qaza qənaət edə bilərik.

Azərbaycan təbii qazını dünya bazarına çıxarmaq üçün də mükəmməl ixrac infrastrukturuna malikdir. Məlum olduğu kimi, Xəzərin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağından hasil edilən "mavi yanacağ"ın dünya bazarına ixrac etmək məqsədilə 3500 kilometr uzunluğunda Cənub Qaz Dəhlizi istifadəyə verilib. Bu dəhlizin sonuncu seqmenti olan Trans-Adriatik Boru Kəməri (TAP) Azərbaycan qazını Avropa bazarlarına çatdırır. Ümumilikdə isə, 2007-ci ilin əvvəllərindən 2025-ci il dekabrın 1-dək ölkəmizdən, təqribən, 190 milyard kubmetr "Şahdəniz" qazı ixrac olunub ki, bunun da 51 milyard kubmetri Avropa bazarlarına çatdırılıb.

Hazırda isə qarşıda duran əsas məsələ yeni qaz bazarlarına çıxmaqdan ibarətdir. Bu məqsədlə Cənub Qaz Dəhlizini, eləcə də mövcud interkonnektorları genişləndirmək və ya yenilərini tikmək üçün Avropada əlavə sərmayələrin qoyulması vacibdir. Yeri gəlmişkən, 2026-cı il yanvarın 1-dən etibarən TAP boru kəmərinin illik nəqletmə gücü daha 1,2 milyard kubmetr artırılıb. Azərbaycan təbii qazını Avropaya nəql edən TAP kəmərinin genişləndirilməsi layihəsinin bir hissəsi olaraq ilkin mərhələdə Türkiyə ilə Yunanıstan sərhədi yaxınlığındakı Aleksandrupoli ərazisində yerləşən Kipoi Kompressor Stansiyasında işlər uğurla başa çatdırılıb.

Sonda bir məqamı da qeyd edək ki, Avropa ölkələrinin "yaşıl keçid" kimi xarakterizə etdikləri mədən yanacağından imtina edilməsini nəzərdə tutan proqrama baxmayaraq, uzunmüddətli perspektivdə qazdan və neftdən tam imtina edilməsi gözlənilmir. Ölkənin aparıcı televiziya kanallarına verdiyi müsahibədə bu vacib məqama toxunan Prezident İlham Əliyev Azərbaycanın bu gün və gələcək illərdə Avropa istehlakçıları üçün mühüm tərəfdaş olduğunu vurğulayaraq bildirib ki, ölkəmizin enerji təhlükəsizliyi baxımından etibarlı təchizatçı kimi rolu yalnız artacaq, azalmayacaq. Bu isə onu deməyə əsas verir ki, Azərbaycanın karbohidrogen ehtiyatları hələ uzun illər Avropanın enerji təhlükəsizliyinin təminatında mühüm rol oyanayacaq.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

***Ekspert rəyi***

**İlham ŞABAN,**
**Neft Araşdırmaları Mərkəzinin rəhbəri**



Cənab Prezident İlham Əliyev yerli telekanallara müsahibəsində vurğuladığı kimi, Azərbaycan bu gün dünyada boru kəməri vasitəsilə qaz tədarükü həyata keçirən ölkələrin sayı baxımından birinci yerdədir. Bu mühüm mərhələ faktiki olaraq 2025-ci ildə reallaşıb. Məlum olduğu kimi, avqustun 2-də Azərbaycan qazı Türkiyə üzərindən çəkilmiş yeni boru kəməri vasitəsilə Suriyaya çatdırılıb. Bu, Suriyanın enerji təminatına töhfə verməklə yanaşı, Azərbaycanın dünya miqyasında digər ölkələri boru kəməri qazı ilə təmin edən aparıcı dövlət kimi mövqeyini daha da möhkəmləndirib.

Xatırladaq ki, bu liderlik uzun müddət – təxminən 50 ildən artıq bir dövrdə əvvəlcə Əlcəzairə, daha sonra isə Rusiya Federasiyasına məxsus olub. Hazırda isə Azərbaycan ixrac etdiyi qazın artıq iki ildir ki, ardıcıl olaraq, təqribən, 50 faizini Avropa ölkələrinə yönəldir. Eyni zamanda, bu ölkələrin coğrafiyası ildən-ilə genişlənir. Məhz bu səbəbdən dövlətimizin başçısı müsahibəsində xüsusilə vurğulayıb ki, daha 2 Avropa ölkəsi Azərbaycan qazını almağa hazırlaşır. Azərbaycan isə bu tələbatı təmin etməyə hazırdır. Çünki ölkəmizin kifayət qədər enerji resursları mövcuddur.

## AİB-in ölkəmizə növbəti töhfəsi

**Asiya İnkişaf Bankı (AİB) Ağıllı Enerji İnnovasiya Fondu Azərbaycanın da iştirak etdiyi "ağıllı enerji" ilə bağlı sub-layihəyə investisiya qoyacaq. Qurum bu məqsədlə ümumi məbləği 1,5 milyon ABŞ dolları olan ikinci sub-layihənin istifadəyə verildiyini açıqlayıb.**

Azərbaycan və Taylanda dəstək məqsədi daşıyan sub-layihə "ağıllı enerji sistemləri"nə, bərpaolunan enerji mənbələrinin enerji şəbəkələrinə inteqrasiyası üçün infrastruktura, eləcə də benefisiar ölkələrdə innovativ texnologiyaların və rəqəmsal həllərin təşviqinə investisiyaların qoyulmasını nəzərdə tutur.




Bankdan verilən məlumata əsasən, sub-layihə digər inkişaf etməkdə olan AİB-ə üzv ölkələrlə aparılan cari müzakirələr və ehtiyaclar əsasında genişləndirilə bilər. Bura Qazaxıstan (elektromobillik və doldurma infrastrukturu), Qırğız Respublikası (məlumat mərkəzləri) və Taylandla (məlumat mərkəzləri üçün dayanıqlı və etibarlı enerji təchizatı) aparılan müzakirələr daxildir.

## Çindən Azərbaycana ilin ilk qatarı yola salınıb

**"Çin Enerji İnşaat Korporasiyası"na məxsus fotovoltaik modullarla yüklənmiş 45 konteynerlik Çin–Avropa yük qatarı Sian şəhərindən yola düşüb. Bu 2026-cı ildə Çindən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) vasitəsilə yola düşən ilk qatardır. Yanvarın 1-də yola çıxan qatar Horqos sərhəd-buraxılış məntəqəsindən Qazaxıstana keçərək Xəzər dənizi vasitəsilə Bakıya çatacaq.**

Fotovoltaik modulların Bakıya operativ çatdırılması Sian şəhərinin Orta Dəhlizin quruculuğunda fəal iştirakı, eləcə də sözügedən marşrutun üzv tərəfdaşları ilə birgə xərclərin azaldılması və səmərəliliyin artırılması istiqamətində görülən ardıcıl tədbirlər sayəsində mümkün olub. Ötən müddətdə Orta Dəhliz üzrə qatarların hərəkəti xeyli intensivləşib, daşınma müddəti isə 15–23 gündən, təxminən, 11 günədək qısalıb.



Qeyd edək ki, Çin–Avropa yük qatarlarının (Sian) Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu ilə hərəkətinə 2019-cu ilin oktyabrında strat verilib. 2025-ci il noyabrın sonunadək bu marşrut üzrə, ümumilikdə, 466 qatar reysi həyata keçirilib.

***XQ***

*I Türkoloji qurultay – 100*

# 100 il əvvəldən gələn səslər

## *Ən maraqlı məruzələrin icmalı və şərhi*



**(əvvəli qəzetimizin 9, 11, 18 və 20 dekabr 2025-ci il saylarında)**

**Bu sayımızda I Türkologiya qurultayının təşkilində fəal iştirak etmiş, türk dillərinin görkəmli araşdırmaçılarından olan Bəkir Çobanzadənin və dünyaca məşhur rus əsilli türkoloq alim Nikolas Poppenin məruzələrinin icmalını təqdim edirik.**

**Bəkir Çobanzadə** *"Türk ləhcələrinin yaxın qohumluğu haqqında"* məruzə edir. Onun qənaətinə görə, Orxon-Yenisey yazılı abidələri iki qismə: şərq və qərbə, yaxud şimal və cənuba bölünür. Bu kitabələrdə karluk, uyğur, dokuzoğuz adlarının çəkilməsi onların türklərə məxsus olduğunun bir daha sübut edir. Türklərin özlərini "türk" adlandırmaları heç bir şübhə doğurmur. Tarixin bütün dönəmlərində bu fikri təsdiqləmək üçün mühüm faktlar var. Müxtəlif tarixi dövrlərə aid olan "Kutadqu-bilig", "Divani hikmət", "Divanü lüğat-it türk" əsərlərinə nəzər salıb mahiyyətinə vardıqda, onların müxtəlif türk ləhcələrində qələmə alındığını görürük. Həmçinin müəlliflər əsərlərini "türk işi", özlərini də "türk" adlandırmışlar. İrəli sürülən mülahizəmizə əsasən, türk ləhcələrinin ilkin kökünü Orxon-Yenisey abidələrinin yaranmasından əvvəlki dövrlərdə axtarmaq lazımdır. Lakin əlimizdə Orxon-Yenisey abidələrindən başqa mənbə, tarixi sənəd olmadığı üçün bu sahədə daha dərin araşdırma aparmaq mümkün deyil. Məlum olduğu kimi, XIII əsrə qədər "Kutadqu -bilig", "Divanü lüğat-it-türk" və bir neçə nümunədən savayı əlimizdə başqa bir mənbə yoxdur.

Çobanzadə qeyd edir: "Elə türk tayfaları var ki, onların ləhcələrinin, demək olar ki, izi də qalmamışdır. "Divanü lüğat-it-türk" XI əsrə aid bir yazılı abidədir. Bu əsərin tədqiqi həmin dövrdə mövcud olan türk ləhcələrinə doğru istiqamət götürməyə imkan verir – Mahmud Kaşğari I cildin Müqəddiməsində türk ləhcələrinin təsnifatını vermişdir:

***1. Uyğur***

***2. Kay, Yabqu, Tatar, Basmıl***

***3. Qırğız, Qığçaq, Oğuz, Toxsi, Yağma, Çığıl, Əgrək, Ciriq***

***4. Yemaq, Başqırt***

***5. Bulqar, Cuvaş, Peçeneq***

Bundan başqa, Mahmud Kaşğari dövrün anlayışına müvafiq olaraq bu məsələyə daha geniş elmi əsasla yanaşmış və türk ləhcələrinin qarşılıqlı əlaqələrini və bağlılığını təhlil etmişdir. Türk ləhcələri arasında leksik kök eynidir. Fərq yalnız bəzi səslərin dəyişməsində və tələffüzdə müşahidə olunur".

O, Kaşğarinin araşdırdığı səs fərqləri və dil xüsusiyyətlərinə toxunaraq XI əsrdə mövcud olan türk ləhcələrindən, hətta bu ləhcələrin ədəbi dilləri arasındakı fərqlərdən bəhs edir. Doqquz səs götürüb, onlar arasındakı fərqləri təhlil edir:

Məsələn, başında "ya" səsi olan sözləri oğuz və qıpçaqlar "əlif" və ya "c" ilə əvəz etmişlər. Əslində isə burada səs "y" "s" ilə əvəzlənir, ya da tamamilə düşür. Ərqu türkləri sözün ortasında və ya sonunda gələn "b" və "ğ" səslərini "n" ilə əvəz edirdilər. Oğuz, qıpçaq və suvarlar (bəlkə də bulqarlar) sözün əvvəlindəki "b" hərfini dəyişdirirdilər,"b" → "m" keçidi olurdu. Əgər sözdə "t" səsi varsa, oğuzlar onu başqa səsə dəyişdirirdilər məsələn, "d" və ya "y" ilə. Türk dillərində "b" və "p" səsləri də dəyişmələrə uğrayır. Oğuzlar "b" əvəzinə "d" işlədirlər, "b"-ni "v" ilə əvəz edirlər. Yağma, toksi, qıpçaq, əbaqu, tatar, qayı, cəməl və oğuzlar "zal" (ذ) hərfini heç vaxt işlətmir, bu səsi "y" ilə əvəz edirdilər. Kaşğariyə görə, Çindən Bizansadək bu səs fərqli tələffüz olunur: Çinə doğru "ya" və "b", Bizans tərəfinə doğru isə "za" kimi, Xətən və Gəncək türkləri isə sözün əvvəlindəki "əlif"i (ا) "ha" kimi tələffüz edirdilər.

Kaşğarinin sözlərinə görə, bu xalqlar tam türk deyildilər, çünki belə səs xüsusiyyəti türk dillərinə xas deyil. Oğuz və qıpçaq ləhcələrində sözün ortasındakı "m" səsi tamamilə düşür, bu düşmə türk dillərində sadələşmə prosesinin erkən nümunəsidir. Mahmud Kaşğari bəzi türk ləhcələrində zaman və məkan mənası verən isimlərdə fərqli şəkilçilərin işlədildiyini qeyd edir. Bəzi nümunələrdə "-caq, -əcək" mənası verən gələcək zaman formalarının müxtəlif tələffüzləri müşahidə olunur.

B.Çobanzadə onu da qeyd edir ki, Kaşğari səciyyəvi xüsusiyyətlərə toxunmamışdır, hər halda, onun əsərindən belə nəticə çıxır ki, bugünkü canlı türk-tatar ləhcələri ümumi cizgiləri ilə artıq XI əsrdən əvvəl formalaşmışdır. Əgər biz VII – X, XI – XV, XV – XIX əsrlər üzrə türk xalqlarının tarixini izləmiş olsaq, onlar arasında təkcə dilçilik baxımından deyil, digər cəhətlərdən də maraq doğuran dövrlər olduğunu görmüş olarıq. Təəssüf ki, bu dövrləri ayrı-ayrılıqda həm dilçilik, həm də mədəniyyət tarixi baxımından təhlil etmək üçün əlimizdə kifayət qədər material yoxdur.

B.Çobanzadə məruzəsində Tukyu, Uyğur, Moğol, Cağatay, Qızıl Orda xanlıqlarının yarandığı, süqut etdiyi və tarix səhnəsindən silindiyi mərhələləri xüsusi vurğulayır, həmçinin, iqtisadi dəyişiklikləri şərq və qərb, şimal və cənub türklərinin bir-birinə qarışması ilə səciyyələndirir. O, hər bir dövrdə yeni ləhcə və dil xüsusiyyətlərinin meydana çıxmasının müşahidə edildiyini qeyd edir.

Onun sözlərinə görə: "İstənilən türk xalqının: Orta Asiya, Krım, Qafqaz, Uralboyunun coğrafi xəritəsini götürüb kənd, oba, dağ, çaylarının ad və təyinatının izinə düşsək, həm şərq, həm qərb ləhcələrinə, hətta monqol və türk dillərinə aiddir. Mahmud Kaşğaridən başlayaraq, bütün digər tədqiqatların əsasını bir sıra ümumi səs xüsusiyyətləri təşkil edir, lakin bu tədqiqatların heç biri hər hansı bir ləhcə və ya ləhcələr qrupunun həyatına dair tam və hərtərəfli məlumat vermir, onlara əsaslanaraq terminologiya və ya qrammatika qurmaq mümkün deyil".

B.Çobanzadə M.Kaşğaridən başlayaraq professor Samoyloviçə kimi bu istiqamətdə aparılan tədqiqat işlərindəki çatışmazlıqları qeyd etmişdir:

1) Türk ləhcələrinin öyrənilməsi tarixi baxımdan təhlil edilmiş, əksərən iqtisadi, yaxud siyasi məsələlərə aydınlıq gətirmək məqsədilə aparılmışdır;

2) Türk ləhcələrinin müqayisəli təhlili nəticə etibarilə bir ləhcənin təhlili çərçivəsindən kənara çıxmamışdır;

3) Aparılmış tədqiqatlarda qüsurlar var:

– əsas fikir səs xüsusiyyətlərinə yönəlir

– tarixi baxımdan xüsusiyyətlərin təhlili nəzərə alınmır

– fərqli prinsiplər bir-birinə qarışdırılır.

Şübhəsiz ki, praktik baxımdan bu təsnifat əsasında qrammatika və terminologiya qurmaq olmaz.

Betlinq, Rodlov, Vamberi, Budeni, Ramsted türkologiyanın bir çox sahəsini tədqiq ediblər. Onlar türk ləhcələri arasında qohumluq əlaqələrini qurmağa çalışıblar. Belə bir nəticə çıxarırıq ki, mərkəzi mövqe tutan özbək və Şərqi Türküstan ləhcələri başlanğıc təşkil edir və şaxələnmələr buradan başlanır. Bunlardan biri Türkmən-Osmanlı, digəri isə Tatar – Başqırd – Qazax, Qırğız – Noqay – Başqırt istiqamətlərindədir. Yakut ləhcəsi bu günə kimi hələ də ayırd edilməmişdir. Sibir və Altay türklərinin ləhcələri Orta Asiya ləhcələrinə daha yaxındır.

B.Çobanzadə qeyd edir ki, tədqiqatçıların fikri ilə razılaşmadan, çuvaş və yakut ləhcələrinin təsnifatını qazax və oyrat ləhcələri ilə birlikdə verə bilmərik. Çuvaş ləhcəsi özünəməxsus fonetik və morfoloji quruluşa malikdir. Bir daha qeyd edim ki, türk ləhcələrinin tədqiqi həmin ləhcələr arasındakı əlaqə və müqayisəli qrammatikanı yetərincə işıqlandırmır.

Məruzəsinin sonunda fantastik fərziyyələri bir kənara qoyub, ayrı-ayrılıqda hər bir ləhcəni öyrənmək və ya qrup üzrə ləhcələrin müqayisəli tərtibatı ilə məşğul olmağı daha məqsədəuyğun hesab edir və qeyd edir ki, hazırda Göytürk dövründən Osmanlı dönəminədək dil və ləhcələrin tarixinə dair ümumi bir yol yoxdur. Deyilənləri nəzərə almaqla, belə nəticəyə gəlirik ki, türk-tatar ləhcələrinin öyrənilməsi və tədqiqi türkologiya elminin digər sahələri, xüsusilə tarixi araşdırmalar ilə əlaqəli olmalıdır. O, geniş miqyasda müqayisəli qrammatikanın yaradılması üçün yolların və planın çəkildiyini bildirmişdir: "Ümid edirəm ki, belə bir iş yaxın zamanlarda mənsub olduqları təşkilat və ya qrupdan asılı olmayaraq, türkoloqların qələmindən çıxacaq. Şübhəsiz ki, belə bir iş Ural-Altay nəzəriyyəsinə dair sual doğuran məsələləri aydınlaşdırmağa yetərincə işıq salacaq".

* * *

**B.Çobanzadə məruzəsini iki əsas tezis üzərində qurur:**

1. Türk ləhcələri tarixi baxımdan ortaq kökdən gəlir və Orxon-Yenisey abidələri bu ortaq kökün ən erkən və etibarlı yazılı sübutudur. Bu abidələrdə adları çəkilən tayfalar (karluk, uyğur, dokuzoğuz və s.) "türk" kimliyinin tərkibini göstərir, Orta əsr ədəbiyyatı ("Kutadqu bilik", "Divani Hikmət", "Divanü lüğat-it-türk") davamını təsdiqləyir.

2. Türk dilləri arasındakı fərqlər əsasən fonetik dəyişmələrdir, fərqlər əsasən səslərin dəyişməsi, düşməsi, yumşalması üzərində qurulur; leksik baza sabitdir.

Çobanzadə məqsədli şəkildə göstərir ki, dillərin ayrılma səbəbi etnik təməldən çox coğrafi, siyasi və mədəni proseslərin nəticəsidir. O, "ortaq kök" anlayışını elmi şəkildə əsaslandırır: "Orxon-Yeniseydən əvvələ dair yazılı material yoxdur – bu dil tarixi üçün problem yaradır, belə ki, fonetik ardıcıllığı izləmək çətindir və ilk ayrılma mərhələlərini müəyyənləşdirmək mümkün deyil. Alim metodoloji olaraq qəti nəticə verməkdən çox mümkün istiqaməti göstərir. M.Kaşğariyə istinadən fikrini möhkəmləndirir – XI əsrdə ləhcə fərqləri artıq mövcud idisə, deməli, ayrılma prosesi daha əvvəl başlamışdı.

Onun fonetik təhlil metodunda 9 fonetik hadisənin üzərində qurduğu müşahidələrdən belə nəticə çıxarır:

**1) Əsas səs dəyişmələri:**

– "ya" → "a / c / s"

– "b" → "m / v / d"

– "t" → "d / y"

Bu dəyişikliklər areal fonetikanın formalaşdığını göstərir.

**2) Söz ortasında səslərin düşməsi:**

– "m" samitinin düşməsi (oğuz, qıpçaq)

Bu, dili sadələşdirən fonetik keçidin göstəricisidir.

**3) "z", "y", "b" samitlərinin yön təsiri:**

B.Çobanzadə M.Kaşğarinin "Çindən Bizansa qədər tələffüz xətti" barədə müşahidələrinə əsaslanaraq bildirir ki, dil dəyişiklikləri siyasi-coğrafi istiqamətlər üzrə yayılır, fonetik qanunauyğunluqlar təsadüfi deyil − sistemlidir və türk dillərinin qohumluğunu sübut edir.

**4) Ləhcələrin tarixi inkişaf mərhələləri:**

VII–X əsrlər → Orxon dövrü

XI–XV əsrlər → Qaraxanlı – Uyğur – Səlcuq dövrü

XV–XIX əsrlər → Osmanlı – Çağatay – Qızıl Orda xətti

Çobanzadə bu dövrləri 3 böyük proseslə səciyyələndirir:

*1. İmperiyalar arasında miqrasiya*

*2. Şərq – Qərb, Şimal – Cənub istiqamətli qarışma*

*3. Yeni ləhcə və ədəbi dillərin yaranması*

Bu bölgü müasir türkologiyanın əsas strukturu kimi qəbul olunur.

**5. Toponimlərin və etnonimlərin dildəki rolu**

B.Çobanzadəyə görə:

– Coğrafi adlar (dağ, çay, oba, kənd) ləhcə tarixi üçün ən etibarlı arxivdir.

– Bir çox toponim həm Şərq, həm Qərb türk dillərinin izlərini daşıyır.

– Hətta monqol qatı belə toponimlərdə görünür.

**6. Metodoloji baxış:**

– Mövcud mənbələr qıt olduğundan tam təsnifat vermək mümkün deyil.

– Heç bir tədqiqat türk ləhcələrini təsvir etmir.

– Terminologiya və qrammatika qurmaq üçün material kifayət etmir.

Bu, onun elmi yanaşmasının dürüstlüyünü göstərir. Çobanzadə sübutlar yetməyən yerdə qəti hökmlər vermir. Onun qənaətinə görə:

*1. Türk dilləri tarixi baxımdan ortaq bir nəhəng dilin varisidir.*

*2. Siyasi və coğrafi miqrasiya dillərin yayılmasını formalaşdırmışdır.*

*3. XI əsrdə ləhcələr artıq fərqlənmişdi, deməli, ayrılma daha qədimdir.*

*4. Fərqlər əsasən fonetik və morfoloji proseslərin uzunmüddətli nəticəsidir.*

*5. Mövcud mənbələr məhdud olsa da, fonetik qanunauyğunluqlar real sübutdur.*

Məruzədə Çobanzadə özündən əvvəlki klassik türkoloq-tədqiqatçılarının: Samoyloviç, Radlov və başqalarının araşdırmalarındakı çatışmazlıqları aydın şəkildə qeyd edir: türk ləhcələrinin öyrənilməsi natamam və metodoloji cəhətdən qeyri-sistemlidir. O, fikrini belə əsaslandırır:

1. Tədqiqatlar tarixi kontekstdən kənar aparılmış, daha çox iqtisadi yanaşma, siyasi məqsədlər daşımış və dilin daxili inkişaf qanunauyğunluqları ikinci plana keçmişdir. Bu, elmi obyektivliyə zərbədir, çünki dil təkcə ideoloji-siyasi fakt deyil, özünəməxsus inkişaf qanunları olan sistemdir.

2. Müqayisəli təhlil dar çərçivədə aparılmışdır. Müqayisə geniş türkologiyanın deyil, sadəcə "müqayisəli" görünən işlər əslində metodoloji olaraq lokal və məhduddur.

3. Fonetikyönümlü metod qarışıqlığı. Tədqiqatların çoxu yalnız səs dəyişmələrinə əsaslanıb, tarixi-diaxronik yanaşma unudulub, müxtəlif metodlar qarışdırılıb, bu da elmilikdən çox uzaqdır – türkologiya hələ özünün tarixi-metodoloji əsaslarını yaratmayıb.

B.Çobanzadə Radlov və digər tədqiqatçıların ləhcə qrupları ilə bağlı verdikləri təsnifatı ümumən qəbul etsə də, ciddi iradlarını da bildirir. Məsələn, çuvaş və yakutların dilini qazax-oyrat qrupu ilə birlikdə verilməsinin yanlış olduğunu bildirir. Çuvaş dili fonetikası, morfologiyası, ümumi struktur xüsusiyyətləri baxımından klassik türk dillərindən kəskin şəkildə fərqlənir. Bu, onun "bulqar qolu" kimi ayrıca müstəqil istiqamət təşkil etdiyini göstərir. Yakut dili Sibir arealına məxsusdur, arxaik xüsusiyyətləri saxlayan tam ayrıca bir qrup kimi qiymətləndirilməlidir. Çobanzadə burada etnik deyil, struktur-linqvistik təsnifat təklif edir ki, bu da metodoloji cəhətdən tam şəkildə özünü doğruldur.

B.Çobanzadə mövcud tədqiqatları ümumiləşdirərək ləhcə qrupları arasındakı bölgünü 2 istiqamətdə sistemləşdirir:

**1. Mərkəzi qrup:**

Özbək və Şərqi Türküstan.

**2. Şaxələr:**

Türkmən – Osmanlı;

Tatar – Başqırd – Qazax – Qırğız – Noqay – Başqırd.

Bu iki istiqamət türkcənin tarixi yayılmasını izah edir.

Yakut ləhcəsinin tam təsnifatlandırılmamasını əvvəlki tədqiqatçıların zəifliyi ilə izah edir.

B.Çobanzadənin metodoloji təklifi budur ki, reallıqdan kənar nəzəriyyələri bir tərəfə qoyub, hər ləhcəni ayrıca və ya qrup üzrə sistemli şəkildə öyrənmək lazımdır. Bunun üçün:

1. Ləhcələrin daxili quruluşunu ayrı-ayrılıqda analiz etmək;

2. Qruplar üzrə sistemli müqayisə aparmaq;

3. Materiallar əsasında ümumi türk dilləri tarixini yaratmaq.

Bu fikir həmin dövr üçün radikal dərəcədə moderndir.

B.Çobanzadə Ural-Altay nəzəriyyəsinə çox ehtiyatla yanaşır və qeyd edir ki, genişmiqyaslı müqayisəli qrammatika yaradılarsa, bu nəzəriyyə elmi təsdiqini tapar. O, Ural-Altay nəzəriyyəsini nə təsdiqləyir, nə də rədd edir, sadəcə ciddi metodoloji iş aparılmadan bu barədə hökm verməyin qeyri-elmi olduğunu vurğulayır.

Çobanzadənin elmi qənaəti budur: **"Türk ləhcələrinin öyrənilməsi dünya dilçilik elminin ən mürəkkəb və hələ tamamlanmamış sahəsidir, bu sahənin inkişafı üçün sistemli, tarixi və metodoloji əsaslara söykənən yeni mərhələ lazımdır".**

* * *

**Nikolas Poppe "Altay dillərinin qarşılıqlı qohumluğu məsələsinin tarixi və müasir vəziyyəti"** mövzusunda etdiyi məruzəsində türk və monqol dillərinin tarixi və müasir vəziyyətini təhlil edir: "Altay – türk, monqol və tunqus dilləri mürəkkəb bir inkişaf yolu keçmişdir. Rahat və təhlükədən kənar olmayan bu yolu seçənlər dəfələrlə dərinliklərə varmış və uzun sürən çıxılmazlıqlardan yol taparaq yenidən tədqiqatlara davam etmişlər. Poppe Altay dillərinin müqayisəli tədqiqi tarixini 2 mərhələyə ayırır:

I mərhələ – Altay dillərinin müstəqil bir dil qrupu kimi qəbul olunmadığı və tədqiqatçılar tərəfindən Ural-Altay dil ailəsinin üzvü kimi tədqiq etdikləri – Ural-Altay adlandırılan dövr;

II mərhələ – Ural-Altay dil qrupundan ayrı, xüsusi bir qrup kimi xarakterizə olunduğu dövr.

Hər şeydən əvvəl, Ural-Altay dilləri arasındakı qohumluq əlaqəsindən danışarkən, tədqiqatçılar fin-uqor, Ural dil qruplarını deyil, ilk növbədə, türk və monqol, həmçinin tunquz dillərinin bir-birilə əlaqəli şəkildə təhlili istiqamətində daha dəqiq işlər görmüşlər. Lakin bu, məhz II mərhələnin müqayisəli Altay dilçiliyinin başlanğıcını təşkil etdiyini söyləməyə əsas vermir. I dövrün müqayisəli Altay dilçiliyi üçün əhəmiyyəti olmadığını söyləmək düzgün deyil, ədalətsizlik olar – bu, hazırlıq mərhələsi idi. Məhz həmin dövr tədqiqatçılarının səhvləri, yanlış qənaətləri yeni məktəbin araşdırmaçıları üçün tərbiyəvi rol oynadı.

Dil baxımından yaxınlaşdırdığı xalqları ümumi şəkildə "tatar" adı altında birləşdirən Stralenberq onları 6 qrupa ayıraraq ilk təsnifatını verir:

***1. Uyğurlar (fin-uqor xalqları, barabinlər, hunlar)***

***2. Türk-tatar***

***3. Samoyedlər***

***4. Monqol və mancurlar***

***5. Tunquslar***

***6. Xəzər və Qara dəniz arasında məskunlaşan tayfalar***

Poppe qeyd edir ki, bu təsnifat sonrakılara uyğun gəlmir və bir çox hissəsi düzgün deyil, bəzi hallarda faktiki olaraq fərqli qruplara aid tayfalar bir qrupa daxil edilmişdir. Lakin buna baxmayaraq, I təsnifat kimi xüsusi diqqət çəkir.

Rasmus Rask Stralenberq tərəfindən birləşdirilmiş dillərə Qrelandiya, Amerika, Asiya, Avropa, Qafqaz, həmçinin İspaniya xalqlarının dillərini əlavə etməklə "skiflər" adı altında təsnifatını vermişdir. Beləliklə, tunquslar, monqollar, türklər, fin-uqor xalqları ilə yanaşı, Qrelandiya, dağlı tayfaları, İspaniya, Avropanın digər ölkələrindən silinmiş yafəs nəslinin nümayəndələri "skif" xalqlarına daxil edilmişdir.

O, keçən əsrin ortalarına doğru, ümumiyyətlə, dilçilik elminin böyük nailiyyətlər əldə etdiyini xüsusi vurğulayaraq məruzəsinə davam edir: "Dillərin müqayisə prinsipləri formalaşmış, Hind-Avropa müqayisəli dilçiliyi yaradılmışdı. Dilçilik sahəsində V.fon Humboldtun "tatar" və "skif" dillərinin qohumluğu nəzəriyyəsinə əhəmiyyətli dərəcədə təsir göstərən tədqiqatları həmin dövrə aiddir. Hind-Avropa dillərinin flektiv quruluşundan fərqli olaraq, bu dillərin ən səciyyəvi xüsusiyyətlərindən biri aqlütinativ dil quruluşuna malik olmaları xarakterik xüsusiyyətlərindən biridir. Məhz bu xüsusiyyətlərə əsaslanaraq, M.Müller sait səslərin ümumi ahəng qanunu ilə birləşən dillər sırasına şam, Tibet, Cənubi Hind və Malay arxipelağı dillərini daxil etmiş və bu dil qrupunu "Turan dilləri" adlandırmışdır".

Poppe qeyd edir ki, mahiyyət etibarilə, turanizmi yeni nəzəriyyə adlandırmaq olmaz. Ümumilikdə bu nəzəriyyə Hind-Avropa, semit, Çin dilləri istisna olmaqla, bütün Asiya və Avropa dillərini birləşdirərək Raskın "skif" nəzəriyyəsi ilə üst-üstə düşür. Lakin məsələyə daha geniş miqyasda baxılması ilə fərqlənir. Qeyd etmək lazımdır ki, M.Müller bu dillərin bir-biri ilə qohumluğunu zəif hesab etmiş, "Turan dilləri ailəsi" ifadəsinin əvəzinə "Turan dil qrupu" işlətmişdir".

Onun fikrincə, "turan dilləri" termini turan torpaqlarına birbaşa işarə edir. Turan dillərinin dəqiq sərhədləri müəyyənləşdirilməmişdir. Elə bu səbəbdən də "Turan dilləri" anlayışının dairəsi get-gedə genişlənmiş və az sonra bəzi qədim dilləri, o cümlədən akkad dilini də əhatə etmişdir. Poppe qeyd edir ki, həmin dövrdə müqayisəli fin-uqor dilçiliyi yeni formalaşmağa başlamış və Bötlinq tərəfindən türk dillərinin müqayisəli qrammatikasının əsası təzə qoyulmuş, digər dillər, o cümlədən monqol dili də hələ tədqiq edilməmişdir.

Tanınmış alim Kastren Ural-Altay dillərinin qohumluğu ilə əlaqədar aparılan tədqiqatlardan fərqli şəkildə, həmkarlarının əksinə olaraq, eşitmək və ya istinad etməklə deyil, şəxsi araşdırmaları ilə elmə düzgün istiqamət vermişdir. Poppe bildirir ki, geniş miqyasda Ural-Altay dillərinin müqayisəli tədqiqinə Şott tərəfindən başlanılmışdı. Özündən əvvəlki tədqiqatçılara və müasirlərinin əksinə olaraq Şott, Ural-Altay dillərinə məxsus bəzi ümumiləşdirmələr üzərində deyil, leksik materiallar arasındakı uyğunluqla yanaşı, Ural-Altay dillərinin morfologiyasını da diqqətdən kənar qoymadan nəticələr əldə etmişdir.

Poppe onun bu sahədəki xidmətlərindən danışarkən qeyd edir ki, bu dillər üçün bir sıra fonetik qanunlar çox düzgün müəyyən etmişdir. Məsələn, r-z, l-ş səslərinin uyarlığı Altay dil ailəsi üçün, o cümlədən çuvaş dilinə xarakterik olan qanunauyğunluqlar onun tərəfindən düzgün müəyyən edilmişdir. Bu xüsusda çuvaş dilinin türk dili olduğunu ilk dəfə elmi şəkildə əsaslandırmışdır.

**(ardı var)**

***Nadir MƏMMƏDLİ,***
***AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru,***
***filologiya elmləri doktoru, professor***

*Günün çağırışı*

**Dünyada iqlim dəyişmələri nəticəsində havanın orta temperaturu artır, buxarlanma çoxalır, yağıntıların miqdarı azalır, təbii olaraq, su ehtiyatları da azalır. Bu gün dünyanı narahat edən problemlərdən biri də qlobal istiləşmədir. Hazırda dünya qlobal istiləşmə təhlükəsi və mövcud təbii su ehtiyatlarının quruması kimi çox təhlükəli vəziyyətlə qarşı-qarşıyadır. Bütün ölkələr iqlim dəyişmələrinin fəsadlarına qarşı tədbirlər görür. Ölkəmizdə də bu sahədə araşdırmalar, təhlillər və qiymətləndirmələr aparılır.**

Sudan qənaətlə istifadə və su mənbələrinin mühafizəsi prioritet sahələrdəndir. Gələcəkdə ciddi su qıtlığı problemi ilə üzləşməmək üçün su təchizatı qurğularında və məişətdə su itkilərinin qarşısı alınmalı, müasir texnologiya və suya qənaət edən avadanlıqdan istifadə edilməli, içməli sudan texniki məqsədlər üçün istifadə məhdudlaşdırmalıdır.

# Su israfçılığı mənəvi cinayətdir

## *Bu həyat mənbəyini qorumalı və qənaətlə işlətməliyik*

Ölkəmizdə əhalinin keyfiyyətli içməli su ilə təmin edilməsi və suvarma suyu ilə təminat sosial siyasətin əsas hədəflərindəndir. Ölkə başçısının rəhbərliyi ilə bununla bağlı son illərdə ciddi layihələr reallaşdırılmış və qarşıya hədəflər qoyulmuşdur. Su ehtiyatlarından səmərəli istifadə, əhalinin içməli su ilə təminatı, tullantı və lay sularının idarə olunması, su ehtiyatlarının tullantılardan mühafizəsi istiqamətində bir sıra işlər görülmüşdür.

Regionlarda, eləcə də Bakı şəhəri və Abşeron yarımadasında genişmiqyaslı layihələr həyata keçirilmişdir. Ölkə əhalisinin içməli su ilə təmin edilməsi üçün boru kəmərlərinin çəkilişi və təmizləyici qurğuların qurulması üzrə irimiqyaslı layihələr icra edilmiş, eyni zamanda, mərkəzləşmiş kanalizasiya sistemlərinin yenidən qurulmuş, yeni kanalizasiya şəbəkələri çəkilmiş, mövcud tullantı sutəmizləyici qurğuları modernləşdirilmiş və yeniləri inşa olunmuşdur.



2025-ci il ərzində Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti su ehtiyatlarının səmərəli idarə olunması, əhalinin dayanıqlı içməli su təchizatı, tullantı və yağış sularının daşınması istiqamətində mühüm layihə və tədbirlərin icrasını davam etdirib. Bu barədə qurumun mətbuat xidmətindən aldığımız məlumata görə, il ərzində paytaxtda və digər regionlarda içməli su təchizatı və kanalizasiya sistemlərinin qurulması, yenilənməsi üzrə genişmiqyaslı tikinti-quruculuq işləri həyata keçirilib.

Bir sıra yaşayış məntəqələrində istimar müddəti bitmiş su xətləri “Sutikinti” MMC və yerli sukanal idarələri tərəfindən mərhələli şəkildə yeniləri ilə əvəz olunub. Yeni magistral və paylayıcı xətlərin çəkilməsi istiqamətində layihələrin 2025-ci il üçün planlaşdırılan işləri yekunlaşmaq üzrədir. Bu ildən layihələrin plan üzrə davam etdirilməsi nəzərdə tutulur.

Tikilməkdə Olan Obyektlərin Müdiriyyəti tərəfindən bu ilin 12 ayı ərzində Bakı şəhəri və Abşeron rayonu üzrə 10,4 kilometr magistral su xətti, 91,11 kilometr şəbəkə su xətti, 38 kilometr su ev birləşməsi, 33,49 kilometr kanalizasiya xətti, 16,13 kilometr kanalizasiya ev birləşmələri xətləri, 19,93 kilometr kanalizasiya kollektoru və 17,27 kilometr təzyiqli kanalizasiya kollektor xətti, o cümlədən mikrotunel və yağış suyu xətləri çəkilib.

Ceyranbatan–Abşeron–Balaxanı–Ramana–Zirə–Pirallahı magistral su kəmərinin və həmin kəmər boyu yerləşən mərkəzi anbarların tikintisi, Ağ Şəhər, Sumqayıt şəhəri “Acı dərə” kanalının trassası boyu kanalizasiya və yağış sularının idarə olunması sisteminin yaradılması, Ramana, Şüvəlan, Şağan, Bilgəh, Goradil, Badamdar, Binə, Novxanı, Zabrat, Buzovna qəsəbələrinin bir hissəsinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihələri çərçivəsində tikinti-quruculuq işləri plan üzrə icra edilir.

Həmçinin cari il ərzində tullantı sularının idarə olunması sahəsində də mühüm addımlar atılıb. Mövcud kanalizasiya şəbəkələrinin ötürücülük qabiliyyətinin artırılması, tullantı sularının maneəsiz şəkildə daşınması və subasma hallarının qarşısının alınması məqsədilə yeni kollektor və xətlərin inşasına başlanılıb. Dərnəgül-Bakıxanov-Qaraçuxur-Hövsan kanalizasiya kollektoru, Lökbatan hövzəsi üzrə gətirici kanalizasiya kollektoru və tullantı sular üçün sutəmizləyici qurğu, Müşfiqabad hövzəsi üzrə gətirici kanalizasiya kollektoru və tullantı sular üçün sutəmizləyici qurğu, Sahil kollektoru, Zığ-Hövsan kanalizasiya kollektorunun qurulması istiqamətində tikinti-quruculuq işləri icra olunur. Bu layihələr tullantı sularının idarə edilməsinə, ekoloji vəziyyətin yaxşılaşdırılmasına xidmət edəcək.

Su sərfiyyatının dəqiq hesabatının aparılması, itkilərin qarşısının alınması, istehlakın tənzimlənməsi və ödənişlərin şəffaf şəkildə hesablanması məqsədilə sayğaclar quraşdırılıb və yenilənib. İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətinin Nəzarət Ölçü Cihazları İdarəsi ötən il əhali üzrə 26 min 975, qeyri-əhali üzrə 2 min 279, ümumilikdə 29 min 254 sayğac quraşdırıb. İl ərzində əhali üzrə 59 min 354, qeyri-əhali üzrə 4 min 891, ümumilikdə 64 min 245 sayğac dəyişdirilib.

“ASAN xidmət”, “ASAN kommunal” mərkəzlərinə və KOB Evlərinə 11 ay ərzində 180 min 126 müraciət daxil olub, 172 min 428 müraciətə xidmət göstərilib, 7 min 698 sakinə sənədləri tam şəkildə təqdim etməyin vacibliyi izah edilib.

Respublika üzrə 24 saat fasiləsiz xidmət göstərən “955” Zəng Mərkəzinə il ərzində 694 min 178 müraciət daxil olub, 250 min 980 iş əmri açılıb, 249 min 341-i icra olunub, 1518-i müraciət icradadır. Müraciətlərin bir qismi yerindəcə öz həllini tapıb. Çağrı Mərkəzi ADSEA və tabeli qurumların sosial şəbəkə hesabları, votsap, onlayn çat, səsli mesaj vasitəsilə daxil olan müraciətləri qəbul edir, aidiyyəti üzrə yönləndirir, araşdırılaraq cavablandırılmasını və icrasını nəzarətdə saxlayır.

Paytaxtla yanaşı, Sumqayıt, Gəncə, Şirvan, Mingəçevir və Naxçıvan şəhərlərində də mühüm layihələr üzrə işlər icra edilib. 2025-ci il ərzində Sumqayıt şəhəri, Corat və Novxanı qəsəbələri, həmçinin bağ massivləri və istirahət mərkəzlərindən Xəzər dənizinə axıdılan tullantı suların qarşısını almaq məqsədilə 15,2 kilometr uzunluğunda Novxanı-Sumqayıt kanalizasiya kollektoru inşa edilib, dənizə birbaşa çıxışı olan kanalizasiya xətləri bu kollektora birləşdirilib, 2 ədəd kanalizasiya nasos stansiyası tikilib.

Azərbaycan və Avropa Yenidənqurma və İnkişaf Bankı arasında imzalanmış “Gəncə şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması” layihəsi çərçivəsində 58,2 kilometr magistral, 309 kilometr içməli su və 324 kilometr kanalizasiya xətti çəkilib. Eyni zamanda, büdcə vəsaiti hesabına isə 61 kilometr uzunluğunda müxtəlif ölçülü içməli su və 56 kilometr kanalizasiya şəbəkə xətti çəkilərək abonent birləşmələri verilib. Digər şəhərlər üzrə də tikinti-bərpa işləri aparılıb.

İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətinin Mərkəzi Laboratoriyasında Bakı şəhərinin həm mərkəzi su anbarlarından, həm də məhəllədaxili anbarlardan gündəlik götürülən su nümunələri əsasında mütəmadi analizlər aparılıb. Analizlər 65 içməli su və 59 tullantı su parametri üzrə həyata keçirilib. İçməli su və tullantı su təchizatına yeni qoşulma qaydalarına əsasən il ərzində 2500 vətəndaşa Texniki şərt verilib. Xidmət tərəfindən 12 ay ərzində 2 mediatur və 5 mətbuat konfransı keçirib. 2500-dən çox media sorğusuna cavab verib.

***Mustfi dK AMAL***
***XQ***

*Ekspert rəyi*

**Rövşən ABBASOV,**
**coğrafiya üzrə fəlsəfə doktoru**



Son 100–150 il ərzində dünya miqyasında kütləvi urbanizasiya prosesi həyat səviyyəsinin yüksəlməsi, iri şəhərlərin sürətlə böyüməsi və yeni şəhərlərin formalaşması ilə xarakterizə olunur. Əhali getdikcə daha çox iri şəhərlərdə cəmləşir və bu proseslə paralel olaraq ərzağa və digər əsas kənd təsərrüfatı məhsullarına olan tələbat sürətlə artır. Bu isə, öz növbəsində, su ehtiyatlarına olan tələbatın kəskin şəkildə artmasına səbəb olur.

Orta ölçülü şəhərlərdə gündəlik adambaşına su tələbatı təqribən 150 litr qəbul edilir ki, bu da kifayət qədər böyük göstəricidir. Şəhər əhalisinin şəxsi istifadəsinə düşən bu suya qida istehlakı, qabların və paltarların yuyulması, məişət təmizliyi, şəxsi gigiyena və digər gündəlik fəaliyyətlər daxildir. Məsələn, keçmişdə şəhər mühitində insanlar sudan nisbətən az istifadə edirdilər. Müasir dövrdə isə su istehlakı artıb.

Eyni zamanda, kənd təsərrüfatı məhsullarının istehsalı da sürətlə genişlənir. Dünya əhalisinin 10 milyarda yaxınlaşması fonunda əhalinin ərzaqla təmin edilməsi əsasən suvarma əkinçiliyi hesabına mümkün olur. Suvarma tələb edən kənd təsərrüfatı sahələrində çoxsaylı məhsullar yetişdirilir və bu məhsullar iri şəhərlərə daşınır. Nəticə etibarilə, əgər 200 –300 il əvvəl su əsasən içməli məqsədlər üçün istifadə olunurdusa, bu gün su demək olar ki, bütün iqtisadi və sosial fəaliyyətlərin əsasını təşkil edir.

Həyat səviyyəsinin yüksəlməsi ilə əlaqədar olaraq adambaşına düşən su tələbatı da davamlı şəkildə artır. Bu proses iqlim dəyişmələri fonunda daha da kəskin xarakter alır. Məsələn, Azərbaycanda su ehtiyatları təxminən 20 faizə qədər azalıb. Çayların su həcmi əvvəlki dövrlərlə müqayisədə xeyli azalıb, yağıntıların miqdarı isə aşağı düşüb. Bu vəziyyət torpağın və bitkilərin suya olan tələbatını daha da artırıb.

Bütün bu amillər sudan qənaətli istifadənin zəruriliyini ön plana çıxarır. Xüsusilə nəzərə alsaq ki, Azərbaycanda su mənbələrindən götürülən suyun orta hesabla təxminən 50 faizi itkiyə məruz qalır, problemin miqyası daha aydın görünür. Su kanallar və boru sistemləri vasitəsilə daşınarkən ciddi itkilər baş verir ki, bu da mövcud resurslardan səmərəsiz istifadə deməkdir.

Bundan əlavə, Azərbaycan aşağı axın ölkəsi hesab olunur. Bu o deməkdir ki, Kür və Araz çaylarının yuxarı axınında yerləşən Gürcüstan, Ermənistan və İran kimi ölkələrdə sudan istifadə üzərində Azərbaycanın nəzarət imkanları məhduddur. Həmin ölkələrdə suya olan tələbatın artması nəticəsində respublikamıza daxil olan suyun həcmi getdikcə azalır. Məsələn, Gürcüstanda Kür çayı üzərində, təxminən, 10-a yaxın su anbarının, Ermənistanda isə irili-xırdalı 120-yə yaxın su anbarının tikilməsi planlaşdırılır ki, bu da Azərbaycanın su təhlükəsizliyi üçün ciddi risk yaradır.

Digər tərəfdən, ölkə daxilində suvarılan əkin sahələri də sürətlə genişlənir. 2010-cu ildə suvarılan torpaq sahələri təxminən 800 min hektar təşkil edirdisə, bu göstərici hazırda 1,7 milyon hektara yaxınlaşıb. Belə sürətli artım şəraitində su qıtlığının yaranması qaçılmazdır və mövcud vəziyyət getdikcə daha narahatedici hal alır.

Bu risklərə cavab olaraq ölkəmizdə Milli Adaptasiya Proqramı çərçivəsində bir sıra tədbirlər həyata keçirilir. Xüsusilə, su itkilərinin azaldılması məqsədilə irimiqyaslı infrastruktur layihələri icra olunur. Şirvan kanalının bərpası həyata keçirilir, Qarabağ kanalının isə əsaslı təmir olunması planlaşdırılır. Bu kanallar əvvəllər böyük həcmdə su itkisinə səbəb olurdu. Hazırda betonlaşdırma və yenidənqurma işləri vasitəsilə həmin itkilərin qarşısının alınması hədəflənir. Kanal yenidən inşa edilir və bu, çoxmilyonluq investisiya birbaşa Azərbaycanın su təhlükəsizliyinin təmin olunmasına yönəlib.

*XQ-yə yazırlar*

# Məhəllələr niyə dayanacağa çevrilir?

## *Qayda olmayanda hər kəs özünü haqlı sayır*

**Məhəllələr, bəlkə də, kimlərsə üçün adi görünən bu boz küçələr uşaqların oyun meydançasıdır. Onlar sərhəd tanımayan xəyalları ilə daş asfaltı yaşıl çəmənliyə çevirir, hasarları aşır, topun ardınca qaçarkən qayğısız dünyalarında bir qəhrəman olurlar. Məhəllələr xatirələrin, tanış səslərin, doğma insanların məkanıdır. Nəsillərdən-nəsillərə ötürülən bu dəyərlər bizə həmişə belə öyrədilib.**

Redaksiyamıza ünvanlanan məktubda isə bu mənzərənin tədricən necə dəyişdiyi təsvir olunur. Sakinlər bildirirlər ki, Xırdalan şəhəri, Səttar Bəhlulzadə küçəsi ağırtonnajlı yük maşınlarının və TIR qoşqularının dayanacağına çevrilib. Dar məhəllə yolu gün ərzində bu nəhəng nəqliyyat vasitələri tərəfindən tutulur. Bu zaman həm hərəkət iflic olur, həm də uşaqlar və piyadalar üçün real təhlükə yaranır.

Oxucularımız bu haqda ürək ağrısı ilə yazırlar. Qorxurlar ki, bir anlıq diqqətsizlik və ya məsuliyyətsizlik faciələrə səbəb olar.

**Məhəllə sakini İmam Şabanov yazır ki, dəfələrlə aidiyyəti qurumlara müraciət ünvanlayıb:**

– Səttar Bəhlulzadə küçəsində, xüsusilə 7 saylı məktəbin qarşısındakı yolun hər iki tərəfi ağırtonnajlı nəqliyyat vasitələri ilə doludur. Əvvəllər burada yalnız bir-iki yük maşını olardı, indi isə bütün maşınlar bura gətirilir və bir neçə gün, hətta həftələrlə saxlanılır. Bəziləri yolun əks istiqamətində, qarşılıqlı vəziyyətdə park edir, bu isə sıxlığı daha da artırır.

Məsələni daha da mürəkkəbləşdirən odur ki, bəzi maşınların kabinə hissəsi götürülür, yalnız qoşqusu saxlanılır. Belə vəziyyətdə əyləc bağlanmasa və ya qismən işləsə, qoşqu öz-özünə sürüşər. Dar küçədə yerləşdiyinə görə, insanlara xəsarət yetirə bilər.

Mən Abşeron Rayon İcra Hakimiyyətinə və Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinə (AYNA) məktub yazmışdım ki, tədbir görülsün. Aldığım cavablardan məlum oldu ki, məktəbin yuxarısı və ətrafına yük maşınlarının dayanmasının qadağan edilməsi ilə bağlı yol nişanları quraşdırılacaq. Təəssüf ki, hələ də heç bir tədbir görülməyib.

**Təhlükəsizlik məsələləri üzrə ekspert Orxan Musayev qeyd etdi ki,** məhəllələr



sakinlər üçündür, yük maşınlarının isə xüsusi saxlanma yerləri var:

– İrihəcmli və ağır çəkili yük nəqliyyat vasitələri şəhərdaxili yaşayış infrastrukturu üçün nəzərdə tutulmayıb. Bu tip nəqliyyat vasitələrinin məhəllələrdə və dar küçələrdə saxlanılması yol hərəkətinin təhlükəsizliyi, ictimai asayiş və vətəndaşların gündəlik həyat şəraiti baxımından yolverilməzdir.

TIR (Beynəlxalq Yük Daşımaları) qoşquları hündür olduğundan azyaşlılar üçün ciddi təhlükə mənbəyidir. Məhəllələrdə oynayan uşaqlar bu qoşqulara dırmaşmağa cəhd göstərə, nəzarətsiz şəkildə hündürlükdən yıxılaraq ağır bədən xəsarətləri, baş və onurğa travmaları ala bilərlər. Bundan əlavə, qoşquların təkərləri və alt hissəsi böyük olduğu üçün bəzən sürücülər



arxa tərəfi görməyə bilər, bu da bədbəxt hadisələrə səbəb olar.

Digər mühüm məsələ yol-nəqliyyat təhlükəsizliyinin pozulmasıdır. Məhəlləddaxili yollar əsasən minik avtomobilləri, piyadaların hərəkəti üçün əlverişlidir. Dar küçələrdə yolun bir hissəsinin tutulması avtomobillərin sərbəst hərəkətinə maneə yaradır, ictimai nəqliyyatın və şəxsi avtomobillərin hərəkətini çətinləşdirir. Ağırtonnajlı TIR qoşqularının bu ərazilərdə saxlanılması yol nişanlarının görünməsinə də mane olur və manevr imkanlarını əhəmiyyətli dərəcədə azaldır. Nəticədə, yol-nəqliyyat hadisələrinin başvermə ehtimalı artır. Xüsusilə gecə saatlarında və işıqlandırmanın zəif olduğu ərazilərdə bu risklər daha çoxdur.

Ən təhlükəli məqam isə fövqəladə hallarla bağlıdır. Yanğın, təcili tibbi yardım və digər operativ xidmətlərin hadisə yerinə vaxtında çatması yolun açıq olmasından birbaşa asılıdır. Ağır yük nəqliyyat vasitələrinin məhəllələrdə saxlanılması bu xidmətlərin də hərəkətini ləngidə bilər. Mövcud normativ tələblərə baxsaq, görərik ki, ağırtonnajlı yük nəqliyyat vasitələri üçün xüsusi ayrılmış dayanacaq və parklanma zonaları var. Yəni bu nəqliyyat vasitələri üçün yer müəyyən olunub. Ona görə də yaşayış binalarının birbaşa yaxınlığında saxlanılması yol hərəkəti təhlükəsizliyi qaydalarına da, şəhərsalma prinsiplərinə də ziddir və normal hal hesab oluna bilməz.

Bu cür halların qarşısının alınması məqsədilə müvafiq icra və nəzarət orqanları tərəfindən monitorinq tədbirlərinin gücləndirilməsi, sürücülər arasında maarifləndirmə işlərinin aparılması və ağırtonnajlı yük nəqliyyat vasitələrinin yalnız bunun üçün nəzərdə tutulmuş ərazilərdə saxlanılmasının təmin edilməsi vacib hesab olunur.

**Nəqliyyat məsələləri üzrə ekspert Aslan Əsədov isə bildirdi ki,** bu vəziyyətdə



nə sürücünü, nə də sakinləri təqsirləndirmək doğru deyil. Əsas çatışmazlıq yol nişanlarının olmamasıdır:

– Əgər adıçəkilən nəqliyyat vasitəsi yolu zəbt edirsə və ya yol hərəkətinin digər iştirakçıları üçün real maneə yaradırsa, məsələ yol hərəkəti qaydaları çərçivəsində qiymətləndirilməlidir. Lakin söhbət şəxsi əmlakdan, yəni fiziki şəxsə məxsus nəqliyyat vasitəsindən gedir. Avtomobillə bağlı hər hansı hüquqi mübahisə, şikayət və ya tələbin hüquqi müstəvidə həlli məhz Dövlət Yol Polisi vasitəsilə həyata keçirilməlidir. “Bu nəqliyyat vasitələri niyə xüsusi dayanacaqlarda saxlanılmır?” sualı göründüyü qədər sadə deyil. Həmin avtomobillər konkret şəxslərə məxsusdur, texniki baxışdan keçirilir və qanunvericilikdə nəzərdə tutulan tələblərə uyğun istismar olunur. Dövlət Yol Polisi yalnız dayanma və durmanın qadağan edildiyi ərazilərdə saxlanma faktı aşkar edildikdə inzibati cərimə tətbiq edə bilər.

Ancaq vətəndaşların sürücülərə hər hansı bir tələb irəli sürməsi hüquqi əsasdan məhrumdur. Çünki bu zaman avtomobilin saxlanılmasına dair məsuliyyət məsələsi ortaya çıxır. Dayanacağın təhlükəsizliyinə kim zəmanət verəcək, həmin ərazidə saxlanma üçün ödəniş tələb olunarsa, bunun məsuliyyəti kimə aid olacaq, avtomobilə zərər dəyərsə və ya hər hansı xoşagəlməz hadisə baş verərsə, cavabdeh kim olacaq?

Məhz bu suallar göstərir ki, məsələ yalnız yol hərəkəti qaydalarının pozulması ilə məhdudlaşdığı halda inzibati tədbirlərin tətbiqi mümkündür. Əgər konkret qayda pozuntusu yoxdursa, bu artıq hüquqi münasibətlər müstəvisinə keçir və şəxsi mülkiyyətin toxunulmazlığı prinsipi ön plana çıxır.



Problemlə bağlı Baş Dövlət Yol Polisi İdarəsinə müraciət etdik. Qurumdan bildirildi ki, məsələ Abşeron Rayon Dövlət Yol Polisi İdarəsinə yönləndirildi və tezliklə həllini tapacaq.

Qeyd edək ki, oxşar hallar yalnız sözügedən ərazi ilə məhdudlaşmır. Şəhərin bir çox yerində də belə hallara rast gəlinir. Lakin görüləcək ardıcıl tədbirlər nəticəsində gözəl şəhərimiz daha rahat və təhlükəsiz məkana çevriləcək.

***Fidan ƏLİYEVA***
***XQ***

*Türk elləri*

# Çağdaş türk dilləri ailəsi

**Dillərin təsnifinin məqsədi bütün dünya dillərini qruplaşdırmaq, onların mənimsənilməsini asanlaşdırmaq, hər dilin dünya dilləri sistemində yerini dəqiqləşdirməkdən ibarətdir. Dünya dillərinə aid qruplaşdırma və nəticələrə dair ümumiləşdirmələr aparılması dillərin hərtərəfli tədqiqi üçün geniş imkanlar yaradır. Buna görədir ki, dillərin öyrənilməsində genealoji təsnifdən tarixən geniş şəkildə istifadə olunub. Qədim Şərq dilçiliyində XI əsrdə Mahmud Qaşqarlı, ilk dəfə olaraq, türk dillərinin təsnifini verib. O, türk dillərini mənşəyinə görə qruplaşdırmağı zəruri hesab edib.**



Dillərin qruplaşdırılmasında yaranma tarixinə, məzmun və mündəricəsinə görə coğrafi, tipoloji, stadial, funksional və genealoji təsnif diqqəti daha çox cəlb edir. Genealoji təsnif dilləri mənşə ümumiliyinə görə qruplaşdırır. Burada dillərin genetik birliyi, tarixi, bir-birinə qarşılıqlı münasibəti nəzərə alınmaqla qohumluğu müəyyənləşdirilir.

Material ümumiliyinə, genetik ortaqlığa malik olan dillər qohum hesab edilir, bir kökə mənsub olur. Dillərin qohumluğu fonetik, leksik, morfoloji və sintaktik oxşar və yaxın əlamətləri əsasında müəyyənləşdirildiyindən bütün komponentlərdə özünü göstərir. Dillərin qohumluğu müəyyən edilərkən təsadüfi halları deyil, dilin özünəməxsus xüsusiyyətlərini müqayisə etmək üçün onun qədim tarixinə nəzər salınır, oradan dilin özünə aid faktlar götürülür və başqa dillərlə müqayisə edilir.




Genealoji bölgüyə görə, müəyyən qohum dillər birlikdə dil ailəsini təşkil edir. Mövcud olan iyirmidən çox dil ailəsindən biri də türk dilləri ailəsidir. Altay dilləri tərkibində ən böyük dil ailəsi türk dilləridir. 23 dili əhatə edən bu dil qrupu bir sıra fonetik, leksik və qrammatik xüsusiyyətləri ilə başqalarından seçilir.

Türk dillərini dünya dillərindən fərqləndirən ən başlıca səciyyəvi xüsusiyyətlər: türk dillərində sait və samit fonemlərin fonetik cəhətdən mövqeyinin sadəliyi; bu dillərdə "e" qovuşuq səsinin və "nq" sağır nunun mövcudluğu; ahəng qanununun olması; heca vurğusunun sözün son hecası üzərinə düşməsi; şəkilçiləşmə xarakterinə malik olması və s.

Hazırda planetimizdə 300 milyona yaxın türksoylu insan yaşayır. Türk coğrafiyası – türklərin yaşadıqları ərazilər dünyanın olduqca böyük və geniş sahəsini əhatə edir. Yer üzündə türklər qədər geniş yayılmış ikinci bir milləti təsəvvür etmək çətindir. Dünyanın hər yerində türk insanları yurd salıb həyat sürürlər. Müasir Türk dünyası ucsuz-bucaqsız coğrafiyaya malikdir.

Türk xalqlarının əcdadları, ulu babaları miladdan əvvəl, iki min il bundan öncə Orta Asiyada yaşamışlar (bu haqda da müxtəlif fikirlər var), türklərin beşiyi, məskunlaşma mərkəzi Altay dağlarının şimalı və Yenisey çayının sahilləri olmuşdur. Həmin ərazilərdə bu gün də türk xalqları yaşayır. Türksoylu xalqların bəziləri bu qədim türk yurdlarında öz mövqelərini möhkəmlətmiş və oralara daha sıx bağlanmışlar.

Türklərin dünyaya yayılmasının tarixi eradan əvvəl Hun türklərindən başlamışdır. Ötən müddətdə türklər planetin dörd qütbünə yayılmışlar. Onlar Şərqdə Sakit okeana, qərbdə Avropanın mərkəzlərinə, şimalda Uzaq Sibirə, cənubda isə Hindistana qədər gedib çatmışlar. Türk boylarının başqa yerlərə yayılması müxtəlif dövrlərdə baş vermişdir. Türklərin Qafqaz ərazilərinə gəlmələri onlar üçün böyük əhəmiyyət kəsb etmişdir. Belə ki, Cənubi və Şimali Qafqaz bəzi türk tayfalarının başqa yerlərə, o cümlədən Kiçik Asiya və Avropaya keçməsində imkanlı bölgə, əlverişli yol olmuşdur. Azərbaycan ərazisinə türklərin gəlişi miladdan əvvəl VII əsrdən başlamışdır. İlk dəfə Azərbaycana sakalar (isteklər) gəlmiş və bu bölgədə uzun illər yaşamışlar. Onlardan sonra buraya gələnlər türk mənşəli albanlar olmuşlar. Uzun sürən alban hakimiyyətini midiyalılar əvəz etmişdir. II əsrdən Azərbaycan bölgəsinə hun türkləri, sonra xəzərlər, V əsrdə sabirlər və başqaları gəlmişlər. VI–VIII əsrlərdə – Göytürk hakimiyyəti illərində (552-744) Orta Asiyadan bir sıra türk tayfaları Azərbaycana gəlmişlər.

Müasir türkdilli xalqlar Orta Asiyada (Qırğızıstanda, Özbəkistanda, Türkmənistanda, Qazaxıstanda), Uzaq Şərqdə, Çində, Qafqazda, Rusiyada, İranda, İraqda, Kiçik Asiyada–Türkiyədə yaşayırlar. Bundan başqa, ABŞ-da, Fransada, Almaniyada, İngiltərədə, İtaliyada və digər ölkələrdə də xeyli türk yaşamaqdadır. 260 milyonluq dünya türklərindən 50 milyondan çoxu azərbaycanlıdır. Azərbaycanlılar türk xalqları arasında əhalinin sayına görə ikinci yeri tutur.

Türk tarixinin 2 min 500 ili, faktik olaraq, yazılı abidələr əsasında sübut olunur. Belə bir abidə Esik qəsəbəsində "Qızıl paltarlı adam" qəbrindən tapılan yazılı gümüş tabadır. Türkoloqlar yazının (iki sətirdən ibarətdir) 2 min 500 il bundan əvvələ aid olduğunu müəyyənləşdirmişlər. Lakin müxtəlif ölkələrin elm adamları bu tarixin daha da əvvəllərə aid olduğunu (Max Plansk 10 min ilə yaxın), türk dilini dünyanın ilk dili olduğunu söyləmişlər.

Vaxtilə ünsiyyətə xidmət etmiş aşağıdakı türk dilləri indi ölü dillərdir: oğuz dili, peçeneq dili, qıpçaq dili, xəzər dili, poloves dili, bulqar dili, qədim özbək dili və s.

Hazırda ünsiyyət vasitəsi kimi aşağıdakı müasir türk dillərindən istifadə olunur: türk dili, Azərbaycan dili, altay dili, özbək dili, başqırd dili, salar dili, çuvaş dili, şor dili , xakas dili, qumuq dili, tatar dili, karaim dili, tofa dili, qaqauz dili, tuva dili, qaraçay-malkar dili, qaraqalpaq dili, türkmən dili, qazax dili, uyğur dili, qırğız dili, yakut dili, noqay dili.

Türk dillərinin tədqiqi ilə dünyanın bütün ölkələrində məşhur türkoloqlar məşğul olmuşlar. 1893-cü il dekabrın 15-də danimarkalı alim Vilhelm Tomsen ilk dəfə qədim türk yazılı abidəsi olan Orxon-Yenisey daş kitabələrindəki yazıları oxuması ilə bağlı Danimarka Kral Akademiyasında məruzə edib. İlk olaraq "Tanrı" və "türk" sözlərini oxumağa müvəffəq olan alim qədim türk yazı mədəniyyəti və əlifbası barədə kəşfi ilə dünya elminə dəyərli töhfə verib. Buna görə də, UNESCO-nun 3 noyabr 2025-ci il tarixində Səmərqənddə keçirilmiş 43-cü Ümumi Konfransında 15 dekabr Dünya Türk Dili Ailəsi Günü kimi elan edilib.

Bu mühüm təşəbbüs Türk dillərinin qədim köklərini, zəngin mədəni irsini və xalqlarımızı birləşdirən ümumbəşəri dəyərləri bir daha ön plana çıxarır. Mədəni və dil müxtəlifliyinin qorunmasında aparıcı rol oynayan UNESCO çərçivəsində belə bir günün təsis edilməsi, eyni zamanda, Türk dünyasının qlobal miqyasda artan nüfuzunun və ortaq kimliyinin təsdiqidir.



Dünya dillərinin ailələşməsi bəşəriyyətin mədəni zənginliyini və tarixi əlaqələrini əks etdirir. Türk dilləri isə böyük coğrafiyada yayılmış, qədim yazılı ənənəyə malik və canlı inkişaf potensialına sahib olan bir dil ailəsidir. Bu ailənin qorunması, öyrənilməsi və gələcək nəsillərə ötürülməsi UNESCO və türkdilli ölkələrin qarşısında duran strateji əhəmiyyətli vəzifədir.

***Həcər HÜSEYNOVA,***
***filologiya elmləri doktoru, professor***

*Elşad Qurbanov – 75*

**Azərbaycanı qarış-qarış gəzib, təbii floranı mükəmməl öyrənən istedadlı florist alim Elşad Qurbanov şüurlu həyatını bu torpağın bitki yaddaşını elmi düşüncə ilə qorumağa həsr etmişdir. O, kabinet alimi deyil, dağların sərt yamaclarında, yarımsəhraların yandırıcı istisində, meşələrin rütubətli dərinliklərində, çay kənarları və Alp çəmənliklərində uzunmüddətli çöl tədqiqatları aparmış, Azərbaycan florasını canlı halda öyrənmişdir.**

# Tanınmış botanik alim, nüfuzlu pedaqoq

Doğma torpağının bitki yaddaşını elmi düşüncə ilə qoruyan alim anlayışı təkcə bir botaniki və ya floristi deyil, bütöv ekoloji şüurun daşıyıcısını ifadə edir. Tanınmış botanik alim, AMEA-nın müxbir üzvü, biologiya elmləri doktoru, professor Elşad Qurbanov üçün bitkilər, sadəcə, sistematik vahidlər, herbari nümunələri və ya statistik göstəricilər deyil, onlar torpağın yaddaşı, iqlimin dili, tarixən formalaşmış təbii mədəniyyətin canlı arxividir.



Elşad Qurbanov 1951-ci ildə Qərbi Azərbaycanın Zəngəzur mahalının Qarakilsə (Sisian) rayonunun Urud kəndində anadan olmuşdur. 1968-ci ildə Naxçıvan Muxtar Respublikasının Aşağı Qışlaq kənd orta məktəbini, 1973-cü ildə Bakı 8 saylı tibb məktəbini və 1979-cu ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) biologiya fakültəsini fərqlənmə diplomları ilə bitirmişdir. Ali təhsilli botanik 1984-cü ildə botanika ixtisası üzrə biologiya elmləri namizədi, 2004-cü ildə biologiya elmləri doktoru elmi dərəcələrini, 2004-cü ildə professor elmi adını almış, 2014-cü ildə AMEA-nın müxbir üzvü seçilmişdir. Əmək fəaliyyətinə 1982-ci ildə Bakı Dövlət Universitetində baş laborant kimi başlayan Elşad müəllim 1992-ci ildə universitetin botanika və bitki fiziologiyası kafedrasının müdiri vəzifəsinə qədər yüksəlmişdir.

Bir florist alim kimi Elşad Qurbanovun əsas gücü yalnız bitkiləri tanımaqda deyil, onların mənşəyini, yayılma yollarını, tarixi inkişafını və ekoloji uyğunlaşmalarını dərindən öyrənməsində, ciddi elmi təhlillər aparmasındadır. O, endemik və relikt növlərin areallarını dəqiqləşdirmiş, bir çox nadir bitkilərin sistematik mövqeyinə aydınlıq gətirmiş, floristik əlaqələri regional və qlobal kontekstdə izah etmişdir. Topladığı minlərlə herbari nümunəsi bu gün də Azərbaycan botanika elminin qızıl fondu hesab olunur.



Professor Elşad Qurbanov 500-ə yaxın elmi əsərin (200-dək xaricdə), 17 dərslik, dərs vəsaiti və monoqrafiyanın, 70-dən çox proqram və metodik göstərişin, 15 ekoloji-geobotaniki xəritənin, 16 müəlliflik şəhadətnaməsinin, 1 patentin müəllifi, 28 kitabın elmi redaktorudur. Onun rəhbərliyi altında 60-dan çox magistrant, 18 biologiya üzrə fəlsəfə və 3 elmlər doktoru hazırlanmışdır.

Bioloq alim ADPU-nun nəzdindəki Müdafiə Şurasının üzvü, Respublika Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının botanika ixtisası üzrə Problem Şurasının üzvü kimi fəaliyyət göstərmişdir, BDU-nun biologiya fakültəsində botanika, mikologiya, mikrobiologiya və ətraf mühitin idarə edilməsi və bioloji monitorinq ixtisasları üzrə magistrantların Müdafiə Şurasının sədri, dekan və kafedra müdiri vəzifələrini tutmaq üçün yaradılmış seçki komissiyasının katibi, Böyük Elmi Şuranın üzvüdür, 2010-2014-cü illərdə Elmi Şuranın baş elmi katibi vəzifəsində çalışmışdır. Alim dəfələrlə beynəlxalq və yerli elmi konfrans, konqres və simpoziumlarda Azərbaycan elmini uğurla təmsil etmişdir.

Elşad Qurbanovun apardığı elmi-tədqiqat işlərinin mühüm nəticələri dəfələrlə Azərbaycan Milli Elmlər Akademiyasının illik hesabatlarına daxil edilmişdir. Alim 2016-cı ildə AMEA Biologiya və Tibb Elmləri Bölməsi Elmi Şurasının üzvü seçilmiş, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının biologiya və aqrar elmlər üzrə Ekspert Şurasının sədr müavini olmuşdur, 2023-cü ildən isə sədridir. 2017-ci ildən AR Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Bioloji Müxtəlifliyin Qorunması və Xüsusi Mühafizə Olunan Təbiət Ərazilərinin İnkişafı Departamentinin Elmi Şurasının üzvüdür.

Azərbaycan Respublikasının "Qırmızı kitab"ının II və III nəşrlərinin hazırlanması üzrə redaksiya heyətinin üzvü və əsas tərtibçilərdən biri olmuş Elşad müəllimin fəaliyyətində bu milli nəşr, sadəcə, siyahı və status məsələsi deyil. Nadir və nəsli kəsilməkdə olan növlər onun gözündə statistik vahid yox, ekosistemin zəifləyən halqalarıdır.

İnsanlara fitoterapiya ilə müalicəni tövsiyə edən Elşad Qurbanov üçün əsas prinsip "təbiiliyin kor-koranə tətbiqi" deyil, elmi baxımdan əsaslandırılmış müalicədir. "Dərman bitkiləri" dərs vəsaitinin müəllifi olan Elşad müəllim uzun müddət Space TV-də canlı yayımlanan "Çarə" verilişinə dəvət olunmuş və tamaşaçılarla ünsiyyət quraraq fitoterapiya yolu ilə müalicə ilə bağlı fikirlərini onlarla bölüşmüşdür.

Professor Elşad Qurbanovun uzunmüddətli elmi-pedaqoji fəaliyyəti, formalaşdırdığı elmi məktəb və bu sahədə apardığı ardıcıl, sistematik tədqiqatlar Azərbaycan botanika elminin inkişafında mühüm mərhələ təşkil etmiş, bu sahənin elmi-nəzəri bazasının möhkəmləndirilməsi üçün etibarlı zəmin yaratmışdır. Çoxillik elmi fəaliyyətinin məntiqi davamı kimi, 2022-ci ildə professor Elşad Qurbanovun baş redaktorluğu ilə təsis edilən "Acta Botanica Caucasica" beynəlxalq elmi jurnalı qısa müddət ərzində elmi ictimaiyyətin diqqətini cəlb edərək nüfuzlu akademik platformaya çevrilmişdir.

AMEA-nın müxbir üzvü Elşad Qurbanovun tərtib etdiyi "Azərbaycanın bitki örtüyü xəritəsi" 30 ildən artıq bir müddətdə sistemləşdirilməmiş bitkilik tiplərinin müasir vəziyyətini nizamlı şəkildə tam əks etdirən mükəmməl və gərgin əməyin nəticəsidir. Elşad Məcnun oğlu Qurbanov elmi fəaliyyətdə əldə etdiyi uğurlara görə dəfələrlə "İlin alimi", pedaqoji fəaliyyətinə görə "İlin müəllimi", "İlin kafedra müdiri" fəxri adlarını almış, Təhsil Nazirliyinin, AMEA-nın fəxri fərmanları, BDU-nun 75 illiyinə həsr edilmiş xatirə medalı ilə təltif olunmuşdur. Alim 2009-cu ildə "Tərəqqi" medalına, 2019-cu ildə "Əməkdar elm xadimi" fəxri adına və "BDU-nun 100 illiyi" yubiley medalına layiq görülmüşdür.

AMEA-nın müxbir üzvü Elşad Qurbanovun elmi-pedaqoji fəaliyyəti beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilmişdir. O, Avropa Nəşr Mətbuat Evi tərəfindən "Ən yaxşı vətənpərvər tədqiqatçı alim" qızıl medalı və fəxri diplomu (2015), Beynəlxalq Qızıl Ulduz medalı (2019) ilə təltif olunmuş, Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının və Qotfrid Vilhelm Leybnits adına Avropa Təbiət Elmləri Akademiyasının həqiqi üzvü seçilmişdir (2021).

Tanınmış alim, yetirmələrinin və tələbələrinin "canlı ensiklopediya" adlandırdığı Elşad Məcnun oğlu Qurbanovun yeni ilin ilk günlərində 75 yaşı tamam oldu. Dəyərli həmkarımızı bu münasibətilə təbrik edir, ona uzun, sağlam və mənalı ömür, elmi və elmi-pedaqoji fəaliyyətində yeni uğurlar arzulayıram.

***İradə HÜSEYNOVA,***
***AMEA-nın vitse-prezidenti,***
***akademik***

# Diasporumuzun gənc ailə örnəyi

**“Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı”nın əsas məqsədi gənclərə təhsilalma imkanı yaratmaqla, onların Azərbaycanın gələcək inkişafını təmin edəcək və qlobal çağırışlara cavab verəcək müasir texnologiyaları çevik mənimsəyən, praktiki bilik və bacarıqlara yiyələnən, müasir və gələcək əmək bazarının tələblərinə cavab verən rəqabətqabiliyyətli, yüksəkixtisaslı peşəkar kadrlar kimi hazırlanmasını təmin etməkdir.**



Bu fikirləri Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Böyük Britaniyada akademik və elmi fəaliyyət göstərən gənc ailə – dəyərli azərbaycanlı alimlər Aygün Azadova və Fərid Ədilovla bugünlərdə Bakıda keçirdiyi görüşlə bağlı dedi. O qeyd etdi ki, bəzən bir görüş təkcə cari niyyətlərin deyil, bütöv bir ilin planlarının yenidən düşünülməsi, daha fərqli, dərinləşdirilmiş perspektivlər və istiqamətlər üçün stimul yaradır.

**Bu gənc ailə ilə görüşün təsirli və ruhlandırıcı anlarının yaddaşına həkk olunduğunu bildirən komitə sədri daha sonra əlavə etdi:**

– Onların Azərbaycana səfərinin illər ayrıcına təsadüf etməsi qarşıdakı dövr üçün planlarımızda müəyyən müsbət korrektələr aparmağa, bəzi ideyaları daha konkret və hədəfli şəkildə formalaşdırmağa da təkan verdi. Xüsusilə elmin, təhsilin və dövlət siyasətinin bir-birini tamamladığı sahələrdə yeni yanaşmalar üzərində düşünmək üçün bu görüş əhəmiyyətli zəmin oldu.

Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, Aygün Azadova Dövlət Proqramı çərçivəsində Böyük Britaniyanın “Essex” Universitetində doktorantura təhsilini uğurla başa vurmuş, süd vəzi xərçəngi ilə bağlı elmi tədqiqatını yüksək səviyyədə müdafiə etmişdir. O, eyni zamanda, iki il ərzində həmin universitetdə müəllim və fənn rəhbəri kimi biologiya ixtisasını tədris etmiş, tələbələrlə uğurlu və nəticəyönümlü işi 2024-cü ildə “Təhsildə mükəmməllik” mükafatı ilə dəyərləndirilmişdir. Bu uğur azərbaycanlı alimlərin beynəlxalq akademik mühitdə etimad qazandığının bariz göstəricisidir.

Fərid Ədilov isə uzun illər Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində, o cümlədən xarici əlaqələr və protokol xidməti şöbəsinin müdiri kimi çalışaraq dövlət siyasətinin formalaşdırılması və icrası sahəsində dərin praktiki təcrübə əldə edib. Hazırda “Essex” Universitetinin Sosiologiya və Kriminologiya Departamentində doktorantura təhsili alır və müəllim kimi fəaliyyət göstərir. Onun tədqiqatı Azərbaycanın keys araşdırması əsasında qadınların milli qanunvericilik orqanlarında təmsilçiliyinin qərar qəbuletməyə təsirini tədqiq edir. Bu tədqiqatın nəticələrinin növbəti ildə “Oxford” Universitetində təqdim ediləcəyi ölkəmizdə bu sahədə həyata keçirilən siyasətin beynəlxalq elmi platformalarda tanıdılması baxımından xüsusi əhəmiyyət daşıyır.

**Komitə sədri ölkə Prezidentinin Qarabağ Universitetinin yeni korpusunun açılışında xaricdə təhsil alaraq universitetin tədris və elmi potensialına töhfə verən müəllimləri xüsusi olaraq qeyd etməsini də diqqətə çatdırdı:**

– Xüsusi məmnunluq doğuran məqamlardan biri də odur ki, Aygün və Fərid 15–16 dekabr 2025-ci il tarixlərində Qarabağ Universitetinin biznes və iqtisadiyyat fakültəsində akademik tərkib və tələbələr üçün yüksək səviyyəli təlimlər keçiblər. Akademik heyət üçün təşkil olunan “Ali təhsildə tədris və öyrənmə” mövzulu təlimdə Birləşmiş Krallığın ali təhsil təcrübəsi, QAA yanaşmaları və Professional Standards Framework 2023 çərçivəsi əsasında müasir tədris, qiymətləndirmə və keyfiyyət meyarları müzakirə olunub. Tələbələr üçün təşkil edilən “Akademik oxu və yazı” təlimi isə onların beynəlxalq akademik standartlara uyğun bacarıqlarının inkişafına mühüm töhfə verib.

Bu yanaşma bir daha göstərir ki, dövlət üçün insan kapitalına yatırım və beynəlxalq təcrübənin ölkəyə transferi strateji prioritetdir. Bu baxımdan görüş zamanı xüsusi olaraq vurğuladım ki, Aygün və Fəridin elmi fəaliyyətlərini davam etdirdikləri universitetlərlə Azərbaycan universitetləri arasında institusional əməkdaşlıqların, birgə tədqiqatların və akademik mübadilələrin qurulması olduqca vacibdir. Və onlar bu sahədə etibarlı körpü rolunu oynaya bilərlər.

Eyni zamanda, Fəridin tədqiqat sahəsi nəzərə alınaraq ona Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə elmi əsaslı əməkdaşlıq imkanlarının genişləndirilməsi, ölkəmizdə bu sahədə həyata keçirilən siyasətin uğurlu nəticələrinin daha geniş beynəlxalq auditoriyaya çıxarılması üçün yeni təşəbbüslər üzərində çalışma niyyətimizi bildirdim.

**Sonda Bahar Muradova ailənin karyeraya maneə olmadığını, əksinə, uğurlara yol açdığını dedi:**

– Vurğulamaq istərdim ki, elmə, təhsilə və birgə akademik fəaliyyətə söykənən bu sağlam əsaslı ailə təkcə peşəkar uğurları ilə deyil, istinad etdikləri dəyərlərlə də yeni qurulan ailələr üçün əsl örnəkdir. Eyni mərkəzdə çalışan, bir-birinin elmi yoluna dəstək olan, həyata, dəyərlərimizə və ölkəmizin qarşısındakı hədəflərə çatmaq istiqamətində fəaliyyətdə bir-birini yaxşı tamamlayan bu cütlüyün nümunəsi göstərir ki, ailə və karyera bir-birinə maneə deyil, əksinə, düzgün yanaşma olduqda bir-birini yeni uğurlara həvəsləndirə, həmçinin ailəni gücləndirə bilər.

Əminəm ki, belə alimlərimizin ölkə ilə bağlarının daha da möhkəmlənməsi, onların bilik və təcrübəsinin Azərbaycan elminə və dövlət siyasətinə inteqrasiyası qarşıdakı illərdə daha böyük nəticələrə yol açacaq.

Gənc alimlərlə görüşün sonunda Aygünlə Fəridi elmi fəaliyyətləri, şəxsi və ictimai həyatda qazandıqları nailiyyətlər və bayramlar münasibətilə ürəkdən təbrik etdim, bu gözəl ailə örnəyimizə rifah və səadət arzuladım!

***Söhbəti hazırladı:***
***Zərifə BƏŞİRQIZI***
***XQ***

# Elin vəfa borcu

**Dünən eşitdim ki, kəndimizin daha bir dəyərli oğlu dünyasını dəyişib. El-obada kimliyindən asılı olmayaraq, adamların amansız və zamansız ölümlərinə təəssüflənirik.**



Onun böyük ürəyi vardı. Böyük ürəkli adamların yaşamaq eşqi də böyük olur. O, xaraktercə iradəli və diribaş adam idi. Qamsaxurdiya dövründə gürcü millətçilərinin tənəsi və təzyiqi ilə üzləşsə də, böyük inam, böyük əqidə və böyük iradə onu heç vaxt tərk etmədi.

Həmin dövrlərdə Borçalıda müxtəlif vəzifələrdə işləmiş imkan sahibləri kənddən çıxıb Azərbaycana üz tutur və paytaxt Bakıda məskunlaşırdılar. O, el-obasının dar günündə kəndinin qədir-qiymətini daha yaxşı bilir və öz yerini doğma kəndində daha uzaqgörənliklə müəyyənləşdirir, öz məsuliyyətini dərindən dərk edirdi. Ona görə də dünyaya göz açdığı, qucağında böyüdüyü yurd-yuvadan, el-obadan – Faxralı kəndindən ömrünün sonunadək ayrılmadı.

...Mən onu uşaqlıq illərimdən tanıyırdım. Hələ orta məktəb şagirdi olduğum illərdə rayonda çıxan “Qələbə bayrağı” qəzetində gələcəyin jurnalisti kimi məqalələrim dərc olunurdu. O zaman Bayram müəllim də rayonda məsul vəzifədə işləyirdi. Rayon mərkəzində təsadüfən onunla rastlaşanda qabağında dili topuq çalan uşaq kimi olurdum. Görüşüb salamlaşanda da həyəcandan səsim titrəyirdi, nəfəsim təntiyirdi. Yaxşı ki, onun xoş təbəssümü və isti ürəklə hal-əhval tutması məni vəziyyətdən çıxardırdı. Mənə ürək-dirək verirdi. Deyirdi ki, məqalələrini oxuyuram, yaxşı yazırsan. Belə də davam et, yaz. Sanki demək istəyirdi ki, yad millətin, yad adamların içində özünü adamsız hiss eləmə, yaz, yarat...

Böyük ürəkli insanlar böyüklə böyük, kiçiklə kiçik olduqları üçün uca məqama çatırlar. Ona görə də insanların yaddaşında yaşamaq haqqı qazanırlar. İllər ötdü. O, mənim yaddaşımda böyük ürəkli adam kimi qaldı.

Bayram Əliyev kəndimizin sayılıb-seçilən, nüfuz sahibi olan oğullarından idi. O, çox xoşrəftarlı idi, hamıya hörmətlə, ləyaqətlə yanaşırdı. Bu da təsadüfi deyildi. Bayram müəllim kəndimizdə yurd salan, çıraq yandıran, el dolandıran və uzun illər rayonun rəhbər işçilərindən, eyni zamanda, ağsaqqallarından biri olmuş Əli Əliyevin ailəsində dünyaya göz açmışdı. Atasının yolunu ləyaqətlə davam etdirən Bayram Əliyev yüksək təhsil almışdı. Bir neçə dil bilirdi. Dil içində dil, din içində din bəsləyib yaşadığımız Gürcüstanda Bayram Əliyev kimi elmli, savadlı, yüksək təhsilli kadrlara soydaşlarımızın böyük ehtiyacı vardı. Bayram müəllim harada, hansı vəzifədə işləyirdisə, soydaşlarımızın etimadını səylə, bacarıqla doğruldurdu.

Atasının vəfatından sonra Bayram müəllim də vəzifə pillələrində irəlilədi və Bolnisi Rayon Partiya Komitəsinin katibi kimi rəhbər vəzifəyə yüksəldi. Rayonda təhsil, səhiyyə və ideoloji iş sahəsində fəaliyyətini doğru-düzgün məcraya yönəltdi.

Bayram Əliyevin xalqına, el-obasına mehri-məhəbbəti böyük idi. Onun xeyirxahlığı qonşu İmirhəsən kəndinin və doğma Faxralı sovxozunun direktoru işlədiyi illərdə daha qabarıq görünürdü. Ana kəndi üçün gördüyü xeyirxah işlər zaman-zaman xatırlanacaq.

İndi doğma elimiz öz oğlu ilə vidalaşır. Bu kiçik yazım da elimiz üçün vəfa borcu, Bayram Əliyevin doğmaları üçün isə kiçik bir təsəllidir. Gözəl dağına söykənmiş Faxralı kəndini – öz elini canı qədər sevən bir gözəl insan elimizi cismən tərk etsə də, ruhən həmişə doğmaları ilə olacaqdır. Məkanı behişt, ruhu şad olsun!

***Həzi HƏSƏNLİ,***
***şair-publisist***

# “Qiyamət günü buzlağı” çökə bilərmi?

**Alimlər Antarktidada yerləşən və “Qiyamət günü buzlağı” kimi tanınan Tveytzin vəziyyəti ilə bağlı ciddi narahatlıq ifadə edirlər. Peyk müşahidələrinin məlumatlarına görə, isti okean cərəyanları buzlağın alt qatını getdikcə daha fəal şəkildə aşındırır. Nəticədə, buzlaq çatlarla örtülür və sürətlə sabitliyini itirir.**



Tveytz Böyük Britaniyanın ərazisinə bərabər nəhəng buz kütləsidir. Onun tam dağılması ilə Dünya okeanının səviyyəsi 60 santimetr yüksələ bilər. Lakin mütəxəssislər xəbərdarlıq edirlər ki, ən təhlükəli ssenari buzlağın çökməsinin qonşu buz örtüklərinin də əriməsinə səbəb olan zəncirvari reaksiyanı işə salması ola bilər. Bu isə okeanların səviyyəsinin 3–5 metr qalxmasına səbəb olar.

***S.MƏMMƏDOV***
***XQ***

# Ankara məktəblərində Azərbaycan ayı




**Türkiyədəki Azərbaycan Mədəniyyət Mərkəzi Ankara özəl YÜCE məktəbləri ilə Azərbaycan mədəniyyəti, tarixi və dilinin təbliği məqsədilə ortaq layihə həyata keçirir. Bu məqsədlə Ankara özel YÜCE məktəblərində yanvar tematik ayı qardaş Azərbaycana həsr edilib və “Qafqazların incisi – qardaş ölkə Azərbaycan” adlandırılıb.**

Bununla bağlı Ankara özəl YÜCE məktəblərinin rəsmi səhifəsində paylaşım edilib. Paylaşımda “bu ayın qəlblərimizi və qapılarımızı qardaş xalqımız olan Azərbaycana açırıq” – deyə qeyd edilib, birlikdə bu qədim torpaqların sirri, yerin altından yüksələn əbədi odların hekayəsi, Xəzər dənizinin sahilində inci kimi parlayan paytaxt Bakının əsrarəngiz gözəllikləri, Qafqazların incisi gözəl Azərbaycana həsr ediləcəyi bildirilib.

Qeyd edək ki, tematik ay zamanı Azərbaycan Mədəniyyət Mərkəzi tərəfindən məktəblərdə bir aylıq milli mədəniyyətimiz və incəsənətimizi özündə əks etdirən “Azərbaycan stendi” təşkil olunacaq. Həmçinin Azərbaycan haqqında dərslər, müsabiqələr, viktorinalar, videotəqdimatlar, sənədli film və bədii film nümayişləri, rəsm və fotosərginin təşkili, məktəbin kitabxanası üçün Azərbaycana dair zəngin kitab kolleksiyasının hədiyyə olunması nəzərdə tutulur. Eyni zamanda, Azərbaycan nağıllarını təbliğ etmək üçün “Masal-Masal Türkiyə: Türk dünyası, Azərbaycan” mobil telefonlar üçün onlayn tətbiq proqramının təqdimatı, Azərbaycan milli rəqslərindən ibarət konsert proqramının təşkili planlaşdırılır.

Məktəblilər bu ayda Qafqazın incisi Azərbaycanın zəngin mədəniyyəti, ədəbiyyatı, möhtəşəm abidələri, memarlığı, əsrarəngiz turizm imkanları, habelə müstəqil Azərbaycanın qazandığı böyük nailiyyətlərlə tanış olmaq imkanı əldə edəcəklər.

***XQ***

# Xərçəngin diaqnozu asanlaşır

**Johns Hopkins Universitetinin bir qrup alimi 50-dən çox xərçəng növünü aşkar etməyə imkan verən yeni texnologiya hazırlayıb. Bu metod qandakı ən kiçik DNT dəyişikliklərinin müəyyən edilməsinə əsaslanır.**



Tədqiqat çərçivəsində ABŞ və Kanadanın onkoloji xəstəlik əlaməti olmayan 23 mindən çox sakininin sağlamlıq vəziyyəti barədə məlumatlar öyrənilib. Yeni diaqnostika metodu xəstələrin üçdə ikisində öz effektivliyini sübut edib. Belə ki, qanı xərçəng hüceyrələrinin mövcudluğu barədə siqnal verən pasiyentlərin 61,6 faizində diaqnoz sonradan rəsmi şəkildə təsdiqlənib.

Alimlər bu layihənin hələ tədqiqat mərhələsində olduğunu vurğulayırlar. Hazırlanmış metod insan qanına xərçəng hüceyrələri tərəfindən ifraz olunan DNT-ni (ctDNA) aşkar edir. Bu texnologiya əsasında testlər istehsal edən “Grail” şirkətinin prezidenti hesab edir ki, sözügedən sınaqlar onkoloji xəstəlikləri digər diaqnostika üsullarından yeddi dəfə daha yaxşı müəyyən etmək qabiliyyətinə malikdir.

Lakin Oksford Universitetinin molekulyar diaqnostika üzrə professoru Anna Şu xəbərdarlıq edib ki, araşdırmanın hazırkı mərhələsində test, demək olar ki, yarısında yanlış nəticələr verir.

***S.ELAY***
***XQ***

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

*öz gəmilərində “İp kameralar + NVR xidmətlərinin (material daxil) satın alınması məqsədilə*

AÇIQ TENDER ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2026-cı il yanvarın 12-si saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Əlaqə telefonu**: (012) 404-37-00, daxili: 1132.

**Ünvan**: Bakı, Mikayıl Useynov küçəsi 2.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 02 (30971) 7 yanvar 2026-cı il, çərşənbə

# Azərbaycan qışda da turistlərə gəl-gəl deyir

*Bu sahənin inkişafı həm ölkəmizi tanıdır, həm də qazanc gətirir*

**Son illər Azərbaycanda turizmin inkişafı ilə bağlı böyük addımlar atılıb, uğurlu layihələr həyata keçirilib. Reallaşan dövlət proqramları, yüzlərlə turizm şirkətinin fəaliyyəti, bu yöndə marşrutların yaradılması Azərbaycanı turizm ölkəsi kimi tanıdıb. Sevindirici haldır ki, bu reallıqların və turizm sahəsinə ayrılan diqqətin nəticəsidir ki, ölkəmizə gələn turistlərin sayında ilbəil nəzərəçarpan dərəcədə artım müşahidə olunur.**



Azərbaycanda bir neçə gündür ki, qış turizmi mövsümünə start verilib. Qış turizmi insanların istirahət, sağlamlıq və idman məqsədilə səyahət etməsini əhatə edən mühüm turizm sahəsidir. Qarla örtülmüş dağlar, şaxtalı hava və təbiətin özünəməxsus gözəlliyi qış turizmini digər mövsüm turizmlərindən fərqləndirir. Bu turizm növü həm macəra sevənlər, həm də sakit istirahət axtaranlar üçün geniş imkanlar yaradır. Qış aylarında termal sular, sanatoriyalar və SPA mərkəzlərinə səyahətlər də sağlamlıq turizminin inkişafına səbəb olur. İnsanlar soyuq havada həm dincəlir, həm də sağlamlıqlarını möhkəmləndirirlər. Eləcə də qış turizmi regionların sosial-iqtisadi inkişafında da mühüm rol oynayır. Turist axını otellərin, nəqliyyatın, ictimai iaşə obyektlərinin fəaliyyətini canlandırır, yeni iş yerlərinin yaradılmasına şərait yaradır. Xüsusilə dağlıq ərazilərdə yaşayan əhali üçün qış turizmi əlavə gəlir mənbəyinə çevrilir.

Azərbaycanda uğurlu layihələrdən və ilk dağ-xizək kurortu olan "Şahdağ" Qış-Yay Turizm Kompleksi oxşar istirahət mərkəzlərindən bənzərsizliyi ilə fərqlənir və il boyu fəaliyyət göstərmək iqtidarındadır. Həmçinin, kompleks müasir tələblərə cavab verir. "Şahdağ" Qış-Yay Turizm Kompleksi və "Tufandağ" Dağ-Xizək Kompleksinə yerli və xarici ölkə, xüsusilə də körfəz ölkələrinin vətəndaşları tərəfindən böyük maraq göstərilir. Dəniz səviyyəsindən 1300-2300 metr yüksəklikdə yerləşən "Şahdağ" turizm kompleksinin ərazisi 2058 hektardır. "Şahdağ" Qış-Yay Turizm Kompleksinə daxil olan "Qaya" və "Zirvə" mehmanxanalarının fəaliyyəti də turistlərin istirahətinə daha geniş imkanlar yaradır. Eləcə də Qusar və Qəbələdə yaradılan istirahət guşələri onu göstərir ki, Azərbaycan qış turizminin təşkili baxımından hər cür imkana malik ölkələrdəndir.

"Şahdağ" Turizm Mərkəzi QSC-nin sədri Rüstəm Nəcəfovun verdiyi məlumata görə, 2025-ci ilin 1 yanvar – 15 dekabr tarixlərində mərkəzə səfər edən ziyarətçilərinin sayı 300 mindən çox olub. O, qış turizm mərkəzinin genişləndirilməsinin beşinci mərhələsi çərçivəsində qış mövsümünün sonuna qədər 2 lift bazasının və 76 ədəd qar generatorunun quraşdırılmasının, ümumi uzunluğu 7070 metr olan yeni xizək yamaclarının inşasının, həmçinin 150 min kubmetrlik su anbarının tikintisinin və 26 nömrəli kanat xəttinin istifadəyə verilməsinin gələcəkdə xizək infrastrukturunun inkişafına xidmət edəcəyini bildirib.

Qış turizminin ən sevilən yerlərindən olan "Şahdağ" təkcə istirahət mərkəzi kimi deyil, eyni zamanda, yerli və beynəlxalq səviyyəli idman yarışlarının keçirildiyi nüfuzlu məkana çevrilib. Belə ki, kompleksdə müxtəlif beynəlxalq idman tədbirlərinin keçirilməsi üçün 500 nəfərlik FİS (Beynəlxalq Xizək və Snoubord Federasiyası) stadionu inşa edilir. Həmçinin bu ilin qış mövsümündə "Şahdağ" dağ xizəyi üzrə Azərbaycan çempionatına, xizək alpinizmi üzrə Avropa çempionatına və Dünya Kubokuna, eləcə də "Mogul" üzrə Dünya Kubokunun final mərhələsinə ev sahibliyi edəcək. Onu da qeyd edək ki, "Şahdağ"da bu günə qədər həyata keçirilən işlər nəticəsində kanat xətlərinin sayı 15-ə, müxtəlif çətinlik dərəcəsində olan yamacların sayı 37-yə, uzunluğu isə 45 kilometrə çatdırılıb, xizək sürməyə yeni başlayanlar üçün 6 konveyer tipli yol salınıb. Həmçinin xizək yamaclarının daim qarla təmin olunması üçün 600 ədəd qar generatoru quraşdırılıb. Bununla yanaşı, qış və yay aylarında açıq və qapalı məkanlarda fəaliyyət göstərən əyləncə növlərinin və attraksionların sayı 40-a, iaşə obyektlərinin sayı isə 64-ə çatdırılıb.

Xüsusilə qeyd olunmalıdır ki, Azərbaycanda qış turizminin, eləcə də digər növlərinin coğrafiyasını genişləndirmək istiqamətində 30 illik erməni işğalından azad edilmiş Qarabağ və ətraf rayonlarda da böyük imkanlar vardır. Digər bölgələrimizlə yanaşı, Qarabağ torpaqları bütün imkanları ilə ən vacib regionlardan biridir və turizm potensialı kifayət qədər genişdir. Qarabağın əlverişli iqtisadi-coğrafi mövqeyi, zəngin ehtiyatlara, nadir təbii iqlim xüsusiyyətlərinə malik olması, münbit torpağı, zəngin flora və faunası ölkə turizm sənayesinin inkişafı üçün yeni üfüqlər açıb.

İlin dörd fəslində füsunkar təbiəti ilə qonaqları heyran edən, saf havası, müalicəvi suları, tarixi abidələri ilə dillərdə dastan olan füsunkar Qarabağ, sözsüz ki, yaxın illərdə ölkə turizminin inkişafına güclü təkan verəcək. Əzəli torpaqlarımız – Ağdam, Zəngilan, Laçın, Kəlbəcər, Füzuli, Cəbrayıl, Qubadlı, Şuşa, Xocalı, Xocavənd və Hadrut, eləcə də, erməni vandallarının darmadağın etdiyi digər yurd yerlərimiz əsl cənnətə çevriləcək. Təbii ki, yaxın gələcəkdə bu yerlər böyük turist axınına səbəb olacaq.

**Turizm üzrə ekspert Rəhman Quliyev bu sahənin inkişafı ilə bağlı XQ-yə açıqlamasında bildirib ki,** qış turizmi bir çox ölkələr üçün mühüm gəlir mənbəyidir. İsveçrə, Avstriya, Kanada kimi dövlətlərdə xüsusilə qış turizmi dövlət büdcəsinin formalaşmasında əhəmiyyətli rol oynayır. Sözsüz ki, ölkəmiz coğrafi mövqeyi və təbii iqlim şəraiti ilə qış turizminin inkişafı üçün böyük potensiala malikdir.



Ekspert hesab edir ki, ilk növbədə, infrastrukturun təkmilləşdirilməsi vacibdir. Qış turizmi mərkəzlərinə gedən yolların keyfiyyəti artırılmalı, ictimai nəqliyyat və hava limanları ilə əlaqə gücləndirilməlidir. Turistlər üçün rahat otellər, xizək mərkəzləri, kanat yolları və istirahət zonaları daha müasir səviyyədə qurulmalıdır.

İkinci mühüm məsələ xidmət keyfiyyətinin yüksəldilməsidir. Otellərdə, restoranlarda və turizm obyektlərində çalışan personal peşəkar təlimlərdən keçməli, xarici dil bilməli və turistlərlə düzgün ünsiyyət qurmağı bacarmalıdır. Bu, turist məmnuniyyətini artıraraq onların yenidən ölkəmizə gəlməsinə şərait yaradar. Bundan əlavə, reklam və tanıtım işləri gücləndirilməlidir.

Habelə, Azərbaycanın qış turizmi imkanları beynəlxalq sərgilərdə, sosial şəbəkələrdə və turizm platformalarında daha fəal şəkildə tanıdılmalıdır. Xüsusilə "Şahdağ", "Tufandağ" kimi və gələcəkdə işğaldan azad olunmuş dağlıq rayonlarımızda tikiləcək qış turizmi mərkəzlərinin dünya miqyasında brendə çevrilməsi məqsədəuyğundur.

Digər tərəfdən, qiymət siyasəti də turist cəlbediciliyində mühüm rol oynayır. Daha münasib qiymətli tur paketləri, ailə və tələbələr üçün endirimlər turist axınını artıra bilər. Eyni zamanda, yerli sahibkarlara dövlət tərəfindən güzəştlərin verilməsi turizm sektorunun genişlənməsinə kömək edər.

R.Quliyev daha sonra qeyd etdi ki, qış turizminin inkişafı üçün kompleks yanaşma tələb olunur. İnfrastrukturun yaxşılaşdırılması, xidmət keyfiyyətinin artırılması, güclü reklam və düzgün qiymət siyasəti ölkəmizdə qış turizminin ilbəil inkişaf etməsinə və turist sayının artmasına səbəb olacaq. Bu sahənin inkişafı gələcəkdə dövlət büdcəsinə də ciddi iqtisadi töhfə verəcək.

*Müşfiq MİRZƏ*
*XQ*

## İDMAN

### "Şahdağ"da beynəlxalq xizək turniri keçiriləcək



**Ölkəmizdə ilk dəfə keçiriləcək dağ xizəyi üzrə beynəlxalq turnirə 20-dən çox idmançı qatılacaq. Azərbaycan Qış İdman Növləri Federasiyasının mətbuat katibi Orxan Bədəlovun sözlərinə görə, yarış "Şahdağ" Turizm Mərkəzi və federasiyanın birgə təşkilatçılığı ilə baş tutacaq.**

Turnir üçün qeydiyyat prosesi bu gün başa çatır. Dünənə olan məlumata əsasən, 20-dən çox idmançı yarışa qatılacaq. İsveçrə, Macarıstan, Sloveniya, Səudiyyə Ərəbistanı, Böyük Britaniya, Özbəkistan və Honq-Konqdan olan xizəkçilər mübarizə aparacaqlar. Azərbaycanı isə Anastasiya Papatoma təmsil edəcək.

Qeyd edək ki, "Azerbaijan Open" beynəlxalq dağ xizəyi turniri yanvarın 8-dən 11-dək Qusar rayonunda keçiriləcək.

### Eldəniz Əzizli karyerasını başa vuracaq



**Azərbaycanın məşhur yunan-Roma güləşçisi Eldəniz Əzizli (55 kq) bu il keçiriləcək Dünya çempionatından sonra karyerasını başa vuracaq.**

Bu barədə mətbuata açıqlamasında 33 yaşlı idmançı özü məlumat verib.

Karyerası ilə bağlı qərar qəbul etdiyini deyən idmançı bu il də güləşə davam edəcəyini bildirib. O deyib: – Böyük ehtimalla Avropa çempionatında iştirak etməyəcəyəm. Ancaq ilin sonunda karyeram üçün önəmli olan Dünya çempionatına qatılacağam.

Xatırladaq ki, Eldəniz Əzizli 4 qat Dünya və 2 qat Avropa çempionudur. Cari ildə güləş üzrə Dünya çempionatı oktyabrın 24-dan noyabrın 1-dək Bəhreynin paytaxtı Manamada keçiriləcək. Avropa çempionatı isə aprelin 20-dən 26-dək Albaniyanın paytaxtı Tiranada təşkil olunacaq.

### Yelena Parxomenko voleybol münsifidir



**Azərbaycanın kişilərdən ibarət voleybol millisinin meneceri Yelena Parxomenko Avropa Voleybol Konfederasiyasından (CEV) növbəti dəfə təyinat alıb. Azərbaycan Voleybol Federasiyasından verilən məlumata görə, o, kişi voleybolçular arasında keçirilən CEV Kubokunun 1/16 final oyununda iştirak edəcək.**

Y.Parxomenko bu gün Rumıniyada keçirilən "CSM Corona" (Rumıniya) – "Volley Şönenverd" (İsveçrə) qarşılaşmasında supervayzer kimi hakimlərin işini qiymətləndirəcək.

*Qabil YUSİFOĞLU*
*XQ*

## HAVA

### Gecə və səhər zəif duman olacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Cənub-şərq küləyi axşam şimal-qərb küləyi ilə əvəzlənəcək.**

Havanın temperaturunun gecə 5-7, gündüz 9-13 dərəcə isti olacağı proqnozlaşdırılır. Atmosfer təzyiqi normadan yüksək - 766 millimetr civə sütunu, nisbi rütubət isə gecə 80-85, gündüz 70-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Mülayim qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 1 dərəcə şaxtadan 4 dərəcəyədək isti, gündüz 12-17 dərəcə isti, dağlarda gecə 2-7 dərəcə şaxta, gündüz 7-12 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*



**ALLAH RƏHMƏT ELƏSİN!**

Bakı Apellyasiya Məhkəməsinin kollektivi qurumun əməkdaşı Ellada Sarıyevaya anası

**SƏRİYYƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin kollektivi iş yoldaşları Adil Ağalarova anası

**TUTU AĞALAROVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin qaz-neft-mədən fakültəsinin kollektivi neftçi alim, professor, AMEA-nın müxbir üzvü

**BAĞIR SÜLEYMANOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verir.

Əmirxan Babaşov, Sədrəddin Qasımov və Əflatun Amaşov Güləsər, Sona, Lalə və Azad Əliyevlərə qardaşları

**BAYRAM ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

✓ ***Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin əməkdaşı Kamil Nazim oğlu Sultanovun adına verilmiş AR seriyalı, 059244 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.***

✓ ***Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin əməkdaşı Abas Elşən oğlu Abasovun adına verilmiş AR seriyalı, 0579363 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.***

✓ ***2016-cı il iyunun 14-də Qazax Dövlət Sosial-İqtisadi Kolleci tərəfindən Həsənov Vaqif Eynulla oğlunun adına verilmiş 081548 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.***

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2352
SİFARİŞ 13
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00